*MƏMMƏD MİRZƏYEV*

*CANALI MİRZƏLİYEV*

# "QARA QIZIL" AĞ SƏADƏT RƏNGİNDƏ

**BEŞİNCİ KİTAB**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

1805

"MBM"
Bakı - 2004

3r
M 67

Rəyçilər:
**Rahib Rəhmanov**
Geologiya-mineralogiya elmləri doktoru, professor

**Rasim Dadaşov**
Geologiya-mineralogiya elmləri doktoru

MƏMMƏD MİRZƏYEV, CANALI MİRZƏLİYEV
**"QARA QIZIL" AĞ SƏADƏT RƏNGİNDƏ".** Bakı, "MBM" MMC mətbəəsi, 2004, - 208 səh.

"Qara qızıl" ağ səadət rəngində" eyni adlı beşinci kitabda əvvəlki kitablarda olduğu kimi, Azərbaycanın neft strategiyasından, neft-qaz sənayesinin inkişafında fədakarlıq göstərənlərin əmək fəaliyyətindən, xoş xatirələrlə yad edilən neftçilərdən səmimi söhbət açılır.

ISBN 9952-29-059-4

"MBM" MMC



***"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

***H.Ə.ƏLİYEV***

# BİRİNCİ BÖLMƏ

## "LİDER" YARIMDALMA ÜZƏN QAZMA QURĞUSUNUN İSTİSMARA BURAXILMASI MƏRASİMİNİN İŞTİRAKÇILARINA

- Hörmətli mərasim iştirakçıları!
- Əziz neftçilər!

Bu gün Azərbaycanın neft sənayesinin tarixində əlamətdar bir hadisə baş verir. Respublikamız tərəfindən dünyanın aparıcı neft şirkətləri ilə bağlanmış və uğurla həyata keçirilən sazişlər çərçivəsində Xəzər dənizinin sularının altında zəngin neft və qaz yataqlarının kəşfini və hasilatını təmin edəcək yeni yarımdalma üzən qazma qurğusu istismara verilir.

Bu əlamətdar hadisə münasibətilə qurğunun yaradılmasında iştirak etmiş neftçilərimizi, mühəndislərimizi, mütəxəssislərimizi, xarici şirkətlərin nümayəndələrini səmimi qəlbdən təbrik edirəm!

Mən bu qurğunun adını "Lider" qoydum. Həqiqətən, bu qazma qurğusu müasir elmin və texnologiyanın ən son standartlarına cavab verən nəhəng, əzəmətli istehsal müəssisəsidir. Xəzər dənizində ən böyük və güclü olan bu qurğunun istismara verilməsi bütün neft sənayesi infrastrukturunun inkişafında keyfiyyətcə yeni mərhələdir. Texniki göstəricilərinə görə "Lider" Xəzərin istənilən dərinliyini fəth etməyə qadirdir. Əminəm ki, bu qurğu daim irəlidə gedən əsl lider olacaq.

Tarix boyu Azərbaycan Xəzər dənizində karbohidrogen ehtiyatlarının işlənilməsində birinci olub. 1994-cü ildə müstəqil Azərbaycan öz yeni neft strategiyasını bəyan etdikdən sonra neftçilərimiz müxtəlif dərinliklərdə işləyə bilən "Dədə Qorqud", "İstiqlal" və "Qurtuluş" kimi müasir qazma qurğularını əldə ediblər. Fərəhləndirici haldır ki, bu qurğular indi də layiqincə öz vəzifələrini yerinə yetirirlər.

Dənizdə çalışan insanlar çox mətin, qoçaq, qəhrəman olurlar. Mən "Lider" qurğusunda işləyənlərə möhkəm can sağlığı, Vətənimizin, xalqımızın naminə yeni-yeni nailiyyətlər arzulayıram!

Hörmətli mərasim iştirakçıları!

Bir daha hamınızı salamlayıram, sizə səmərəli iş, əmin-amanlıq və tərəqqi diləyirəm.

***Heydər ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***24 iyul 2003-cü il***



## "LİDER" YARIMDALMA ÜZƏN QAZMA QURĞUSU İSTİFADƏYƏ VERİLMİŞDİR

*İyulun 24-də respublikamızın paytaxtında "Lider" yarımdalma üzən qazma qurğusunun istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycanın dövlət himni əzəmətlə səsləndirildi.*

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev mərasimi açaraq dedi ki, bu gün müstəqil ölkəmizin iqtisadiyyatında, prezidentimiz Heydər Əliyevin neft strategiyasının reallığa çevrilməsi prosesində çox əhəmiyyətli, əlamətdar hadisə baş verir, yeni bir mühüm mərhələ başlanır. Xəzər dənizinin Azərbaycan hissəsinin və bütövlükdə Xəzər regionunun dərin sularda neft və qaz yataqlarının kəşfi üçün yeni tikilmiş nəhəng və dünyada təkrarı olmayan bu qazma qurğusu Azərbaycanın inkişafının rəmzinə çevriləcəkdir. Bu və digər nailiyyətlərimiz bilavasitə möhtərəm Heydər Əliyevin rəhbərliyi altında əldə olunmuşdur və onun Adı ilə bağlıdır.

Azərbaycan prezidentinin köməkçisi Əli Əsədov dövlətimizin başçısının təbrik məktubunu mərasim iştirakçılarına oxudu.

Daha sonra Natiq Əliyev çıxış edərək bildirdi ki, son illər istifadəyə verilən "Dədə Qorqud", "İstiqlal" qazma qurğuları və Bakıda yenidən inşa olunmuş "Qurtuluş" özüqalxan qazma qurğusu çox uğurla istismar edilir və bunların köməyi ilə "Azəri", "Çıraq", "Günəşli", "Şah-dəniz" yataqlarında və digər strukturlarda bir neçə kəşfiyyat quyusu qazılmışdır. Xəzər dənizində suyun dərin hissələrində yerləşən "Alov", "Şərq", "Zəfər", "Məşəl", "Savalan" və sair kəşfiyyat blokları üzrə qazma işlərini sürətləndirmək üçün yeni qazma qurğusuna ehtiyac var idi. Bu məqsədlə EksonMobil, ŞevronTexeso, KonokoFillips və Total şirkətləri yeni qazma qurğusunun inşa edilməsi barədə qərar qəbul etdilər.

Natiq vurğuladı ki, ARDNŞ-in, "LUKoyl" və "KeppelFels" şirkətlərinin yaratdıqları "Kaspian Şhipyard Kompani" müştərək müəssisəsinin gərgin əməyi nəticəsində inşa edilən, ümumi dəyəri 250 milyon dollar olan, müasir avadanlıqla təchiz olun-

muş bu möhtəşəm qurğu dənizin 75 metrdən 1025 metrədək dərinliyində 9144 metrədək kəşfiyyat quyularının qazılmasına imkan verir. Qurğunun inşasına 2001-ci ilin avqustunda başlanmış və nəzərdə tutulduğundan 2 ay qabaq başa çatdırılmışdır. Onun inşasında iştirak edən mütəxəssislərin 80 faizi azərbaycanlılar olmuşdur.

Bu möhtəşəm qazma qurğusu neftçilərin Azərbaycan xalqına hədiyyəsidir. Biz neftçilər kimi yaxşı bilirik ki, prezidentimiz Heydər Əliyev Azərbaycanın inkişafı, çiçəklənməsi istiqamətində, Milli dövlətçiliyimizin möhkəmləndirilməsi sahəsində misilsiz işlər görmüşdür.

Prezidentimizin səhhəti ilə bağlı müxalifət mətbuatında dərc olunan məqalələrə toxunan Natiq Əliyev bu cür yazıların xalqımızı hiddətləndirdiyini söylədi, dövlətimizin başçısına can sağlığı və uzun ömür arzuladı, ARDNŞ-in birinci vitse-prezidenti kimi İlham Əliyevin respublikamızın sosial-iqtisadi həyatında mühüm rol oynayan neft sazişlərinin hazırlanmasında, imzalanmasında və həyata keçirilməsində müstəsna xidmətlərini yüksək qiymətləndirdi, onun iqtisadiyyatda və siyasətdə gördüyü işlər barədə danışdı.

O, "Lider" qazma qurğusunun tikintisində iştirak edən şirkətlərin nümayəndələrini, layihənin rəhbərliyini, neft sənayesi işçilərini və Azərbaycan xalqını bu tarixi hadisə münasibətilə təbrik etdi.

Sonra "Maersk Contraktors" şirkətinin icraçı direktoru Yess Soderberq, "EksonMobil" şirkətinin vitse-prezidenti Mayk Kroll, ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili xanım Nensi MakEldauni, "KeppelFels" korporasiyasının prezidenti Lim Çi On, "Kaspian Şhipyard" şirkətinin prezidenti Bill Kiy çıxış etdilər, yeni yaradılan qazma qurğusunun istifadəyə verilməsindən fəxr duyduqlarını və onun özünü doğruldacağını vurğuladılar. Bildirildi ki, qurğu üç illik qazma proqramının yerinə yetirilməsindən ötrü nəzərdə tutulmuşdur və Xəzər dənizində işləyən çoxsaylı qurğulardan birincisi olacaqdır.

Natiqlər prezident Heydər Əliyevə, Azərbaycan hökumətinə, Dövlət Neft Şirkətinə dərin minnətdarlıqlarını bildirdilər və dedilər ki, tikinti işlərinin çox hissəsi Bakıda yerinə yetirilmişdir. Bu



da təqribən min nəfər Azərbaycan vətəndaşı və bir çox yeni şirkətlər üçün yeni iş yerlərinin açılmasına imkan yaratmışdır. Qurğunun tikintisi bu layihənin müvəffəqiyyətlə həyata keçirilməsində iştirak edənlərin əməkdaşlığı nəticəsində yüksək nailiyyətlərin əldə olunmasının bariz nümunəsidir.

Sonra onlar öz ölkələrindən göndərilmiş təbrik məktublarını oxudular. "Maersk Constraktors" şirkətinin icraçı direktoru Yess Soderberq əlamətdar hadisə münasibətilə və onlara göstərdiyi diqqət və qayğıya görə Azərbaycan prezidenti Heydər Əliyevə bir daha dərin minnətdarlığını çatdırdı, onun minnətdarlığını çatdırdı, onun rəhbərliyi altında görülən işləri yüksək qiymətləndirdi və dövlətimizin başçısına xatirə olaraq "Lider" yarımdalma üzən qazma qurğusunun maketinin hədiyyə edildiyini bildirdi.

Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev mərasimə yekun vuraraq dedi ki, ənənəvi olaraq, prezidentimiz Heydər Əliyev hər dəfə yeni qazma qurğularına xeyir-duasını verir. Bu gün məmnuniyyət hissi ilə bir daha bildirmək istərdim ki, prezidentimizin təbrik məktubu, onun bizə olan diqqət və qayğısı hər bir işimiz üçün çox əhəmiyyətlidir. Bu qurğunun da adı şəxsən möhtərəm prezidentimiz tərəfindən verilmişdir. İcazə verin, mərasim iştirakçıları adından Azərbaycan prezidenti Heydər Əliyevə öz dərin təşəkkürümü və minnətdarlığımı bildirim.

Sonra "Lider" qazma qurğusunun istifadəyə verilməsini bildirən start düyməsi işə salındı. Bununla da müstəqil Azərbaycan yeni bir tarixi hadisəni yaşadı.

Mərasimdə Azərbaycanın dövlət və hökumət adamları, nazirlər, şirkət və komitə rəhbərləri, Milli Məclisin deputatları, xarici ölkələrin Bakıdakı səfirləri və digər rəsmi şəxslər iştirak edirdilər.

*2003-cü il, iyul*

## "PROFESSOR ƏZİZ ƏLİYEV" TANKERİNİN İSTİSMARA VERİLMƏSİ VƏ YAXT-KLUBUN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ
### (Cənab İlham Əliyevin çıxışından)

- Hörmətli xanımlar və cənablar!
- Əziz dostlar!

Bu gün Azərbaycanda bayramdır. Azərbaycan üçün, ölkəmiz üçün iki mühüm hadisə baş verir. Professor Əziz Əliyevin adını daşıyan tanker istismara verilir, eyni zamanda, Azərbaycanda gözəl Yaxt-klub açılır. Hər iki hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.

Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyəti son illər ərzində çox yüksək səviyyəyə qalxıbdır. Gəmiçilik tərəfindən həyata keçirilən böyük tədbirlər öz əyani nəticələrini verməkdədir. Çox sevindirici haldır ki, gəmiçilik öz vəsaiti hesabına öz donanmasını yeniləşdirib, yeni avadanlıq alınır, o cümlədən yeni gəmilər, tankerlər alınır. Mənim üçün çox əzizdir ki, bu tanker görkəmli dövlət xadimi, gözəl alim, qayğıkeş həkim, mənim babam Əziz Əliyevin adını daşıyır.

Belə gəmilərə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adları verilməsi çox müsbət haldır. Gəmiçilik tərəfindən alınan birinci gəmiyə maestro Niyazinin adı verilib, ondan sonra alınacaq tankerin adı "Cəlil Məmmədquluzadə" olacaqdır. Bilirəm ki, Gəmiçiliyin planlarında digər iri tankerlər alınması da vardır. İnanıram ki, onlara da Azərbaycanın tarixində mühüm rol oynamış şəxslərin adları veriləcəkdir.

Bu tankerin istismara verilməsi, hesab edirəm, təkcə gəmiçilik üçün deyil, bütün iqtisadiyyatımız üçün çox önəmli bir hadisədir. Bu, Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir. Heydər Əliyevin neft strategiyası çoxşaxəlidir, çox istiqamətlərdən ibarətdir. Təbii ki, ilkin mərhələdə əsas vəzifə Azərbaycana xarici sərmayə gətirmək, Azərbaycanın bütün maraqlarını nəzərə almaq və qorumaq şərti ilə xarici şirkətlər üçün gözəl şərait yaratmaq və beləliklə, ölkəmizdə neft sənayesini canlandırmaq idi. Bu mərhələ uğurla başa çatdı və artıq Azərbaycan adam başına düşən xarici sərmayələrin qoyuluşuna görə MDB ölkələri arasında birinci yerdədir.



Azərbaycan neft hasil edən elə ölkədir ki, onun dünya bazarlarına açıq çıxışı yoxdur. Belə olan halda, təbii ki, neft kəmərlərinin tikilməsi zəruridir. Çox çətin bir şəraitdə, iqtisadi, siyasi və digər çətinliklərlə üzləşməsinə baxmayaraq, Heydər Əliyevin iradəsi ona imkan verdi ki, Azərbaycan qısa bir müddət ərzində bir neçə neft kəmərinin tikilməsinə nail oldu. Bakı-Novorossiysk, Bakı-Supsa neft kəmərləri vasitəsilə Azərbaycan nefti dünya bazarlarına çatdırılır. İndi isə Bakı-Tbilisi-Ceyhan kimi nəhəng, irimiqyaslı, dünya üçün önəmli neft kəməri çəkilməkdədir. Heydər Əliyevin neft strategiyasının təntənəsi budur.

Bu strategiyanın bir tərkib hissəsi də Azərbaycanı tranzit ölkəyə çevirməkdən ibarət idi. Çünki Azərbaycan neft-qaz hasil edən ölkəyə çevrilib, gələcəkdə çıxarılacaq neftin həcmi 50 milyon tona çatacaqdır. Bəlkə, ondan da çox olacaqdır. Amma, eyni zamanda, Azərbaycan öz coğrafi vəziyyətindən istifadə edərək, başqa ölkələr üçün tranzit ölkəyə çevrilir.

Əlbəttə, bu tankerin əsas vəzifəsi Xəzər dənizinin şərqində yerləşən yataqlardan çıxarılan nefti Bakıya çatdırmaqdır, ondan sonra neft Şərq-Qərb dəhlizi vasitəsilə dünya bazarlarına göndəriləcəkdir. Bu işlər getdikcə daha da genişlənəcəkdir. Artıq Qazaxıstan ilə gələcək əməkdaşlıq haqqında danışıqlar aparılıbdır. Danışıqların nəticələri çox müsbətdir və yaxın gələcəkdə, yəqin ki, Qazaxıstandan və başqa ölkələrdən Azərbaycan vasitəsilə daşınan yüklərini o cümlədən, neft məhsullarının, xam neftin həcmi artırılacaqdır.

Ümumiyyətlə, Azərbaycanda nəqliyyat infrastrukturu genişlənir, güclənir. Əlbəttə, bunun əsas səbəbi ondadır ki, Azərbaycanın iqtisadiyyatı çox sürətlə, hərtərəfli inkişaf edir. Nəqliyyatla bilavasitə məşğul olan idarələr, qurumlar, şirkətlər yeni pilləyə qalxıblar. Dəmir yolu idarəsində çox müsbət dəyişikliklər baş verir, çox böyük işlər görülübdür. "Dübəndi" neftdoldurma terminalı tikilib istifadəyə verilibdir. Yüzdən artıq sistem alınıb istifadəyə buraxılıbdır. Bakı-Gəncə, Bakı-Mingəçevir, Bakı-Astara, Bakı-Dərbənd sərnişin qatarları istifadəyə verilibdir. Lokomotiv deposunda gözəl təmir-bərpa işləri

aparılıbdır. Dəmir-beton şpallar zavodu istifadəyə verilibdir və digər işlər görülübdür. Bütün bunlar Azərbaycan üçün lazımdır, vacibdir. Əminəm ki, gələcəkdə də işlər bu istiqamətdə davam etdiriləcəkdir.

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin xəttilə böyük işlər görülübdür. Bakının hava limanı ən müasir standartlara cavab verən şəkildə tikilib istifadəyə verilibdir. Yerli xətlərlə məşğul olan qurum işini çox yüksək səviyyədə saxlaya bilib və Bakıda köhnə hava limanının inzibati binası və aerovağzal kompleksi demək olar ki, tamamilə sökülərək, əvəzinə yeni müasir bina tikilib istifadəyə verilibdir.

Naxçıvanda yeni aerovağzal kompleksi və hava limanı tikilir. Prezidentin göstərişi ilə inşa olunan hava limanı ən yüksək standartlara cavab verəcəkdir. Eyni zamanda, orada dünyada ən böyük təyyarələrin, o cümlədən yük təyyarələrinin qalxıb-enməsinə imkan verən uçuş zolaqları olacaqdır. Bu da təbiidir. Çünki blokada şəraitində yaşayan, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan daim cənab prezidentin diqqət mərkəzindədir və hökumət də daim oraya diqqət göstərir və bundan sonra da göstərəcəkdir.

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin xəttilə iki "Boinq-757" təyyarəsi alınıbdır. İndi vertolyot parkı yeniləşdirilir. Fransadan ən müasir vertolyotlar alınır ki, bunlar da Azərbaycanda həm neftçilərə xidmət edəcək, həm də müvafiq qurumlara gözəl kömək olacaqdır.

Azərbaycanda avtomobil yolları kreditlər, daxili imkanlar vasitəsilə yeniləşir, təzə yollar salınır. Bakı-Qazax avtomobil yolu Gürcüstan sərhədinə dək ən yüksək səviyyədə inşa edilir. Gələcəkdə Bakı-Astara yolunun inşası nəzərdə tutulur. Başqa yollar da ən yüksək, müasir standartlara uyğun şəkildə təmir olunacaq və yenidən tikiləcəkdir. Bütün bunlar onu göstərir ki, Azərbaycanda nəqliyyat infrastrukturu güclənir, yeniləşir və əlbəttə, bu, ölkəmiz üçün çox vacib bir amildir, gələcəyimiz üçün çox mühüm bir haldır. Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizi layihəsinin iştirakçısıdır və bu dəhliz vasitəsilə artıq böyük işlər görülübdür. Eyni zamanda, Şimal-Cənub dəhlizinə də qoşulmaq niyyətindəyik. Hesab edirik, bu da ölkəmizə



böyük uğurlar gətirəcəkdir. Bir sözlə, Heydər Əliyevin siyasəti, müdrikliyi, uzaqgörənliyi bizə imkan verib ki, XXI əsrin əvvəllərində Azərbaycan dünya üçün mühüm neft-qaz hasil edən ölkəyə çevrilib, eyni zamanda, mühüm tranzit məntəqəsinə çevrilibdir.

Əziz dostlar, biz bu gün idman qurğusunun da açılışını edirik. Bu gözəl Yaxt-klub idmançıların sərəncamına verilir. Hesab edirəm ki, təkcə yelkənli qayıq idmanı növü üzrə federasiyasının nümayəndələri deyil, eyni zamanda, digər idman növləri ilə məşğul olanlar bu gözəl Yaxt-klubdan səmərəli istifadə edəcəklər. Bu da ən yüksək müasir, dünya standartları səviyyəsində yaradılmışdır, ümumiyyətlə, Azərbaycanda son illər ərzində görülən bütün işlər yüksək səviyyədədir. Azərbaycanda idman inkişaf edir, bundan sonra da inkişaf edəcəkdir. Gözəl maddi-texniki baza yaradılır. İdmançılarımız beynəlxalq yarışlarda çox böyük nəticələr göstərirlər, ölkəmizi təbliğ edirlər, bayrağımızı qaldırırlar. Mən buna görə onlara minnətdaram. Mən federasiyalara minnətdaram ki, onlar Milli Olimpiya Komitəsinin təşəbbüsünü dəstəkləyərək, özləri də müvafiq idman qurğuları tikməyə başlayıblar. Biz bu gün yelkənli qayıq idmanı növü üzrə federasiyanın idman kompleksini açırıq.

Bundan əlavə, Azərbaycanda taekvondo, voleybol, həndbol, otüstü xokkey, stend atıcılığı və başqa federasiyalar da özləri üçün müvafiq idman kompleksləri tikirlər. Bu, çox müsbət haldır. Əminəm ki, digər federasiyalar da bu təşəbbüsə qoşulaçaqlar. Azərbaycanda qısa müddət ərzində idmanda böyük bir dönüş yarada bildik. Hesab edirəm ki, bizim gözəl imkanlarımız var ki, Azərbaycan qarşıdan gələn Afina yay Olimpiya oyunlarında da yüksək nəticələr qazana bilsin. Mən buna əminəm. Bizim idmançılarımızın nəticələri bunu göstərir. Qısa müddət ərzində idmançılarımız bir neçə növ üzrə dünya çempionu olublar. Bu, çox müstbət haldır. Əlbəttə, bu, bizim hamımızın Milli Olimpiya Komitəsinin, Gənclər, İdman və Turizm Nazirliyinin, müvafiq federasiyaların, idmançıların, onların məşqçilərinin işinin nəticəsidir. Mən çox şadam ki, Azərbaycanda idmana cavabdeh olan bütün qurumlar vahid komanda şəklində çıxış edirlər. Əminəm ki, bundan sonra da

belə olacaqdır. İdmançılarımız gələcəkdə də idman yarışlarında Azərbaycanın şərəfini daim yüksək tutacaqlar. Mən bir məsələyə toxunmaq istəyirəm. Bəlkə də bunun yeri deyil, amma istəyirəm ki, fikrimi sizə çatdıram. İndi biz prezident seçkiləri ərəfəsindəyik; Əlbəttə, hər bir namizəd üçün imkan verilib ki, öz fikrini camaata çatdırsın. Bu, çox müsbət haldır. Amma arzum budur ki, hərə gördüyü işlər haqqında danışsın. Başqa adamların gördüyü işləri öz adına çıxmasın.

Dünən namizədlərin biri fərəhlə deyir ki, 1992-ci ildə guya onların səyləri nəticəsində Nazim Hüseynov Olimpiya çempionu olubdur. Nazim Hüseynov buradadır. O, doğrudan da 1992-ci ildə Olimpiya çempionu olubdur. Amma inanmıram ki, bir ay hakimiyyətdə qalan insanların buna köməyi dəysin. Təklifim budur ki, hərə gördüyü işlərə görə qiymət almalıdır. Sabah ola bilər, deyəcəklər ki, bu Yaxt-klubun da təməlini onlar 1992-1993-cü ildə qoyublar. Necə ki, indi deyirlər ki, Bakı-Tbilisi-Ceyhanın təməlini, sən demə,1993-cü ildə onlar qoymuşlar. Nə Bakı-Tbilisi-Ceyhan haqqında, nə dzüdo idman növü haqqında, ümumiyyətlə, onların təsəvvüru belə yoxdur. İdman nədir, onlar bilmirlər. Təəssüf edirəm ki, müxalifətdə on il qalmalarına baxmayaraq, sivil, mədəni, siyasi mübarizə üsullarını qavraya bilməyiblər!

Nazim Hüseynov görkəmli idmançıdır, 1992-ci ilin yayında, avqust ayında çempion olmuşdur. O vaxtkı hakimiyyət Nazimi iki ay ərzində yəni belə gözəl hazırlamışdılar? Eyni zamanda onunla birlikdə gimnastika üzrə Belenki var idı, Moskvada olur.

Əlbəttə, idmançının idman ömrü uzun olmur, qısa olur. Nazim də idmanı tərk etdi.

Mən Milli Olımpıya Komitəsinə rəhbərlik etməyə başlayanda Nazimi qiyabı olaraq tanıyırdım, onun haqqında eşitmişdim. Onu dəvət etdim, idmana qaytardım, ona gozəl şərait yaratdım. Onun yaşayış şəraitini yaxşılaşdırdım. Onu bizim milli yığma komandaya təhkim elədim və o, bütün məşqlərdə öz nüfuzundan, peşəkarlığından istifadə edərək, milli komandaya böyük töhfə verir, böyük xidmət edir. İşlə təmin olunmasında kömək etdim.

Bilirəm, indi onun arzusu var. Bir idman bölməsi, yəni, dzüdo üzrə bir məktəb yaratsın. Bu istiqamətdə də ona kömək göstəriləcəkdir. Nazim mənim təklifimlə Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü seçilibdir. Mən bunların heç birini bu vaxta qədər deməmişdim və deməyəcəkdim də. Çünki bu, mənim borcumdur. Milli Olimpiya Komitəsinin prezidenti kimi mənim borcumdur. Təkcə indi yarışlarda iştirak edən idmançılara yox, ilk növbədə, veteran idmançılara, xüsusilə, Azərbaycanın şöhrətini qaldıran idmançılara qayğı göstərmək mənim borcumdur və mən də bunu edirəm.

Çünki mən başa düşürəm ki, onların idman ömrü qısa olur. idmanla məşğul olan dövrdə bütün səylərini qoyur, özlərini, bütün qəhrəmanlığını göstərirlər. İdmandan gedəndən sonra bəzi hallarda unudulurlar. Amma bizdə, Azərbaycanda unudulmurlar. O cümlədən Nazim də unudulmur. Onun qələbəsini öz xidməti kimi təqdim edən insanlara məsləhətim odur ki, doğrudan da getsinlər, kiməsə əl tutsunlar. Hansısa daşı daş üstünə qoysunlar. Azərbaycan üçün bir faydalı iş görsünlər. Təəssüflər olsun ki, biz bunları hələ görmürük.

Əziz dostlar, bir sözlə, bu gün Azərbaycanda çox gözəl bir gündür, idman bayramıdır. Gözəl hadisə baş veribdir. Bu Yaxt-klub eyni zamanda şəhərin, Bakının sakinləri üçün də açıq olacaqdır. O, Bakının memarlığına da gözəl bir töhfədir. Hər tərəfdən, daxildən də, bayırdan da görürsən ki, Yaxt-klub çox gözəl memarlıq üslubu ilə tikilmişdir. Mən hər ikisinə tankerə də, bu Yaxt-kluba da uğurlar arzulayıram. Azərbaycanın gələcəyi çox gözəl olacaqdır. Mən bu gələcəyə nikbinliklə baxıram. Azərbaycan hərtərəfli, sürətlə inkişaf edir, iqtisadiyyatımız yüksəlir. Siyasi müstəvidə, beynəlxalq aləmdə ölkəmiz böyük uğurlar əldə edibdir və əminəm ki, bundan sonra da əziz cənab prezidentin rəhbərliyi altında biz yeni qələbələrə, yeni uğurlara doğru birlikdə gedəcəyik. Sağ olun.

*2003-cü il*

## BAKI-TBİLİSİ-CEYHAN ƏİBK-nin TƏMƏLİNİN QOYULMASININ BİR İLİ TAMAM OLMUŞDUR

Xəzərin Azərbaycan sektorunun zəngin neft ehtiyatlarını dünya bazarlarına çıxaracaq Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməlinin qoyulmasının bir ili tamam olmuşdur. Bu münasibətlə sentyabrın 18-də 2003-cü il Səngəçal terminalında tədbir keçirilmişdir.

Tədbirin iştirakçıları ərazi ilə yaxından tanış olmuş, terminalın genişləndirilən sahəsində baş nasos stansiyasının tikintisi, magistral kəmərin nasos qurğularına və digər obyektlərə baxmışlar.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, Bakı-Tbilisi-Ceyhan (BTC) layihəsinin baş icraçı direktoru Maykl Taunzend, Türkiyənin, Gürcüstanın ölkəmizdəki səfirləri Əhməd Ünal Çeviköz və Zurab Qumberidze Səngəçal terminalının genişləndirilməsi sahəsində görülən işlərə dair geniş açıqlama verdilər.

Bildirildi ki, ötən il Azərbaycan, Gürcustan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan bu kəmərin tikintisində bir il ərzində böyük irəliləyişə nail olunmuşdur. Bakıdan Ceyhanadək bütün boru kəməri marşrutu boyunca 17 tikinti sahəsində qızğın iş gedir. Layihənin reallaşdırılmasına indiyədək 1 milyard ABŞ dollarından çox vəsait xərclənmişdir. Layihə 2004-cü ilin dördüncü rübündə başa çatacaq və "Azəri" yatağından ilk neft 2005-ci ilin əvvəllərində ixrac ediləcəkdir.

ARDNŞ-in prezidenti Natiq Əliyev Bakı-Tbilisi-Ceyhan layihəsinin müəllifi prezident Heydər Əliyevin bu sahədə tarixi fəaliyyətini xüsusi vurğulayaraq dedi ki, biz Azərbaycanı Gürcustan və Türkiyə, oradan da dünya bazarları ilə birləşdirəcək bu boru kəmərinin gerçəkliyə çevrilməsinin şahidi olmağımızdan qürur duyuruq. Bu, Azərbaycan prezidenti Heydər Əliyevin uğurlu neft strategqiyasının düzgünlüyünü bir daha təsdiqləyir. Bir il bundan əvvəl elə bu yerdə üç ölkənin prezidentlərinin xeyir-duası ilə boru kəmərinin təməli qoyulandan sonra əldə olunan nailiyyətləri görəndə insan heyran qalır. İndi boru kəməri marşrutu boyunca 17 tikinti sahəsində 10 min işçi BTC-nin gələn ilin sonunadək tamamlanması üçün var gücü ilə çalışır. Ümidvarıq ki, 2005-ci ilin yazında BTC ilə nəql olunan neft yüklənmiş ilk tanker Ceyhandan yola salınacaqdır.



BTC layihəsinin icraçı direktoru Maykl Taunzend məlumat verdi ki, bütövlükdə kəmərin tikintisinin 40 faizi tamamlanmışdır. Tikintidə 10 min adam çalışır ki, bunlardan 2200-dən çoxu Azərbaycandandır. Bu günədək BTC Azərbaycanda layihənin tikintisi üzrə podratçısı olan CCİC şirkəti vasitəsilə 100-dən artıq, yerüstü qurğuların tikintisi üzrə podratçı "Spi Kapaq/Petrofak" şirkəti vasitəsilə bir çox xidmətlərin göstərilməsi üçün 37 şirkət, Səngəçal Terminalının Genişləndirilməsi Proqramı üzrə podratçı "Azfen/Tekfen" alyansı Səngəçaldakı tikinti işlərinə 55 yerli köməkçi podrat təşkilatı cəlb etmişdir.

Natiqlər söylədilər ki, BTC regiona faydalar gətirməklə, müsbət dəyişikliklər yaradacaq mühüm bir layihədir. Bosfor boğazından yan keçməklə kəmər neftdaşıyan nəqliyyatın labüd artımının qarşısını alacaq, ətraf mühit ölkələri üçün sanballı gəlirlər gətirəcək. Azərbaycan-Gürcüstan iqtisadi və siyasi əlaqələrin möhkəmlənməsinə kömək edəcəkdir.

Sonra jurnalistləri maraqlandıran suallara ətraflı cavab verildi.

1805

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

## VƏTƏNƏ , XALQA VƏ DÖVLƏTƏ SƏDAQƏT ANDI. AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM HEYDƏR OĞLU ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ

Müasir tariximizin 35 ilə yaxın bir mərhələsi ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlıdır. Bu illər ərzində Azərbaycanda bütün sahələrdə misli görünməmiş quruculuq işləri aparılmışdır. Azərbaycan xalqının uzun illər həsrətində olduğu dövlət müstəqilliyinə yenidən qovuşmasından ötən 12 il ərzində ölkəmiz, xalqımız bir sıra ağır sınaqlara məruz qalmış, çox böyük çətinliklərə sinə gərmiş, Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarının bir hissəsini müvəqqəti itirmiş, bir milyonadək soydaşımız doğma yurd-yuvasından didərgin salınmışdır. Bütün bunlara baxmayaraq, müstəqilliyimizi qoruyub saxlaya, dövlətçiliyimizi möhkəmləndirə bilmişik. Son on ildə ölkəmizdə geniş islahatlar aparılmış, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi getmiş, Azərbaycanın beynəlxalq nüfuzu artmış və o, dünya birliyində layiqli yerini tutmuşdur. Bütün bunlar xalqımızın həqiqi lideri, dünyamiqyaslı müdrik dövlət xadimi Heydər Əliyevin uzaqgörən daxili və xarici siyasəti, gecəli-gündüzlü gərgin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Məhz buna görə zəmanəmizin ən tanınmış dövlət başçıları və siyasətçiləri Heydər Əliyevi dünyamiqyaslı siyasi xadim, fenomenal rəhbər kimi qiymətləndirirlər, Heydər Əliyevin ötən on ildə gördüyü nəhəng işlər xalqımızı əmin etdi ki, Azərbaycanda bu siyasətin alternativi yoxdur, ölkəmizin gələcək inkişafı, vətəndaşlarımızın firavan həyatı məhz onun siyasətinin varisliyindən, dövlət hakimiyyətinin həmin siyasətin həyata keçirilməsini təmin edəcək etibarlı əllərə tapşırılmasından asılıdır. Bunu dərindən dərk edən Azərbaycan xalqı yeni minilliyin ilk prezident seçkilərində öz müdrik seçimini etdi, Heydər Əliyevin siyasi xəttinin ən layiqli davamçısı olan Baş nazir İlham Əliyevə səs verdi.

Xalqımızın müdrik oğlu Heydər Əliyevin təbirincə desək, İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Belə bir şəxsiyyətin Azərbaycana rəhbər seçilməsini dünyanın tərəqqipərvər, sabitlik, demokratiya, sülh, rifah, inteqrasiya şəraitində yaşamağa üstünlük verən bütün sağlam qüvvələri təbii bir hadisə kimi qarşılamışlar.



**Oktyabrın 31-də paytaxtın Respublika Sarayında Azərbaycan Prezidenti İlham Əliyevin təntənəli andiçmə mərasimi keçirilmişdir.**

Respublika Sarayının bayram tərtibatı salonuna Milli Məclisin üzvləri, siyasi partiyaların, ictimai təşkilatların, ölkə ictimaiyyətinin nümayəndələri - ziyalılar, gənclər, hərbçilər, din xadimləri, əməkçilər, andiçmə mərasimində iştirak etməyə gəlmiş xarici ölkələrin təmsilçiləri, səfirlər, digər qonaqlar, mətbuat işçiləri toplaşmışdılar.

Salona toplaşanlar Gürcüstan prezidenti Eduard Şevardnadzeni, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Sergey Mironovu, Türkiyə Baş nazirinin müavini, dövlət naziri Əbdüllətif Şənəri, İranın vitse-prezidenti Seyid Məhəmmədəli Əbtəhini və Ukraynanın Baş naziri Viktor Yanukoviçi səmimiyyətlə qarşıladılar.

Mərasim iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ayağa qalxaraq hərarətlə, gurultulu və sürəkli alqışlarla qarşıladılar. Ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Heydər oğlu Əliyevin andiçmə mərasimi açıq elan olundu.

Ölkəmizin Silahlı Qüvvələrinin əsgərləri Azərbaycan Respublikasının dövlət bayrağını təntənəli marşın sədaları altında səhnəyə gətirdilər.

Azərbaycan Respublikasının Konstitusiyası dinimizin müqəddəs kitabı Qurani-Şərif ilə yanaşı qoyulmuşdu.

Respublika Mərkəzi Seçki Komissiyasına söz verildi.

- Möhtərəm cənab İlham Heydər oğlu Əliyev!

Hörmətli xanımlar və cənablar!

Bu il oktyabrın 15-də xalqımız mühüm tarixi hadisənin şahidi oldu. Müstəqil Azərbaycan Respublikasında azad və ədalətli prezident seçkiləri keçirildi. Tam məsuliyyətlə deyə bilərəm ki, yeni Seçki Məcəlləsi əsasında keçirilən bu seçkilər, ümumiyyətlə, Azərbaycanda seçki sisteminin təkmilləşdirilməsində yeni bir mərhələ oldu.

Ölkəmizdə mövcud olan siyasi plüralizm əsasında formalaşdırılmış seçki komissiyalarında 32 mindən artıq həlledici səs hüquqlu üzv, habelə qeydə alınmış namizədlərin və namizədləri qeydə alınmış siyasi partiyaların təyin etdiyi məşvərətçi səs hüquqlu üzvlər daxil olmaqla, 50 minə yaxın komissiya üzvü çalışırdı. Onların fəaliyyəti beynəlxalq standartlara uyğun hazırlanmış və demokratik, şəffaf seçkilər üçün normal şərait təmin edən qanunla tənzimlənirdi.

Mərkəzi Seçki Komissiyası tərəfindən yüksək peşəkarlıq səviyyəsində hazırlanan və beynəlxalq müşahidəçilər tərəfindən çox müsbət qiymətləndirilən 50-dən artıq təlimat, izah və qaydalar, faktiki olaraq, bütün seçki prosedurasını əhatə etmişdi. Seçki tədbirlərinin lazımi maddi-texniki təchizatı təmin olunmuşdu.

Geniş aşkarlıq şəraitində hazırlanıb keçirilən seçkiləri siyasi partiyaların, seçicilərin təşəbbüs qruplarının, ictimai təşkilatların çoxsaylı təmsilçiləri, habelə nüfuzlu beynəlxalg təşkilatların nümayəndələri və yerli vətəndaşlarımız da daxil olmaqla, 44 mindən artıq müşahidəçi izləmişdir. Azərbaycanın və dünyanın 70-dən yuxarı aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri tədbirin bütün mərhələlərini əhatəli işıqlandırırdı.

Mərkəzi Seçki Komissiyasının nəzdindəki "Seçkilər" informasiya Mərkəzi səsvermə başlanandan nəticələr müəyyənləşdirilib başa çatanadək seçicilərin fəallığı, səsvermənin gedişi və ilkin nəticələri haqqında məlumatları mütəmadi qəbul edir, kütləvi informasiya vasitələrinin köməyi ilə ictimaiyyətə çatdırırdı.

Beş mindən artıq məntəqə seçki komissiyasının protokollarındakı məlumatlar səsvermənin başa çatmasından keçən 12 saat ərzində Mərkəzi Seçki Komissiyasının internet saytına qoyularaq dünya ictimaiyyətinə çatdırıldı ki, bu da seçkilərin aşkarlığı baxımından mühüm nailiyyət kimi xüsusi qeyd edilməlidir.

Seçkilərin yüksək səviyyədə hazırlanması və keçirilməsi üçün böyük əmək sərf olunmuşdur. Bu ilki prezident seçkilərini fərqləndirən mühüm cəhət odur ki, ölkəmizin vətəndaşları,



Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində səs verən soydaşlarımız da daxil olmaqla, seçkilərdə böyük fəallıq göstərmişlər. Seçicilərin 71,23 faizi öz seçki hüququnu həyata keçirmək üçün həvəslə seçki məntəqələrinə gəlmişlər. Onların böyük əksəriyyəti vətənin tərəqqisi, xalqımızın xoşbəxt gələcəyi, şəhər və kəndlərimizdə əminamanlıq naminə prezidentliyə layiqli namizəd cənab İlham Heydər oğlu Əliyevə səs vermişdir. Cənab İlham Əliyev 76,84 faiz səs toplayaraq, növbəti beş il müddətinə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Möhtərəm İlham Heydər oğlu Əliyev!

İcazə verin, Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edim, dövlətimizin başçısı kimi son dərəcə çətin və məsuliyyətli işinizdə Sizə böyük uğurlar, möhkəm cansağlığı, səadət arzulayım.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və Konstitusiya Məhkəməsinin hakimləri Fikrət Babayev, Bəhmən Qəribov, Rafael Qvaladze, Eldar Məmmədov, İsa Nəcəfov, Sona Salmanova və ƏlƏddin Sultanov səhnəyə dəvət olundular.

Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev salondakıların sürəkli alqışları altında səhnəyə dəvət edildi.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri FƏRHAD ABDULLAYEVƏ söz verildi. O dedi:

- Hörmətli xanımlar və cənablar! Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2003-cü il 28 oktyabr tarixli qərarı ilə prezident seçkilərinə dair Mərkəzi Seçki Komissiyasının protokolunda əks etdirilmiş nəticələri təsdiqləyərək cənab ilham Heydər oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş cənab İlham Heydər oğlu Əliyevi Azərbaycan Respublikası

Konstitusiyasının 103-cü maddəsinə uyğun olaraq, Konstitusiya Məhkəməsi hakimlərinin iştirakı ilə andiçməyə dəvət edirəm.

Azərbaycan Respublikasının Prezidenti İLHAM ƏLİYEV əlini Azərbaycan Respublikasının Konstitusiyasının üzərinə qoyaraq dedi:

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasınm Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq dedi:

- Əlimi Qurani-Şərifə basaraq and içirəm, Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam.

* * *

Azərbaycan Respublikasının dövlət himni əzəmətlə səsləndi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində geniş nitq söylədi.

Dövlətimizin başçısının nitqi böyük diqqətlə dinlənildi və dəfələrlə gurultulu, sürəkli alqışlarla qarşılandı.

* * *

Azərbaycanın dövlət bayrağı səhnədən aparıldı.

Sonra incəsənət ustalarının iştirakı ilə böyük bayram konserti oldu.

Konsertin iştirakçıları İlham Əliyevi Prezident vəzifəsinə başlaması münasibətilə ürəkdən təbrik etdilər.

* * *

Milli Məclisin sədri Murtuz Ələsgərov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Baş'nazirin birinci müavini Artur Rasizadə, Parlament sədrinin və Baş nazirin müavinləri, nazirlər, komitə və şirkət rəhbərləri, digər rəsmi şəxslər andiçmə mərasimində iştirak edirdilər.

*2003-cü il*



## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM HEYDƏR OĞLU ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQİ

- Hörmətli xanımlar və cənablar!
- Hörmətli qonaqlar!

Azərbaycan Respublikasının prezidenti seçilməyimlə mənə göstərilmiş bu böyük etimada görə Azərbaycan seçicilərinə, Azərbaycan vətəndaşlarına, bütün Azərbaycan xalqına öz dərin təşəkkürümü bildirirəm.

Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur.

Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanır. Beynəlxalq aləmdə Azərbaycan yüksəlir, uğurlar qazanır. Azərbaycan beynəlxalq aləmdə özünə layiq yerini tuta bilibdir, Azərbaycanın nüfuzu artıbdır. İndi Azərbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, iri-miqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Beynəlxalq təşkilatlarda Azərbaycan çox uğurlu fəaliyyət göstərir, onun nüfuzu artır. Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilat Azərbaycanın təkidi ilə Ermənistanı işğalçı dövlət kimi tanıyıbdır. Bu proses davam edəcəkdir. Azərbaycan beynəlxalq aləmdə, dünya miqyasında daha da möhkəm mövqelərə sahib olacaqdır.

Qonşularımızla münasibətlərimiz çox uğurla inkişaf edir. Həm ikitərəfli münasibətlərimiz güclənir, həm də regional əməkdaşlıq inkişaf edir. Bu gün andiçmə mərasimində iştirak etmək üçün Azərbaycana, Bakıya gəlmiş qonşu dövlətlərin görkəmli dövlət xadimlərinin iştirakı bunu bir daha sübut edir.

Mən bu fürsətdən istifadə edərək, bu gün bizimlə birlikdə

mərasimdə iştirak edən Gürcüstan prezidenti cənab Eduard Şevardnadzeni, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri cənab Sergey Mironovu, Türkiyə Cümhuriyyəti Baş nazirinin müavini cənab Əbdüllətif Şənəri, İran İslam Respublikasının vitse-prezidenti cənab Seyid Məhəmmədəli Əbtəhini və Ukrayna hökumətinin başçısı cənab Viktor Yanukoviçi salamlayıram.

Azərbaycan hərtərəfli inkişaf edir, iqtisadiyyatı güclənir. Azərbaycanda iqtisadi islahatlar aparılır. Bu islahatların nəticəsində ölkəmiz qısa müddət ərzində öz iqtisadiyyatını, yüksəlişini təmin etmişdir. İqtisadiyyatın ən mühüm göstəricisi Ümumi daxili məhsul son beş il ərzində hər il 10 faiz artır, inflyasiyanın səviyyəsi 2 faiz təşkil edir. Halbuki, on il bundan əvvəl inflyasiyanın səviyyəsi 1600 faiz idi.

Azərbaycanda özəl sektor uğurla inkişaf edir. Çox sevindirici haldır ki, ümumi daxili məhsulun formalaşmasında özəl sektorun payı 70 faiz təşkil edir. Sahibkarlar sinfi yaranır. Genişmiqyaslı özəlləşdirmə proqramı həyata keçirilir. Torpaq islahatı aparılıbdır və torpaq artıq kəndlilərin özəl mülkiyyətinə verilibdir. Bunun nəticəsində kənd təsərrüfatı istehsalı artır. Bütün bunlar onu göstərir ki, Azərbaycanda Heydər Əliyevin rəhbərliyi altında aparılan iqtisadi islahatlar öz gözəl nəticələrini verməkdədir.

Azərbaycana xarici sərmayə qoyuluşu çox yüksək səviyyədədir və bu proses davam edir. Sizə deyə bilərəm ki, bütün mənbələrdən qoyulan sərmayələrin həcmi 15 milyard dollar təşkil edir. Adambaşına xarici sərmayənin həcminə görə Azərbaycan keçmiş sovet respublikaları arasında qabaqcıl yerdədir, bəzi Şərqi Avropa dövlətlərini də qabaqlayır.

Amma heç kəsə sirr deyil ki, sərmayələr, xüsusilə xarici sərmayələr sabitlik olan ölkələrə qoyulur. Çünki hər bir sərmayədar o qədər də risk etmək istəmir. Bu baxımdan da Azərbaycan sərmayə qoyuluşu üçün çox münasib ölkədir. Azərbaycanda son illər ərzində hökm sürən sabitlik, ictimai-siyasi asayiş sərmayələrin cəlb olunması istiqamətində böyük addımlar atmağa imkan veribdir.

Əlbəttə, bizim hamımızın borcudur ki, Azərbaycanda yaranmış bu sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik.



Bu sabitlik bizə imkan verəcək ki, gələcəkdə Azərbaycanı daha da sürətlə, hərtərəfli inkişaf etdirək. Bu barədə bizim çoxlu planlarımız vardır. Azərbaycanın hər bir sahəsi inkişaf etməlidir. Təbii ki, Azərbaycan iqtisadiyyatının əsas istiqaməti onun neft strategiyasının həyata keçirilməsidir. 1994-cü ildə Heydər Əliyev tərəfindən başlanmış yeni neft strategiyası Azərbaycana böyük uğurlar gətiribdir. "Əsrin müqaviləsi"nin imzalanması ilə bu strategiya artıq 9 ildir ki, həyata keçirilir. Bunun nəticəsində Azərbaycan öz neft-qaz ehtiyatlarını çox səmərəli şəkildə dünya bazarlarına çıxarır. Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda xarici şirkətlərlə çox uğurlu əməkdaşlıq edir. Azərbaycanın neft sənayesinə on milyard dollar sərmayə qoyulubdur. On minlərlə yeni iş yerləri açılıb, qısa müddət ərzində qazma qurğuları, platformalar, neft kəmərləri, neft terminalları və ölkəmiz üçün vacib olan digər infrastruktur yaradılıbdır.

Azərbaycan öz neftini dünya bazarlarına artıq iki kəmər vasitəsilə çıxarır. Bakı-Novorossiysk neft kəməri ilə hazırda ildə 2,5 milyon ton neft ixrac olunur. Bakı-Supsa neft kəməri vasitəsilə qərb istiqamətində ildə 6,7 milyon ton neft ixrac edilir. *Hazırda Bakı-Tbilisi-Ceyhan neft kəməri inşa edilir və artıq* işlərin 40 faizi görülübdür. Artıq bu kəmərin inşasına 1 milyard 200 milyon dollar sərmayə qoyulubdur. Gələn ilin sonunda biz bunun açılışını qeyd edəcəyik.

Azərbaycan böyük qaz ehtiyatları olan "Şahdəniz" yatağında uğurla işləməyə başlayıbdır. Bakı-Ərzurum qaz kəmərinin tikintisinə vəsait qoyulur və əgər hər şey cədvəl üzrə gedərsə, 2006-cı ildə Azərbaycan qazı Avropaya çatdırılacaqdır.

Bütün bu planların, görülən işlərin əsası 1994-cü ildə qoyulubdur. O vaxt, çətin və mürəkkəb şərait vardı, Azərbaycan çox riskli bir ölkə sayılırdı. Azərbaycana sərmayənin cəlb edilməsi üçün cənab Prezident Heydər Əliyev böyük işlər görmüşdür. Nəhayət, əfsanəni reallığa, gerçəkliyə çevirmişdir. Neft strate-

giyasının tərkib hissəsi ondan ibarətdir ki, neftdən əldə olunan gəlirlər Azərbaycan xalqına səmərəli şəkildə xidmət etsin. Bu məqsədlə Azərbaycan Dövlət Neft Fondu yaradılmışdır. Fondun yaradılması Azərbaycanın müasir tarixində çox əlamətdar hadisədir. O, bütün beynəlxalq standartlara cavab verən, şəffaf qurumdur. Beynəlxalq maliyyə qurumları onun fəaliyyətini çox yüksək qiymətləndirirlər.

Hazırda Neft Fondunda 800 milyon dollar vəsait yığılıbdır. Bu, xalqın vəsaitidir. Buna görə də Neft Fondunun fəaliyyəti haqqında ictimaiyyətə mütəmadi qaydada məlumat verilir. Hər bir vətəndaş bilməlidir ki, onun ölkəsinin valyuta ehtiyatları nə qədərdir və necə, hansı istiqamətlərə sərf olunur.

Gələcəkdə Azərbaycan öz iqtisadi potensialını inkişaf etdirdikcə, Azərbaycanda yeni neft yataqları kəşf olunandan sonra, Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara veriləndən sonra, əlbəttə, ölkəmizin imkanları daha da artacaqdır. Hər il Azərbaycana milyardlarla dollar vəsait daxil olacaqdır. Bu vəsaitlə Azərbaycanda bütün sahələrdə quruculuq işləri aparılacaq, sosial problemlərin həlli istiqamətində böyük işlər görüləcəkdir.

Bilirsiniz ki, Neft Fondundan ayrılan vəsait, ilk növbədə, Azərbaycanda ən çətin vəziyyətdə yaşayan qaçqın-köçkünlərə, onların həyat səviyyəsinin yaxşılaşdırılması üçün sərf olunur. Cənab Prezident Heydər Əliyevin fərmanları ilə bu məqsəd üçün 70 milyon dollar ayrılmışdır və qaçqın-köçkünlərdən ötrü yeni qəsəbələr, şəhərciklər, evlər tikilir. On minlərlə qaçqın və köçkün artıq çadır düşərgəsindən çıxarılaraq müasir evlərə köçürülüb və bu proses davam edəcəkdir. Biz gələcəkdə də bu məsələyə çox böyük diqqət göstərəcəyik. Əminəm ki, yaxın gələcəkdə işğaldan əziyyət çəkən bütün qaçqın və köçkünlər müasir şəraitlə təmin olunacaqlar.

Azərbaycanda digər sosial məsələlər də öz həllini tapır. Bilirsiniz ki, bu yaxınlarda cənab Prezidentin sərəncamları ilə səhiyyə, təhsil, mədəniyyət işçilərinin və başqalarının əmək haqqı 50 faiz artırılmışdır. Pensiyalar 40 faiz artırılmışdır. Bu, bir daha onu göstərir ki, sosial məsələlər Prezidentimizin daim diqqət mərkəzində olmuşdur. Bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Ölkənin bütün imkanları buna xidmət edəcəkdir. Təsadüfi deyil ki, gələn ilin büdcəsinin 60 faizi sosial məsələlərə sərf olunacaqdır.



Azərbaycan gələcəkdə çox zəngin və qüdrətli ölkəyə çevriləcəkdir. Neft strategiyasını davam etdirərək, qısa müddət ərzində ölkəmizi hərtərəfli inkişaf etdirəcəyik.

Xüsusilə qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycanda iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycanı qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir. Bizdə bütün imkanlar təbii sərvətlər, insan potensialı və ən önəmlisi, xalqın iradəsi vardır. Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik.

Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təəssüflər olsun ki, bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti hələlik heç bir nəticə vermir. Biz hələ də ümidlərimizi itirmirik. Hələ də ümid edirik ki, həmsədrlər bu məsələ ilə daha ciddi şəkildə, məsuliyyətlə məşğul olacaqlar. Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən

başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcəkdir.

Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır.

Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.

Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: əziz Prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik.

Yaşasın Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev!

Yaşasın qəhrəman Azərbaycan xalqı!

Yaşasın azad və müstəqil Azərbaycan!

*2003-cü il*



## ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN XATİRƏSİ ƏBƏDİLƏŞDİRİLİR

2004-cü il fevralın 24-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə ümummilli liderimiz Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi üzrə Dövlət Komissiyasının iclası olmuşdur.

İclası Prezident İlham Əliyev açdı.

Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev ümummilli liderimiz Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında müxtəlif dövlət və qeyri-hökumət qurumlarından, ictimai təşkilatlardan, ayrı-ayrı vətəndaşlardan Dövlət Komissiyasına 3 mindən çox təklif daxil olduğunu, bunların ümumiləşdirilərək Komissiyanın bütün üzvlərinə göndərildiyini bildirdi. Natiq həmin təkliflər barədə məlumat verdi.

İclasda Heydər Əliyev Beynəlxalq Fondunun yaradılması; Heydər Əliyev adına Beynəlxalq sülh mükafatının təsis edilməsi; Heydər Əliyev adına ali mükafatın - ordenin təsis edilməsi; elm, təhsil, ədəbiyyat və incəsənət sahəsində Dövlət mükafatının təsis edilməsi; Bakıda, habelə Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində küçə və meydanlardan birinə Heydər Əliyevin adının verilməsi; Heydər Əliyevin şərəfinə qızıl və gümüş xatirə sikkələrinin buraxılması; Bakı Dərin Dəniz Özülləri zavoduna, Binə Beynəlxalq Hava limanına, respublikanın iri yaşayış məntəqələrindən birinə, Respublika sarayına, Azərbaycan Ali Hərbi Məktəbinə, Xəzər Dəniz Gəmiçiliyinin təzə gəmilərindən birinə, Bakı İdman-konsert kompleksinə, "Lider" yarımdalma qazma qurğusuna, Bakı-Tbilisi-Geyhan əsas ixrac neft kəmərinə Heydər Əliyevin adının verilməsi; Heydər Əliyevin xatirə-memorial kompleksinin tikilməsi, onun Naxçıvan filialının yaradılması; Bakının görkəmli yerlərindən birinə Heydər Əliyevin abidəsinin ucaldılması; hər il mayın 1-10-da Bakıda "Heydər Əliyev dünyası" festivalının keçirilməsi və sair barədə ictimaiyyətin və komissiya üzvlərinin təklifləri geniş müzakirə olundu, ətraflı fikir mübadiləsi aparıldı.

İclasda həmçinin təklif olundu ki, Heydər Əliyev haqqında yazılacaq bütün əsərlər barədə komissiyanın rəyi nəzərə alınsın.

Azərbaycan Prezidenti İlham Əliyev iclasa yekun vurdu.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN HEYDƏR ƏLİYEV ADINA BAKI NEFT EMALI ZAVODUNDA ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Azərbaycan neft sənayesinin tarixində böyük və əlamətdar bir gündür. Bakı neft emalı zavodunun təşəbbüsü və neft şirkətinin müraciəti nəzərə alınaraq, bu zavoda Heydər Əliyevin adı verilmişdir. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm.

Zavod 1950-ci illərdən fəaliyyətə başlamışdır. Ancaq həqiqət ondadır ki, onun inkişaf, irəliləmə, çiçəklənmə dövrü 1970-1980-ci illərə təsadüf edir. Bunun da obyektiv səbəbləri vardır. Məhz o illərdə Azərbaycana Heydər Əliyev kimi dahi şəxsiyyət rəhbərlik edirdi və ölkəmizin həyatının bütün sahələrində, bütün istiqamətlərində canlanma, irəliləyiş, tərəqqi və uğurlar var idi. O cümlədən neft və neftayırma sahəsində. Burada deyildi ki, məhz o illər ərzində bu zavodun gələcəyi üçün, bu günü üçün mühüm qurğular istismara verildi. ELOU-AVT, katalitik riforminq, katalitik krekinq, kokslaşdırma qurğuları işə salınmışdır. Əgər bu qurğular istifadəyə verilməsəydi, bunu açıq deməliyəm, bu gün Azərbaycanın iqtisadiyyatı belə uğurla inkişaf edə bilməzdi. Bu qurğuların uğurla fəaliyyət göstərməsi ölkəmizin iqtisadiyyatı üçün çox mühüm bir amildir. Biz bu qurğular vasitəsilə emal olunmuş neft məhsullarını dünya bazarlarına çıxarmaqla öz iqtisadi potensialımızı gücləndirmişik. Çox sevindirici haldır ki, bu zavod indi də bütün müasir tələblərə, dünya standartlarına cavab verir.

Zavodun ikinci həyatı 1993-cü ildə Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra başlanmışdır. Burada gedən abadlıq və quruculuq, bərpa və təmir işləri 1970-1980-ci illərdə yaradılmış qurğulara yeni həyat vermişdir. Bu qurğular təmir olunmuşdur və indi çox yüksək standartlara cavab verir.

Sizə yaxşı məlumdur ki, neftayırmanın əsas göstəricsi neft



emalının dərinliyidir. Çox sevindirici haldır ki, 2003-cü ildən sonra bu göstərici 60%-dən yuxarı olmuşdur. Əgər 1999-cu ildə zavodda avtomobil benzinlərinin istehsal həcmi 350 min ton təşkil edirdisə, indi bu rəqəm 700 min tona çatdırılmışdır.

Bu onu göstərir ki, zavod çox səmərəli və fəal işləyir. Burada qeyd olunduğu kimi, sosial məsələlər də öz həllini tapır, əmək haqqı artırılmışdır. Bu, məni çox sevindirir. Çünki bizim siyasətimizin əsas istiqamətlərindən biri də insanlara qayğının yüksək səviyyədə olması, sosial problemlərin öz həllini tapmasıdır. Təsadüfi deyil ki, bu yaxınlarda qəbul etdiyimiz proqramların əsas məqamlarından biri də məhz sosial məsələlərin həllidir. Ümid edirəm ki, Azərbaycan öz iqtisadi potensialını gücləndirdikcə bu məsələlər də öz həllini tapacaq, insanlarımız ildən-ilə daha yaxşı və firavan yaşayacaqlar. Bunu etmək üçün hər cür imkanımız - siyasi iradə, gözəl şərait, insanlarımızın peşəkarlığı və ən önəmlisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasəti vardır. Bu siyasət bu gün də yaşayır, sabah da yaşayacaq və Azərbaycanın uğurlu, hərtərəfli inkişafı üçün bütün dövrlərdə həyata keçirilməlidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bütün dövrlərdə neft sənayesinə böyük diqqət göstərmişdir. O, bu zavodda 20 dəfə olmuşdur və hər bir gəlişi müəssisənin inkişafına yeni bir təkan vermişdir. Heydər Əliyev neft sənayesinin digər sahələrinə də böyük diqqət göstərmişdir. Təsadüfi deyildir ki, 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Heydər Əliyevin ilk addımları, təşəbbüsləri məhz neft sənayesi ilə bağlı olmuşdur. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan yeni bir mərhələyə qədəm qoymuşdur. Həmin vaxtdan on il keçmişdir. Bu gün biz tam qətiyyətlə deyə bilərik ki, əgər 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmasaydı və Azərbaycana böyük həcmdə xarici sərmayələr gətirilməsəydi, indi ölkəmizin iqtisadi və siyasi vəziyyəti çətin ola bilərdi. Budur uzaqgörənlik, budur xalqa xidmət.

Eynilə 1970-ci illərdə bu zavodda belə müasir qurğular tikilməsəydi, respublikamızda Dərin özüllər zavodu istifadəyə verilməsəydi, bugünkü investisiya layihələrini həyata keçirmək böyük çətinliklərlə başa gələrdi. Bu, təkcə bizim deyil, bizimlə

bərabər neft sənayesində çalışan və sərmayə qoyan xarici şirkətlərin nümayəndələrinin də fikridir. Təsəvvür edin ki, əgər Azərbaycanda Heydər Əliyevin təşəbbüsü ilə Dərin özüllər zavodu tikilməsəydi, bizim platformalarımız, qazma qurğularımız haradasa tikiləcək və təmir olunacaqdı. Burada qeyd olundu ki, zavoddakı qurğuların birinin Rusiyada tikilməsi nəzərdə tutulmuşdu. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində həmin qurğu bu müəssisədə tikildi. Dərin özüllər zavodu da, habelə Azərbaycanda 1970-1980-ci illərdə yaradılmış müəssisələrin bir hissəsinin tikintisi də başqa yerlərdə nəzərdə tutulmuşdu. Amma ümummilli liderimizin fəaliyyəti nəticəsində bu infrastruktur, müəssisələr Azərbaycanda tikildi və ölkəmizdə yeni sənaye sahələri yaradıldı.

1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"nin məntiqi nəticəsi kimi, Azərbaycanın neft sənayesində böyük irəliləyiş, canlanma baş vermişdir. Bu gün ölkəmizdə dünyanın ən böyük enerji layihəsi həyata keçirilir. Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla inşa edilir, Bakı-Tbilisi-Ərzurum qaz kəməri ilə bağlı işlər aparılır. Eyni zamanda, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarının işlənilməsi uğurla davam edir. Azərbaycanın neft sənayesində on minlərlə yeni iş yerləri açılmışdır, orada çalışan insanların əmək haqları ildən-ilə artır. Azərbaycan bütün region, dünya üçün çox mühüm bir dövlətə çevrilmişdir. Bütün bunların əsası 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə başlanmış neft strategiyası ilə əlaqədardır. Artıq bütün dünya bunu etiraf edir. Bütün dünya bunu bilir. Azərbaycanda Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən uğurlu neft strategiyası təkcə ölkəmizə deyil, bütün regiona, qonşu dövlətlərə həm iqtisadi cəhətdən, həm də regional əməkdaşlıq, siyasi baxımdan böyük təsir göstərmişdir. Yəqin ki, bu amillərin Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün çox mühüm rol oynadığını desəm, səhv etmərəm. Bu yaxınlarda mən bunu bir daha açıq-aydın gördüm. Azərbaycanın potensialı, perspektivləri göstərir ki, ölkəmiz yaxın gələcəkdə iqtisadi, siyasi və digər cəhətdən çox qüdrətli bir dövlətə çevriləcəkdir. Əgər 1994-cü ildə bu addımlar atılmasaydı, Azərbaycana milyardlarla dollar sərmayə qoyulmasaydı, neft kəmərləri tikilməsəydi, Neft Fondu



yaradılmasaydı, biz hansı iqtisadi potensialdan söhbət apara bilərdik? İqtisadi cəhətdən güclü olmayan dövlət öz maraqlarını müdafiə etməkdə çəkinlik çəkə bilər.

Bu gün biz gələcəyə çox inamla baxırıq. Biz əminik ki, ölkəmiz güclənəcək, zəngin dövlətə çevriləcək və beləliklə, Azərbaycanın qarşısında duran bütün məsələlər öz həllini tapacaqdır. Bunun əsası 1970-ci illərdə qoyulmuşdur və 1993-cü ildən sonra davam etdirilmişdir.

İnsan tarixə öz əməlləri ilə düşür. Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı - Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, ölkəmizdə demokratik cəmiyyət qurmaq. Bütün bu istiqamətlərdə işlər davam etdirilir. Hamımız, Azərbaycan xalqı bu siyasətə sadiqdir. Biz bu siyasəti davam etdirəcəyik. Azərbaycanda bu siyasətin alternativi yoxdur. Xalqımız da, beynəlxalq ictimaiyyət də bunu çox yaxşı bilir. Mən etdiyim rəsmi səfərlər zamanı bir daha əmin oldum ki, ölkəmizdə aparılan siyasi, iqtisadi islahatlar, ümumilikdə, siyasətimiz çox böyük rəğbətlə qarşılanır.

Qarşımızda böyük vəzifələr durur. Biz Azərbaycanı bundan sonra da inkişaf etdirməliyik, ölkəmizin iqtisadi potensialını gücləndirməli və gələcəyə doğru inamla aparmalıyıq. Bunu etmək üçün cəmiyyətimizin bütün təbəqələri fəallıq göstərməlidir. Əminəm ki, bu, belə də olacaqdır. Əziz dostlar, bildiyiniz kimi, mənim də fəaliyyətimin böyük bir hissəsi neft sahəsi ilə bağlı olmuşdur. 10 ilə yaxın bir müddətdə mən Neft Şirkətində çalışmışam, bu məsələlərlə bilavasitə məşğul olmuşam və Şirkətdə işləyən əməkdaşlarla birlikdə Heydər Əliyevin neft strategiyasını həyata keçirmişik. O illərin, mənim indiki fəaliyyətimin, ümumiyyətlə, həyatım üçün çox böyük əhəmiyyəti olmuşdur. Mən qürur hissi duyuram ki, bu on il ərzində sizinlə birlikdə, demək olar ki, bir kollektivdə olmuşam, işləmişəm. Bu gün də belə çıxır ki, sizin nümayəndəniz Azərbaycan Respublikasının Prezidentidir. Bu, mənim üçün çox xoşdur.

Bilməlisiniz ki, keçmişdə neft sənayesində çalışmış insanlara Prezident Heydər Əliyev tərəfindən göstərilmiş qayğı və hörmət mənim tərəfindən də davam etdiriləcəkdir. Təbii ki, buna

heç bir şübhə yoxdur. Mən neft sənayesində çalışan insanlara böyük hörmətlə yanaşıram. Bu, cəsarətli və çox məsuliyyətli bir peşədir. Azərbaycanın iqtisadi potensialını gücləndirən, ölkəmiz üçün gözəl iqtisadi baza yaradan insanlar Neft Şirkətinin tabeliyində olan müəssisələrdə və şirkətlərdə çalışırlar. İstəyirəm biləsiniz ki, mən daim bu siyasəti aparacağam, bütün bu məsələləri nəzarət altında saxlayacaq və keçmişdə olduğu kimi, sizə tam dəstək verəcəyəm.

Burada qeyd olundu ki, ötən ilin avqust ayında Prezident Heydər Əliyev zavod işçilərinin bir qrupunun orden və medallarla təltif olunması haqqında fərman imzalamışdı. "Tərəqqi" medalı ilə təltif olunmuş işçilərə artıq medallar təqdim edilmişdir. "Şöhrət" ordeni ilə təltif edilənlərə isə bu gün təqdim olunacaqdır. Çox məmnunam ki, bu missiyanı həyata keçirmək mənə nəsib olmuşdur. İndi böyük məmnuniyyətlə bu missiyanı həyata keçirəcəyəm.

Sizin hamınızı bu əlamətdar hadisə, zavoda Heydər Əliyevin adının verilməsi münasibətilə bir daha ürəkdən təbrik edirəm. Bilirəm ki, zavod bu adı daşımağa qadirdir, buna layiqdir. Əminəm ki, müəssisə gələcəkdə də bu adı ləyaqətlə daşıyacaqdır.

Sizin hamınıza uğurlar, can sağlığı, yeni-yeni qələbələr arzulayıram. Sağ olun!

*2004-cü il*



## "XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI - 2004" XI BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSININ AÇILIŞINDA AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

- Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar!

Mən sizi "Xəzər neft, qaz, neftayırma və neft kimyası - 2004" XI beynəlxalq sərgi və konfransının açılışı münasibətilə ürəkdən təbrik edirəm. Konfransa uğurlar arzulayıram.

1994-cü ildə Azərbaycanda ilk sərgi keçirilmişdir. Mən o günləri çox yaxşı xatırlayıram. Xatırlayıram ki, o vaxt bu sərginin keçirilməsi bəzilərində şübhə doğururdu, bəziləri buna təəccüf edirdilər, çünki o zaman Azərbaycan çox çətin vəziyyətdə yaşayırdı. Ölkədə vəziyyət çox ağır idi. Ermənistan-Azərbaycan müharibəsi təzəcə dayanmışdı, atəşkəs sazişi təzə bağlanmışdı. Əlbəttə, belə bir şəraitdə sərginin keçirilməsi çox fövqəladə bir hal idi. Ölkə ağır günlər yaşayırdı. Azərbaycanda iqtisadi böhran hökm sürürdü.

Ümumiyyətlə, o vaxt Azərbaycan dünyada çox riskli bir ölkə kimi tanınırdı. Ancaq sərginin təşkilatçılarının səyləri nəticəsində və Prezident Heydər Əliyevin dəstəyi ilə həmin sərgi baş tutdu və xatırlayıram ki, çox uğurlu keçdi. Azərbaycana gəlmiş xarici şirkətlər ölkəmizə olan maraqlarını burada ifadə etdilər, Azərbaycana öz inamlarını bildirdilər və beləliklə, Azərbaycanda böyük neft şirkətlərinin iştirakı ilə beynəlxalq bir tədbir keçirildi.

Ümumiyyətlə, 1994-cü il Azərbaycanın tarixində xüsusi yer

tutur. Məhz 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı və bu müqavilə ilə Azərbaycanın yeni neft strategiyası başlandı. Heydər Əliyevin neft strategiyası artıq 10 ildən artıqdır ki, həyata keçirilir və Azərbaycana böyük uğurlar gətirmişdir. Bu illər ərzində Azərbaycana, ölkəmizin neft sənayesinə böyük həcmdə sərmayələr qoyulmuşdur. Tanınmış neft şirkətləri Azərbaycana gəlmişdir və ölkəmizlə çox uğurlu iş birliyi, əməkdaşlıq qurmuşdur. Deyə bilərəm ki, 1994-cü ildə başlanan işlər Azərbaycanın gələcəyi üçün həlledici xarakter daşıyırdı.

"Əsrin müqaviləsi"ndən sonra 20-dən artıq neft müqaviləsi imzalandı. Bu müqavilələrin çərçivəsində təxminən 60 milyard sərmayə gözlənilir. Neft sənayesinə qoyulan sərmayələr, təbii ki, ümumiyyətlə iqtisadiyyatımıza təkan verəcəkdir. Sizə deyə bilərəm ki, son 7-8 il ərzində Azərbaycana qoyulan sərmayələrin həcmi 17 milyard dollar təşkil edir. Bunlardan 12 milyard dolları birbaşa xarici sərmayədir. Bu, onu göstərir ki, Azərbaycana böyük inam var, Azərbaycan çox etibarlı tərəfdaşdır. Əgər belə olmasaydı, əlbəttə, xarici şirkətlər Azərbaycana bu qədər sərmayə qoymazdılar. Onu da deməliyəm ki, qonşu ölkələrlə müqayisədə, keçmiş sovet respublikaları ilə, eyni zamanda, bəzi Şərqi Avropa dövlətləri ilə müqayisədə adambaşına düşən xarici sərmayəyə görə Azərbaycan liderdir və uzun illərdir bu liderliyi saxlayır.

Əgər Azərbaycanda ictimai-siyasi sabitlik, asayiş bərpa edilməsəydi, əlbəttə, xarici sərmayənin bu səviyyədə gətirilməsi mümkün olmazdı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin fəaliyyəti, səyi nəticəsində Azərbaycan çox qısa müddət ərzində böyük addımlar atıbdır. Neft sektoru inkişaf edir, iqtisadiyyatımızın digər sektorları inkişafdadır. Bu, onu göstərir ki, Azərbaycan düz yoldadır.

Azərbaycanda çox gözəl sərmayə mühiti var. Bizim xarici dostlarımız, tərəfdaşlarımız əmindirlər ki, onların sərmayələri lazımi səviyyədə qorunur. Artıq hamıya bəllidir ki, hər bir neft



müqaviləsi imzalanandan sonra Milli Məclis tərəfindən təsdiq edilir və beləliklə, qanun kimi qüvvəyə minir və bu qanunu heç kəs dəyişə bilməz. Sevindirici haldır ki, bu 10 il ərzində Azərbaycanla neft şirkətləri arasında mübahisə doğuran heç bir məsələ ortaya çıxmadı. Biz həmişə çox mehriban şəraitdə işləyirik, əməkdaşlıq edirik və ölkəmizdə fəaliyyət göstərən xarici neft şirkətləri, burada yaşayan xarici mütəxəssislər Azərbaycan cəmiyyətinin üzvləri olmuşlar və bilirəm ki, özlərini Azərbaycanda çox rahat hiss edirlər.

Məqsədimiz Azərbaycanı hərtərəfli inkişaf etdirməkdir. Neft amilindən istifadə edib iqtisadiyyatımızı şaxələndirmək, yeni iş yerləri yaratmaqdır. Neft sektorunda, xüsusilə xarici neft şirkətlərinin fəaliyyəti nəticəsində Azərbaycanda minlərlə, on minlərlə yeni iş yerləri açılmışdır. Bu sektorda fəaliyyət göstərən bizim vətəndaşlarımız çox yüksək maaş alırlar və onların şəraiti çox yaxşıdır. İndi bu amildən istifadə etməliyik ki, Azərbaycanda iqtisadiyyatın digər sektorları da irəliləsin, ölkəmiz hərtərəfli inkişaf etsin. Bu məqsədlə xüsusi proqramlar qəbul edilib və artıq həyata keçirilir. Ümid edirəm ki, bu proqramlar öz nəticələrini verəcəkdir.

Çox böyük məmnunluq hissi ilə deyə bilərəm ki, son 7 ay ərzində, prezident seçkilərindən sonra Azərbaycanda 30 minə yaxın yeni iş yeri açılıbdır. Bu, bir daha onu göstərir ki, seçkilərdən əvvəl verilən sözlər həqiqətə uyğundur və həyatda öz təsdiqini tapır.

Azərbaycanın neft sektoru inkişaf edir. Deyə bilərəm ki, 1990-cı illərdə ən mürəkkəb məsələlərdən biri Xəzər dənizinin hüquqi status məsələsi idi. Bu məsələ ilə bağlı çoxlu mübahisələr, müəyyən gərginlik var idi. Amma onu da deyə bilərəm ki, Heydər Əliyev diplomatiyası nəticəsində bu məsələ də öz həllini tapır. Bu məsələnin həlli istiqamətində çox önəmli addımlar atılmışdır və artıq Azərbaycan Rusiya və Qazaxıstanla Xəzər dənizinin hüquqi statusu haqqında sazişlər imzalamışdır. Bu, onu göstərir ki, hətta belə çətin beynəlxalq

məsələlərdə də ortaq məxrəcə gəlmək mümkündür və hər bir tərəfi qane edən qərar tapılmışdır. Mən ümid edirəm ki, yaxın zamanlarda Xəzər dənizinin statusu məsələsi nəhayət ki, bütövlükdə öz həllini tapa bilər.

Azərbaycanın gələcək perspektivləri çox gözəldir. Qarşımızda duran bütün planları həyata keçirmək üçün, əlbəttə, güclü iqtisadiyyatımızın olması lazımdır. Təbii ki, iqtisadiyyatımızın əsas sektoru olan neft sektoru burada önəmli, deyə bilərəm, həlledici rol oynayır. Biz artıq işlərin ilkin mərhələsini görmüşük. Azərbaycana böyük həcmdə sərmayə gətirilibdir. Azərbaycanın neft sektoru çox sürətlə inkişaf edir, yeni infrastruktur yaradılır.

Bu illər ərzində Azərbaycanda dörd qazma qurğusu tikilib istifadəyə verilibdir: "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" və ən nəhəng qazma qurğusu, Xəzər dənizinin ən dərin sularında işləyə bilən "Heydər Əliyev" qazma qurğusu. Bu, bizim infrastrukturumuzu çox gücləndirir. Amma, eyni zamanda, gələcək mərhələ ondan ibarət olacaq ki, neftdən əldə olunan gəlirlər səmərəli işləsin. Biz onlardan səmərəli istifadə edək. Məhz bu məqsədlə Azərbaycanda Neft Fondu yaradılmışdır. Neft Fondu çox şəffaf bir qurumdur, onun fəaliyyəti beynəlxalq maliyyə təsisatları tərəfindən dəstəklənir. Mütəmadi qaydada beynəlxalq audit keçirilir və Neft Fondunun gəlirləri və xərcləri haqqında mətbuatda vaxtaşırı məlumat dərc edilir.

Şəffaflıq bizim uğurumuzun əsas səbəblərindən biri olacaqdır. Bilirsiniz ki, Azərbaycan Beynəlxalq Şəffaflıq Təşəbbüsünə qoşulmuşdur. Artıq bir ildən çoxdur ki, bu məsələ ilə ciddi məşğuluq və Böyük Britaniya Baş nazirinin təşəbbüsünü dəstəkləyirik. Deyə bilərəm ki, bölgədə Azərbaycan, bəlkə də, yeganə ölkədir ki, bu təşəbbüsdə çox fəal iştirak edir. Bu, bizə imkan verəcək ki, gələcəkdə neftdən əldə olunan gəlirlər səmərəli işləsin və hər bir Azərbaycan vətəndaşı bunu öz gündəlik həyatında hiss etsin.

Doğrudur, neftdən əldə olunan gəlirlər artıq həyatımıza öz



təsirini göstərir. Sizə deyə bilərəm ki, keçən il ümummilli liderimiz Heydər Əliyevin fərmanları ilə əmək haqları, pensiyalar məhz Neft Fondunun vəsaiti hesabına artırılmışdır. Bu, o deməkdir ki, neftdən əldə olunan gəlirlər artıq insanlarımızın gündəlik həyatında öz əksini tapır. Gələcəkdə, əlbəttə, gəlirlərimiz artdıqca bizim daha çox imkanlarımız olacaqdır ki, insanlarımız daha yaxşı yaşasınlar.

Heydər Əliyevin neft strategiyasının ən önəmli istiqamətlərindən biri də neft kəmərlərinin tikilməsi və Azərbaycan neftinin dünya bazarlarına çatdırılmasıdır. Hazırda Azərbaycan neftini nəql edən iki neft kəməri fəaliyyətdədir və bu, bizə imkan verir ki, öz neftimizi çox səmərəli şəkildə dünya bazarlarına çatdıraq.

Bilirsiniz ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası çox uğurla gedir və ümid edirik ki, gələn ilin əvvəllərində istismara veriləcəkdir. Bu da Heydər Əliyevin əsəridir. Təsadüfi deyil ki, Bakı-Tbilisi-Ceyhan şirkətinin üzvləri bu kəmərə Heydər Əliyevin adını vermişlər və Türkiyədə yaşayan qardaşlarımız, dostlarımız, Türkiyə hökuməti Ceyhan terminalına Heydər Əliyevin adını vermişlər. Həqiqətən, Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan neft kəmərinin memarıdır.

Bakı-Tbilisi-Ceyhan haqqında çoxlu sözlər deyilibdir. Mən onları təkrarlamaq istəmirəm. Bircə onu demək istəyirəm ki, bu, Azərbaycanın gələcəyini çox böyük dərəcədə müəyyən edəcək bir layihədir. Regionda gedən əməkdaşlığı gücləndirən bir layihədir. Ümid edirəm və əminəm ki, bu layihə həyata keçiriləndən sonra bölgəmiz dəyişəcək, nəhayət, sülh, əmin-amanlıq gələcəkdir. Əlbəttə, Azərbaycan bu kəmərdən istifadə edib öz neftini dünya bazarlarına çatdırandan sonra ölkəmiz daha da inkişaf edəcək, insanlarımız daha da yaxşı yaşayacaq, iqtisadiyyatımız güclənəcəkdir.

Güclü iqtisadiyyat ən önəmli şərtdir. Azərbaycanda bütün məsələləri həll etmək üçün, ilk növbədə, iqtisadiyyat güclü olmalıdır. Sosial məsələlər öz həllini tapır. Neft Fondundan ay-

rılan vəsaitlər ilk növbədə, ən çətin vəziyyətdə yaşayan qaçqınlar, köçkünlər üçün sərf edilir. Ümid edirəm ki, bu məsələ öz həllini tapacaqdır. Biz Ermənistan, Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik. Ancaq bu, bütün beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində olmalıdır.

"Şahdəniz" layihəsi Azərbaycana yeni uğurlar gətirəcəkdir. Artıq Azərbaycan qazının Avropaya, Türkiyəyə çatdırılması istiqamətində böyük işlər görülür. Ümid edirəm ki, bu layihə də öz gözəl nəticəsini verəcək və Azərbaycan qazı yaxın zamanlardaTürkiyəyə, oradan isə Avropaya göndəriləcəkdir. Azərbaycan Avropa istehlakçıları üçün çox etibarlı bir mənbə olacaqdır.

Əziz dostlar!

Bir sözlə, Azərbaycanda son on il ərzində görülən bütün işlər çox uğurludur. O cümlədən neft-qaz sektorunda. Bu, bir daha göstərir ki, 1994-cü ildə atılan addımlar düzgün addımlar idi. Bu, Heydər Əliyevin neft strategiyasının, neft diplomatiyasının təntənəsidir. Mən ümid edirəm ki, biz bu siyasəti davam etdirdikcə yeni nailiyyətlərə çatacağıq, ölkəmizi gücləndirəcək, hərtərəfli inkişaf etdirəcəyik.

Sizi bu sərgi və konfransın açılışı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, uğurlar arzulayıram. Sağ olun!

*01 iyun 2004-cü il*



# İKİNCİ BÖLMƏ

## NEFT-QAZ SƏNAYESİNİN İNKİŞAFINDA GƏRGİN ƏMƏK SƏRF EDƏNLƏR

## NEFT ELMİNİN GÖRKƏMLİ TƏDQİQATÇISI VƏ TƏŞKİLATÇISI



Azərbaycan Dövlət Neft Akademiyasının (ADNA) yüksək elmi, pedaqoji potensialı və mükəmməl texniki bazası onu dünya miqyasında tanıtmışdır. Bu elm və təhsil mərkəzinin tarixinin şanlı səhifələri bir çox istedadlı alimin elmi-pedaqoji fəaliyyəti ilə bağlıdır. Neft Akademiyasını məşhurlaşdıran, onun uğurlarını artıran böyük alimlərdən biri də neft yataqlarının işlənməsi və istismarı kafedrasının müdiri, akademik Azad Xəlil oğlu Mirzəcanzadədir. A.X.Mirzəcanzadənin çox çətin, lakin şərəfli ömür yolu gənc nəsil üçün zəngin həyat məktəbidir.

1959-cu ildən ADNA-nın məzunu kimi burada fəaliyyətə başlayan Azad müəllim nəzəri mexanika kafedrasının müdiri olmaqla yanaşı, neft yataqlarının işlənməsi və istismarı kafedrasını və onun nəzdində yaradılan neftin çıxarılmasının texnika və texnologiyasına da rəhbərlik etmişdir.

Taleyini ömürlük ADNA ilə bağlayan akademik A.X.Mirzəcanzadənin fəaliyyətində seçilən cəhətlərdən biri kafedraların professor-müəllim heyətinin səviyyəsinin artırılmasına və onlara rəhbərliyinin yaxşılaşdırılmasına böyük zəhmət sərf etməsi olmuşdur. Fizika, nəzəri mexanika, əmək mühafizəsi, qaz və qazkondensat yataqlarının işlənməsi və istismarı, faydalı qazın-

tı yataqlarının işlənməsi və istismarı, hidravlika, tətbiqi riyaziyyat, maşın və mexanizmlərin saxlanması, maşın hissələri, mühəndis qrafikası kafedralarının yeni səviyyəyə qalxmasında Azad müəllimin müstəsna rolu olmuşdur. Dünyanın neftçi alimlərindən hər biri neft və qaz haqqında elmin konkret sahəsi üzrə tədqiqatlar aparmışdır. Onlar öz sahələri üzrə məşhur olsalar da, neftçıxarma elminin digər sahələri üzrə peşəkar mütəxəssis səviyyəsinə qalxa bilməmişlər. Azad müəllim isə qazmadan başlamış neftin, qazın nəqli məsələsinədək geniş sahələri əhatə edən yüksək səviyyədə elmi-tədqiqat işləri aparmışdır. O, neft və qaz quyularının qazılması, yataqların işlənməsi, maye qaz mexanikası, fizika-riyaziyyat, mexanika, hidromexanika, neftin nəqli ixtisasları üzrə çox sayda elmlər namizədi və doktoru hazırlamış, bir çox qiymətli əsərlər, ixtiralar müəllifi, neft elminin peşəkar mütəxəssisi kimi tanınmışdır.

Quyuların qazılmasının hidromexaniki əsasları, mürəkkəb şəraitdə quyuların qazılması, qeyri-nyuton neftli yataqların işlənməsi və istismarının xüsusiyyətləri, qaz kondensant yataqlarının işlənməsinin nəzəri və praktiki əsasları, tükənməyə meylli qaz kondensat yataqlarının işlənməsində quyuların məhsuldarlıq əmsalının artmasının aşkar edilməsi, qaz yataqlarının işlənməsinə sorbsiya prosesinin təsiri, layların verim əmsallarının artırılmasında fiziki sahələrin tətbiqi, ehtiyatı çətin alınan neft və qaz yataqlarının işlənməsi və istismarında yeni üsulların tətbiqi, laya qazılmış ilk quyu vasitəsilə onun növünün təyini, yataqların işlənməsi və istismarı enerjiyə qənaət edən texnologiyanın tətbiqi, riyazi statistikanın neft və qaz laylarının işlənməsi və istismarına tətbiqi ilə informasiya çatışmazlığı şəraitində texnoloji proseslərin idarə olunması və proqnozların verilməsi metodlarının yaradılması kimi istiqamətlərdə apardığı tədqiqatlar nəticəsində neftçıxarma elminin nəzəriyyəsində və praktikasında Azad Mirzəcanzadə ilk dəfə fundamental xarakterli yeniliklər aşkar etmişdir.

Azad müəllimin elmi fəaliyyətində bir xüsusiyyət də çox maraqlıdır. O, aldığı hər nəticəni çap etdirməyə tələsməyib. Lakin ideyasının nəticəsini səbirsizliklə gözləyib. Nəticə alınanda isə başqa ideyanın yoxlanılmasına keçib, bəzi işlərini çap etdirib.



Onun digər bir xüsusiyyəti də elmdə çox səxavətli olmasıdır. Yenilikləri hamıya danışır, başa salır. Yeni nəticənin alınmasında hətta texniki cəhətdən azacıq kömək göstərən əməkdaşın da müəllif kimi qeyd olunmasını vacib sayır.

Azad Mirzəcanzadənin tədqiqatlarından yenilik dərəcəsinə görə ilk vaxtlar tərəddüdlə qarşılananı da olub. Lakin alınan nəticələr sonradan digər tədqiqatçılar tərəfindən sübuta yetiriləndən sonra onun başladığı işlərin davamı keçmiş ittifaqın bir çox tədris və elmi-tədqiqat institutları üçün yeni istiqamətlər kimi qəbul edilib. "Süzülmənin Mirzəcanzadə modeli" və s. əvvəl qəbul edilməsə də sonradan rəsmi etiraf edilmiş, yayılmış və indi də istifadə olunmaqdadır.

Azad müəllimin elmi axtarışları və nailiyyətləri ADNA-nı keçmiş ittifaqda neft sahəsində aparılan elmi-tədqiqat işlərinin mərkəzinə çevirməklə, məşhur alimlərin diqqətini Azərbaycana yönəltmişdi. O illərdə SSRİ Təhsil Nazirliyinin neft elminə aid keçirdiyi ali məktəblərarası forumlar, neft və qaz sənayesi nazirliklərinin konfrans, simpozium və seminarları Azad müəllimin sədrliyi ilə ADNA-da təşkil olunurdu. Azad Mirzəcanzadə, demək olar ki, keçmiş ittifaqda həm neft-qaz profili ali təhsil məktəblərində, həm də Elmlər Akademiyasının institutlarında neft sahəsində aparılan tədqiqat işlərinin əsas opponenti və məsləhətvericisi səviyyəsinə qalxmışdı. ADNA-nın sələfi olan M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun neft yataqlarının işlənməsi və istismarı kafedrasına Rusiya, Qazaxıstan, Ukrayna və Özbəkistandan, Rumıniya, ADR və digər ölkələrdən tədqiqatçılar, məşhur alimlər gəlir və Azad müəllimdən məsləhət alırdılar. Mühazirə oxumaq və elmi rəhbərlik etmək üçün ona çoxlu müraciətlər edirdilər.

Akademik Azad Mirzəcanzadənin apardığı seminar, konfrans, simpoziumlarda M.Millionşikov, L.Sedov, A.İşlinski, Xristianoviç, R. Rebinder, Raxmatullin, İlyuşin, Serniy, Krılov, Yeryomenko kimi akademiklər, Barenblat, Qalin, Qrbalov, Şelkaçov, Tarq, Loytsyanski kimi məşhur riyaziyyatçıların, neft alimlərinin ADNA-ya gəlmələri, elmi nəticələrin müzakirələrinin keçirilməsinə və dissertasiya işlərinə görkəmli alimlərin opponent olmalarına şərait yaradırdı. Azad müəllimin rəhbərlik etdiyi

kafedraya təkcə alimlər deyil, Neft və Qaz Sənayesi Nazirliklərinin rəhbərləri də gəlirdilər. Neft sənayesi naziri Şaşın, Maltsev, qaz sənayesi naziri Dinkov, SSRİ Dövlət Plan Komitəsinin sədri Baybakov və b. belə insanlardan idi.

1969-cu ildə Azad müəllim Moskvaya dəvət olundu, SSRİ EA ilə Neft Sənayesi Nazirliyinin Yanacaq Qazıntılarının Geologiyası və İşlənməsi İnstitutuna laboratoriya müdiri təyin olundu. Eyni zamanda SSRİ EA-nın Mexanika Problemləri İnstitutunda qeyri-xətli mexanika şöbəsinə rəhbərlik də ona tapşırıldı.

ADNA-nın maddi-texniki bazasının, yüksək ixtisaslı mütəxəssis hazırlığı imkanlarının genişləndirilməsi məqsədi ilə qabaqçıl istehsalat müəssisələrində, sahə elmi-tədqiqat institutlarında kafedranın filial və bazalarının yaradılmasında Azad Mirzəcanzadənin misilsiz xidmətləri olmuşdur. Binəqədi, Suraxanı, Qaradağ və Nərimanovneftdə kafedranın belə baza və filialları yaradılmışdı. Təcrübə dərsləri, istehsalat praktikaları həmin baza və filiallarda keçirilirdi.

Azad müəllimin bilavasitə təşəbbüsü ilə SSRİ Qaz Sənayesi Nazirliyi ilə Respublika Təhsil Nazirliyinin birgə əmri əsasında Xəzərdənizneftqaz və Azərbaycan Neft Kimya İnstitutunun tədris-elm istehsalat kompleksi yaradılmışdı. Kompleksin elmi rəhbəri Azad müəllim idi. O dövrdə ittifaqda fəaliyyət göstərən 7 neft-qaz profilli ali məktəbin heç birində belə qurum fəaliyyət göstərmirdi. Əfsus Ki, 1989-cu ildən kompleksin fəaliyyəti dayandırıldı.

Azad müəllimin fikrincə, elmlə məşğul olmayan pedaqoq özünü əsl müəllim saya bilməz. Bu səbəbdən də akademik Azad Mirzəcanzadənin fəaliyyəti və xidmətləri təhsilimizin inkişafı ilə üzvi surətdə bağlıdır. 1959-cu ildən ADNA-da kafedraya bacarıqla rəhbərlik edən, böyük həvəslə, yüksək səviyyədə dərs deyən Azad müəllim bir neçə nəsil neftçi mühəndislərin müəllimi olmuşdur. Hazırda Bakı şəhərində litseylərdən birinə himayəçilik edən Azad müəllim müstəqil Azərbaycanın gənc nəslinin də formalaşmasına yaxından kömək göstərir.

Azad müəllim öz peşəkarlığı ilə fəxr edir. Ona verilən "Siz özünüzü dahi sayırsınızmı?" sualına, sadəcə, "Mən sənətimin peşəkarıyam" cavabını vermişdir. Neft-qaz çıxarma və qazma



işləri idarələri ilə sıx əlaqədə olması, istehsalat sahələrində görüşlər keçirməsi, elmi seminarlar aparması, texnoloji proseslərin göstəricilərinin yaxşılaşdırılması üçün real təkliflər, məsləhətlər verməsi və müxtəlif tədbirləri həyata keçirməsi Azad müəllimin peşəkar fəaliyyətinin əsas xüsusiyyətlərindəndir.

Azad müəllimin ADNA-da sağlam mənəvi, yaradıcı iqlim yaradılmasında da rolu az olmamışdır. Təkcə texniki sahə alimləri və xadimlərilə deyil, incəsənət, ədəbiyyat, təbabət sahəsində görkəmli adamlarla da sıx əlaqə saxlayan Azad müəllim onları ADNA-nın dostlarına çevirir.

Azad müəllim uşaqlıqdan fövqəladə, fitri qabiliyyəti ilə seçilmiş, orta məktəbi 15 yaşında bitirmişdir. Ali təhsildən 1 il sonra elmlər namizədliyi dissertasiyası müdafiə etmişdir. 28 yaşında isə Moskvada SSRİ Elmlər Akademiyasının mexanika sahəsində flaqman sayılan Mexanikanın Problemləri İnstitutunda riyaziyyat elmi ilə təmasda olan texnika elmləri doktoru dissertasiyası müdafiə etmişdir.

Azad Mirzəcanzadə 34 yaşında Azərbaycan EA-nın müxbir, 39 yaşında həqiqi üzvü seçilmişdir. O, Rusiya Təbiət Elmləri Akademiyasının və Ukrayna Neft-Qaz Akademiyasının həqiqi üzvü, Başqırdıstan Akademiyasının fəxri üzvü, Beynəlxalq Şərq Neft Akademiyasının prezidentidir. 70 monoqrafiya, 400-dən çox elmi məqalə və 45 ixtira müəllifidir. 400 nəfərdən çox elmlər namizədi və doktoru hazırlamışdır.

Azad müəllim xeyli müddət respublika elminin idarəedici və istiqamətləndirici orqanı olan Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyasının və Dövlət Elm və Texnika Komitəsinin sədri vəzifələrində çalışmışdır. Hazırda Azad müəllim eyni güvvə və həvəslə ADNA-nın neft yataqlarının işlənməsi və istismarı kafedrasına rəhbərlik edir, "Azərbaycan neft təsərrüfatı" yurnalının baş redaktorudur.

Görkəmli elm təşkilatçısı və nəhəng alim olan Azad Mirzəcanzadənin çoxcəhətli əməyi orden və medallara, 2 dəfə respublika Dövlət mükafatına, dəfələrlə Qubkin adına mükafata, SSRİ Nazirlər Sovetinin mükafatına və bir çox fəxri adlara layiq görülmüşdür.

## AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN "AZƏRNEFTYANACAQ" NEFT EMALI ZAVODUNUN KOLLEKTİVİNƏ

Hörmətli neftçilər!

Sizi - "Azərneftyanacaq" neft emalı zavodunun kollektivini müəssisənin istismara buraxılmasının 50 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm!

Bu zavodun istismara buraxılması neft sənayemizin həyatında əlamətdar hadisə olmuşdur. Yarıməsrlik tarix ərzində müəssisənin kollektivi Azərbaycan neftçiləri içərisində öz dəst xətti ilə daim seçilmişdir. Bugünkü "Azərneftyanacaq"ı səciyyələndirən əsas cəhətlərdən biri məhsuldarlığı və buraxılan məhsulun keyfiyyətidir.

Azərbaycanda neftin hasil edilməsi, daşınması və emalının çox zəngin ənənələri vardır. Hələ XX əsrin 70-80-ci illərində Yeni-Bakı neftayırma zavodunda tikilən ELOU-AVT-6, Katalitik Riforminq, Katalitik Krekinq və Tədrici kokslaşma qurğuları bu gün imkan verir ki, neft emalı prosesində beynəlxalq standartlara cavab verən çeşidli məhsullar istehsal olunsun. Ona görə də müasir dövrdə də müstəqil respublikamız bütün dünyada aparıcı neft ölkələrindən biri kimi tanınır və bu sahənin inkişafına öz önəmli töhfələrini verir.

Əminəm ki, öz peşəkarlığı və fədakar əməyi ilə seçilən "Azərneftyanacaq" neft emalı zavodunun kollektivi gələcəkdə də qazandığı müvəffəqiyyətləri möhkəmləndirmək üçün bütün səylərini səfərbər edəcək və neft sənayemizin ön cərgələrində layiqli yerini tutacaq. Milli iqtisadiyyatımızın çiçəklənməsində aparıcı rolunu qoruyub saxlayan Azərbaycan neftçiləri, zavodunuzun kollektivi də daxil olmaqla ölkəmizin dünya iqtisadiyyatına inteqrasiya olunmasına töhfəsini verəcəkdir.

Bir daha Sizi - müəssisənizin bütün kollektivini salamlayır, hər birinizə möhkəm cansağlığı, səmərəli iş və rifah arzulayıram.

*Heydər ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*
*29 avqust 2003-cü il*



## Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azərneftyanacaq" neft emalı zavodunun işçilərinin təltif edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azərneftyanacaq" neft emalı zavodunun 50 illik yubileyi ilə əlaqədar xüsusi xidmətlərinə görə aşağıda göstərilən neftçilər təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**
Hüseynov Elman Əliqulu oğlu
Xıdırov Beykəş Seyfulla oğlu
Əliyev Altay Əşrəf oğlu
Barışov Yuri Petroviç
Quliyev Ağaşirin Simran oğlu

**"Tərəqqi" medalı ilə**
Nazarbəyova Naibə Əli qızı
Quliyev Həsən Abduloviç
Şükürov Kamil Rəhman oğlu
Əliyev Hüsaməddin Əliağa oğlu
Qəribov Ramazan Əli oğlu
Əbdürrəhimov Rüstəm Nəsirəddin oğlu
Qilbəliyev Vəli Murtuz oğlu
Şəfəqqətov Nadir Kazım oğlu
Ələkbərov Yaşar Montin oğlu
Nacıyev Əhməd Abbas oğlu
Hüseynov İldırım Musarza oğlu
Əkbərov Azad Ağabəy oğlu
Əhmədova Elmira Ağamalı qızı
Abdullayev Bayram İdris oğlu
Yekibaşov Suleyman Xozeyfə oğlu
Çolaxov Abdurazaq Məhəmədrəsul oğlu
Baranov Yuri Vladimiroviç
Piroğlanov Maleddin Rzaqulu oğlu
Niftəliyev Nəsir Məhəmmədnəsib oğlu
Dadaşov Asif Firuz oğlu
Şahbazov Nazim Musa oğlu
Zeynalova Kifayət Qayıb qızı
Əmirov Nail Nurov oğlu
Zeynalov Səhhət Abdulrəhim oğlu
Əsədov Rahil Yadulla oğlu

*Heydər ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*
*29 avqust 2003-cü il*



## HEYDƏR ƏLİYEV ADINA BAKI NEFT EMALI ZAVODU DÜNYAYA İNTEQRASİYA YOLUNDA

Abdullayev Rövnəq İbrahim oğlu 1965-ci il aprel ayının 3-də Naxçıvan şəhərində anadan olmuşdur. O, V.V.Kuybışev adına Moskva İnşaat Mühəndisləri İnstitutunu bitirmişdir.

R.İ.Abdullayev 1989-1990-cı illərdə "28 May" adına NQÇİ-də mühəndis, 1991-1994-cü illərdə "Xəzərdənizneftqazinşaat" Trestinin 3 saylı Tikinti Quraşdırma İdarəsində istehsalat-texniki şöbənin rəisi, 1994-1997-ci illərdə "Xəzərdənizneftqaztikinti" Trestinin 3 saylı Tikinti Quraşdırma İdarəsində baş mühəndis, 1997-2003-cü illərdə "Xəzərdənizneftqaztikinti" Trestinin müdiri kimi məsul vəzifələrdə səmərəli fəaliyyət göstərmiş, böyük nüfuz qazanmışdır.

Rövnəq Abdullayevin təşkilatçılıq bacarığı və yüksək ixtisası nəzərə alınmış, 2003-cü ilin mart ayının 31-də o, Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun (o zaman "Azərneftyanacaq" Neft Emalı Zavodu adlanırdı) direktoru kimi çox məsul vəzifəyə irəli çəkilmişdir.

F.Bekonun belə bir ifadəsi var: "özünü yaxşı hərəkətlərdən nümunə götürməyə öyrətməklə bərabər, özün də yaxşı nümunə yaratmağı öyrən". R.Abdullayev həyatdan, insanlardan yaxşı nümunələr əxz edib, özü də yaxşı nümunələr göstərir, qazandığı təcrübəni gənclərə öyrədir.





Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun yenidən qurulmasında mərhum prezidentimiz Heydər Əliyevin böyük xidmətləri olmuşdur. **Bu barədə Heydər Əliyev adına BNEZ-nin direktoru Rövnəq Abdullayev söhbət açır:**

"Ötən əsrin 50-ci illərində respublikamızda təyyarə benzinlərinin sadə texnologiya ilə istehsal olunmasına baxmayaraq, o dövrdə texniki tərəqqinin mövcud səviyyəsi daha keyfiyyətli yanacaq növlərinin istehsalını zəruri edirdi. Azərbaycan neft emalçılarının təcrübəsini nəzərə alaraq ittifaq nazirliyi təyyarə benzinlərinin istehsalı üçün o zamanın ən müasir qurğularından hesab edilən dənəvari katalizatorla işləyən 43-102 tipli iki katalitik krekinq qurğularının və tozvari katalizatorla işləyən üçüncü qurğunun Bakıda inşa edilməsinə qərar verdi. Beləliklə, 1953-cü ildə 3 qurğunun istismara verilməsindən sonra həmin qurğular və onlara yaxın ərazidə yerləşən eyni profilli kiçik zavodlar birləşdirilərək, indiki Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun əsası qoyuldu. Zavodun qurğularının istismarı nəticəsində respublikada emal olunmuş neftin 13,8%-i, istehsal olunmuş təyyarə benzinlərinin



20,2%-i bu zavodun payına düşürdü.

60-cı illərin axırlarında xalq təsərrüfatının müxtəlif sahələrində qazanılmış nailiyyətlər neftayırma sənayesində də istehsal edilən məhsulların keyfiyyət və kəmiyyət göstəricilərinin yaxşılaşdırılması məsələsini qarşıya qoydu. Həmin dövr respublikamızda neftin emalı 4-5 zavodun fəaliyyəti hesabına əldə olunduğundan neft emalı sahəsinin bir sıra göstəriciləri, xüsusilə əmək məhsuldarlığının səviyyəsi günün tələblərinə cavab vermirdi.

Məhz belə bir vaxtda ümummilli liderimiz, möhtərəm Heydər Əliyevə respublikaya rəhbərlik etmək kimi mühüm post tapşırıldı və o, digər sahələrə olduğu kimi, neftçilərə və neftayıranlara da xüsusi qayğı göstərməyə başladı. Azərbaycana rəhbərlik etdiyi gündən qurub-yaradan, tikib-ucaldan, millətinin, xalqının səadəti yolunda hər cəfaya qatlaşan, uzaqgörən rəhbər qətiyyətli və cəsarətli addımları ilə ölkə iqtisadiyyatının çiçəklənməsinə çalışaraq buna ardıcıl, məqsədyönlü şəkildə nail olurdu. Belə nailiyyətlərin bariz nümunəsi olaraq 70-ci illərdən sonra zavodda tikilən yeni neft





emalı qurğularının inşa edilməsi və bu qurğuların müasir texnologiya ilə fəaliyyəti müxtəlif növ neft məhsullarının istehsalına geniş imkan yaratdı. Öz tarixi missiyasını xalqına bənzərsiz və ləyaqətlə xidmət etməkdə görən dahi rəhbər - Heydər Əliyevin müstəsna xidmətləri sayəsində 1976-cı ildə o dövrün neft emalı texnologiyasının ən qabaqcıl nümunələrindən hesab edilən məhsuldarlığı 6 mln. ton olan ELOU-AVT-6 kompleksi, 1980-cı ildə avtomobil benzinlərinin keyfiyyətində böyük uğur sayılan, iri məhsuldarlığa malik katalitik riforminq qurğusu və 1986-cı ildə isə məhsuldarlığı 1,5 mln. ton olan qudronun kokslaşdırılması qurğuları müvəffəqiyyətlə istismara buraxıldı.

1970-1980-ci illərdə modernləşdirmə ilə bağlı işlərin başa çatdırılması nəticəsində Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun texniki iqtisadi göstəriciləri yüksəldi. İstehsal olunmuş avtomobil benzinlərinin miqdarı 2 mln. tondan artıq olmuşdur ki, bunun 30-33%-ni Aİ-93 markalı avtomobil benzinləri təşkil edirdi. 1993-cü ildə tikintisinə böyük Öndərin - Heydər Əliyevin misilsiz xidmətləri sayəsində başlanmış,

müasir tələblərə cavab verən Q-43-107M katalitik krekinq kompleksi işə salındı. Respublikada hakimiyyət sükanı yenidən zəmanəmizin ən qüdrətli şəxsiyyəti, alternativi olmayan, əvəzolunmaz Heydər Əliyevə etibar edildikdən sonra ölkəmiz məhz onun rəhbərliyi altında yüksək templə inkişaf yoluna qədəm qoydu. İctimai-siyasi, sosial-mədəni həyatın bütün sahələrində qazanılmış nailiyyətlər onun müstəsna rəhbərlik və fövqəladə idarəetmə bacarığı sayəsində mümkün olmuşdur. Onun elmin, texnikanın, o cümlədən neft emalı sahəsində dünyanın yeni, müasir texnologiyalarının birincilər sırasında respublikada tətbiqinə nail olması kimi misilsiz xidmətləri Azərbaycanı regionda lider dövlətə gətirib çıxarmışdır. 1994-cü ildə müdrik ölkə başçısının zavoda növbəti gəlişi isə qazanılan uğurlarla kifayətlənməyərək daha müasir və məhsuldar istehsalat komplekslərinin inşa edilib istismara verilməsinə güclü təkan verdi. Zavodda olduğu müddətdə istehsal potensialının artırılmasına, məhsulun keyfiyyətinin dünya standartları səviyyəsinə çatdırılmasına yönələn müdrik tövsiyyələri, faydalı məsləhətləri və göstərişləri tez bir zamanda əhəmiyyətli nəticələrin və yüksək nailiyyətlərin qazanılmasına rəvac verdi. Yalnız bundan sonra ABŞ-ın "Merikem Korporeyşn" firmasının "Merikem" və "Merikon" qurğuları, "Honeyell" firmasının TDS-3000 avtomatik idarə olunma sistemi, 3 yerdə dəmir yolu sisternlərinə neft məhsulları yüklənmə estakadaları, qazqolder qurğusu tikilmiş, bioloji təmizləmə qurğularında isə aerasiya sistemi tam rekonstruksiya olunmuşdur.

Həyata keçirilmiş modernləşdirmə nəticəsində istehsalın rentabelliyi yüksəlmiş və respublikada ümumi daxili məhsulun formalaşmasında zavodun rolu xeyli artmışdır. Kollektivin gəlirlə işləməsi sosial məsələlərin həllinə real şərait və imkanlar yaradır. Son zamanlar zavod əməkçilərinin sosial-iqtisadi şəraitinin xeyli yaxşılaşdırılmasına nail olmuşdur.

İşçilər yay mövsümündə məzuniyyətlərini ailə üzvləri ilə birgə respublikamızın səfalı guşələrində, istirahət evlərində keçirirlər. Nabran istirahət zonasında müasir tipli istirahət evinin tikintisi üçün layihə işləri aparılır.



Sosial müdafiə və əlavə yardıma ehtiyacı olan işçilərə qayğı ilə yanaşılır, onların problemlərinin həllinə diqqət artırılmışdır. Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə verilən müavinətlər 2 dəfədən çox artırılmışdır. Bu kateqoriyadan olan işçilərin güzaranının, məişət şəraitinin yaxşılaşdırılmasına, onların digər sosial problemlərinin həllinə nail olmaq üçün xüsusi tədbirlər hazırlanmışdır.

Respublikamız müstəqillik qazandıqdan sonra siyasət və iqtisadiyyat nəhəngi olan Heydər Əliyevin respublikada apardığı köklü dəyişikliklər və qlobal irəliləyişlər yeni cəmiyyət formalaşdıraraq Azərbaycanın sivil dünyaya inteqrasiyasını sürətləndirdi. Bu da zavodumuzda istehsal olunan məhsulların satış bazarlarının miqyasının durmadan genişlənməsində böyük rol oynayır. Son illərdə zavodun məhsullarından avtomobil benzinlərinin 34-40%-i, reaktiv mühərrik yanacaqlarının 50-70%-i, dizel yanacaqlarının 50-56%-i, maye qazların 11%-i və koks məhsullarının demək olar ki, hamısı respublikadan kənara - 20-dən artıq ölkəyə ixrac olunur. Zavodda yeni texnologiyanın tətbiqi, istismar edilən qurğuların modernləşdirilməsi daim diqqət mərkəzindədir. Yaxın gələcəkdə neftin ilkin emalı üzrə ELOU-AVT-6, tədrici kokslaşdırma və katalitik riforminq qurğularında avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi "OXYPRO" texnologiyası əsasında propan-propilen qazlarından oksigen tərkibli, yüksək oktanlı benzin komponenti-dizopropil efirinin alınması qurğusunun və "ALKILEN" texnologiyası əsasınla bərk katalizatorların iştirakı ilə butan-butilen qazlarının alkilləşdirilməsi qurğusunun tikilməsi planlaşdırılır. Bu işlərin icrası Heydər Əliyev adına Bakı neft emalı zavodunda istehsalın intensivləşdirilməsi və modernləşdirilməsinə, nəticədə beynəlxalq standartların tələblərinə cavab verən açıq rəngli neft məhsullarının istehsalının artırılmasına imkan yaradacaqdır. Heydər Əliyev adına Bakı neft emalı zavodunda ötən ildə standartların tələblərinə uyğun xeyli iş görülmüşdür. Zavod MDB məkanında və mərkəzi Asiya dövlətləri arasınla eyni vaxtda üç sertifikatı almağa layiq görülmüş yeganə müəssisədir. Bu ilin aprel ayının 7-də Türk Standartları

İnstitutunun və Avropa Standartları İnstitutunun prezidentləri şəxsən Heydər Əliyev adına Bakı neft emalı zavodunda olmuş, keyfiyyət üzrə İSO-9001, ekologiya üzrə İSO-14001, təhlükəsizlik üzrə TS-18001 beynəlxalq standartların sertifikatını zavod rəhbərliyinə təntənəli şəkildə təqdim etmişlər.

Zavodun mütəxəssisləri katalitik krekinq qurğusunun istifadəsiz qalmış hidrogenlə təmizləmə bölməsində işləri başa çatdırmış, bu da məişət soba və dizel yanacaqlarının təmizlənməsinə imkan yaratmışdır. Bu isə, qeyd edilən yanacaqların keyfiyyətinin yüksəlməsinə səbəb olmaqla bərabər, ildə 30-35 min ton hidrogen tərkibli qazın zavodda səmərəli istifadə olunması hesabına 8,8 milyard manatdan artıq iqtisadi səmərə əldə etmək deməkdir. Hal-hazırda yeni informasiya texnologiyaları əsasında zavodda istehsalın səmərəliliyini artırmaq, idarəetmənin və buraxılan məhsulun keyfiyyətinin yaxşılaşdırılması istiqamətində səmərəli işlər aparılır. Burada əsas diqqət yeni texnologiyanın tətbiqi ilə istehsalın təşkilinin yaxşılaşdırılması, müasir standartlara cavab verən texnologiyanın tətbiqi, reinjinerinq proseslərinin həyata keçirilməsi və məhsulun realizasiyasının təkmilləşdirilməsinə yönəldilir. Bu işlərin başa çatdırılması ilə hər bir qurğuda məhsul istehsalının həcmi 2,5-3% artacaqdır ki, bu da zavod üzrə 120 min tondan artın motor yanacağının istehsal olunması deməkdir.

Məqsədimiz zavodun texniki bazasını təkmilləşdirmək, onu ölkə daxilində hasil olunmuş neftin dərin emalının və dünya bazarlarında rəqabət qabiliyyətli məhsulların istehsalını təmin edən böyük potensial imkanlara malik müasir neftayırma kompleksinə çevirməkdir".



## АКТИВНОЕ УЧАСТИЕ В ПОДГОТОВКЕ КАДРОВ



**Караев Мир Юлдуз Агабек оглы родился 11 мая 1923 г в г. Баку. В 1941 г. с отличием окончив среднюю школу он поступил на нефтемеханический факультет Азербайджанского индустриального института (ныне Азербайджанская государственная нефтяная академия). Летом 1942 г. в составе студенческого отряда участвовал в строительстве оборонительных сооружений на подступах к г. Баку, за что Президиумом Верховного Совета Азербайджанской ССР был награжден медалью "За оборону Кавказа". В сентябре 1942 г. будучи студентом второго курса был мобилизован в действующую армию. Служил на Северном Кавказе, имел благодарности от командования воинской части. В марте 1943 г. по специальному приказу Комитета Обороны СССР, как студент нефтяного института был откомандирован из армии в институт для продолжения учебы. В 1946 г. после окончания с отличием института М.А. Караев до 1954 г. работал на различных инженерных должностях в системе объединения Азнефтеразведка. В январе 1954 г. он поступил на очное отделение аспирантуры при АзИИ. В 1959 г. он защитил кандидатскую диссертацию на тему "Исследование гидравлических показателей буровых насосов структурно-поисково-**

го бурения", а в 1982 г. - диссертацию на тему "Исследование гидравлических показателей нефтепромысловых насосов с учетом влияния прокачиваемой среды", получив ученую степень доктора технических наук. В 1983 г. М.А. Караеву было присвоено звание профессора. Он в течение 15 лет являлся заведующим сначала кафедрой "Гидравлика и гидравлические машины", а затем - "Гидромашины и гидроприводы".

Профессором М.А. Караевым опубликовано 140 научных и научно-методических работ, из них 17 монографий, учебных пособий, брошюр. Дважды - в 1975 и 1983 гг. издательством "Недра" (Москва) массовым тиражом издана его монография "Гидравлика буровых насосов", которая является одной из основополагающих фундаментальных трудов в области буровых поршневых насосов. С 1980 по 2002 г. М.А. Караев являлся членом Специализированного совета по защите докторских и кандидатских диссертаций по нефтяным специальностям. Он является Отличником Министерства нефтяной промышленности СССР, Почетным нефтяником СССР. Награжден орденом Отечественной войны II степени, семью боевыми медалями и Почетной грамотой Президиума Верхнего Совета Азербайджанской ССР. 14 декабря 2000 г. за заслуги в области науки и образования и в связи с 80-летним юбилеем АГНА М.А. Караев Указом президента Азербайджанской Республики Г.А. Алиева был награжден орденом "Славы".

Старейший преподаватель АГНА М.А. Караев и ныне продолжает плодотворно трудиться, являясь профессором кафедры "Гидравлика", активно участвует в подготовке кадров-нефтяников.



## QAZ SƏNAYESİNİN İNKİŞAFINDA ELMİN ROLU



Eldar Əliyev 1951-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) neft-mədən fakültəsinə daxil olub, 1956-cı ildə müvəffəqiyyətlə həmin fakültəni bitirir. Təyinatını Suraxanı Neft-mədən idarəsinin 4-cü mədəninə alaraq operator kimi əmək fəaliyyətinə başlayır.

O, başa düşürdü ki, neft sənayesində yiyələndiyi bilikləri gənc nəslə aşılamaqla cəmiyyətə daha çox xeyir verə bilər. Məhz buna görə də o, 1961-ci ildə istehsalatdan ayrılmadan Bakı Neft Texnikumunun axşam şöbəsində müəllimlik etməyə başlayır. 1965-ci ildə isə istehsalatdan ayrılaraq texnikumda işləməyi qərara alır. 1969-cu ildə aspiranturaya daxil olur və 1973-cü ildə "Kiçik həcmli qazma boruları ilə maili quyuların qazılması haqqında bəzi məsələlər"mövzusu üzrə dissertasiya müdafiə edərək, texniki elmlər namizədi elmi dərəcəsi alır. 1971-ci ildə Eldar Əliyevə böyük etimad göstərilmiş, onu tədris hissəsi üzrə müdir təyin etmişlər. E. Əliyev analitik, üzvi kimya, avtomatika, elektrotexnika və digər fənn kabinələrini, laboratoriyalarını öz daxili imkanları hesabına təmir etdirərək yüksək görkəmə çatdırmışdır. Hətta elektrotexnika laboratoriyasında stendin hazırlanmasına şəxsən özü başçılıq edərək, 1985-ci ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Qızıl medala

layiq görülmüşdür. O, 21 elmi əsərin müəllifidir.

Rəhbərlikdə püxtələşən Eldar Əliyev struktur dəyişiklikləri nəticəsində respublikanın fəaliyyət göstərən iki elmi-tədqiqat institutunun elmi-texniki bazalarının birləşdirilməsindən yaranan AzETLQİ-na rəhbərlik edir.

1965-ci ildə Moskvanın VNİİQaz institutu nəzdində Azərbayjan filialı təşkil edilmişdir. 1974-cü ildə həmin filialın əsasında təbii qazın nəqlə hazırlanması və emalı üzrə Ümumittifaq Elmi-Tədqiqat və Layihə Qaz İnstitutu (ÜETLQİ) yaradılmışdır. 1980-cı ildə Respublika Baş Qaz İdarəsi nəzdində layihə-smeta şöbəsi yaradılmış və 1981-ci ildə layihə-smeta kontoruna çevrilmişdir. 1989-cu ildə isə "Azyanacaqlayihə" İnstitutu təşkil edilmiş və 1992-ci ildə isə "Azəriqazlayihə" Texnologiya İnstitutu adlandırılmışdır.

1997-ci ildə göstərilən iki institutun bazasında ixtisaslaşdırılmış Azərbaycan Elmi-Tədqiqat və Layihə Qaz İnstitutu (AzETLQİ) yaradılmışdır. Yeni yaradılmış AzETLQİ-yə texnika elmləri namizədi Eldar Əliyev başçılıq etməyə başlamışdır. Qaz sənayesinin inkişafı ilə əlaqədar olaraq AzETLQİ qazın nəqli, paylanması, yeraltı saxlanması, emalı üzrə ixtisaslaşmış və aktual elmi-texniki məsələlərin həlli ilə məşğul olmuşdur. Hazırda institutda 270 əməkdaş, o cümlədən 2 elmlər doktoru və 16 elmlər namizədi çalışır. İnstitut tərəfindən işlənilmiş layihələr ətraf mühitin qorunması və təhlükəstizliyi nöqteyi-nəzərindən dünya standartlarına uyğundur. AzETLQİ-nin alimləri qazın toplanması, nəqlə hazırlanması, nəqli və emal edilməsinin müxtəlif problemləri ilə məşğuldur.

"Azəriqaz" QSC-nin fəaliyyət dairəsində Azərbayjan Respublikasının qaz sənayesinin inkişaf proqramı Eldar müəllimin rəhbərliyi altında AzETLQİ-də işlənib hazırlanmışdır. Qaz proqramının məqsədi, perspektivdə ölkənin iqtisadi-ictimai inkişaf sürətini nəzərə almaqla, xalq təsərrüfatının və ilk növbədə ölkə əhalisinin təbii qazla səmərəli təchizatını təmin edən strategiyanın işlənib hazırlanmasıdır. Yeni strategiya ölkədə enerji daşıyıcılarına, enerjiyə qənaət və israfçılığa qarşı mübarizəni gücləndirmək üzrə dövlət nəzarətinin aparılmasını, bazar iqtisadiyyatı münasibətləri şəraitində qaz sənayesinin yeni obyektlərinin inşasını, fəaliyyətdə olan fiziki-mənəvi cəhətdən köhnəlmiş sənaye obyektlərinin modernləşməsini elmi-texniki tərəqqinin sürətləndirilməsini, ekoloji tarazlığın yaradılmasını, ətraf mühitin qorunmasını və respublikanın qaz sənayesi infrastrukturunun beynəlxalq enerji sisteminə qovuşmasını nəzərdə tutur.



Qaz proqramına respublikanın qaza olan hazırki və perspektiv tələbatı, strateji obyektlər olan yeraltı qaz anbarlarının gələcək inkişafını təmin edə biləcək xarici investisiyalar əsasında genişləndirilməsi və reabilitasiya işlərinin zəruriliyi, təbii qazın mədən hazırlığından sonra nəqli, qazın və kondensatın kompleks emalının mütərəqqi texnologiyadan istifadə olunmaqla təmin edilməsi, qaz təchizatı kommunikasiyalarının genişləndirilməsi, onların katod mühafizəsi, qaz obyektlərinin fəaliyyət çərçivəsində ətraf mühitin beynəlxalq standartlara uyğun olaraq qorunması, müasir şəraitə cavab verə biləcək zəruri normativ sənədlərin hazırlanması, enerji və perspektiv qaz ixracı siyasəti, enerjidaşıyıcılarından məqsədyönlü istifadəni təmin etmək üçün xarici ölkələr ilə müntəzəm əlaqələrin genişləndirilməsi və s. daxil edilmişdir.

Perspektivdə Azərbaycanın qaz sənayesinin iqtisadi səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş elmi-tədqiqat, təcrübə-konstruktor və layihə işləri üzrə tərtib olunmuş proqramın əsas istiqamətləri aşağıdakılardır: qaz sənayesi obyektlərinin avadanlıqlarının korroziyadan mühafizəsi. Buraya qaz kəmərlərinin korroziyadan qorunması üçün yüksək keyfiyyətli örtüklərin istehsalı texnologiyasının işlənməsi və sənaye miqyasında tətbiqi, şorluq şəraitində və karbon qazı mühitində boru kəmərlərinin və avadanlıqların korroziyadan mühafizəsi üçün əməli tədbirlərin işlənib hazırlanması. İnstitutun təcrübə-sınaq zavodunda rekonstruksiya olunmuş qurğuda örtük hazırlanmış və qaz kəmərlərində korroziyanın qarşısını almaq məqsədilə istifadə edilir.

Xatırladaq ki, respublikanın təbii qaz nəqletmə sisteminin infrastrukturuna aşağıdakılar daxildir: nəqletmə qabiliyyəti 55 atm təzyiqdə ildə 25 mlrd. m3 və uzunluğu 4 min km olan magistral qaz kəmərləri, uzunluğu 36 min km olan orta və kiçik təzyiqli qaz kəmərləri, 150 qazpaylayıcı stansiya, magistral qaz

kəmərləri üzərində yerləşən beş kompressor stansiyaları, iki yeraltı qaz anbarları və s.

Yaponiya firmaları ilə bağlanmış kontraktlardan sonra, institutun əməli təklifləri əsasında Abşeron yarımadasındakı "Şimal" DRES-in yenidən qurulması və onun təbii qazla təmin olunması məqsədilə 90 km məsafəyə Qaradağ-Digah-"Şimal" DRES-i qaz kəmərinin və kompressor stansiyasının tikilməsi həyata keçirilir. "Şimal" DRES-in yanacaq kimi əsasən təbii qazdan istifadə etməsi məqsədilə yenidən qurulması və bu üsulla ölkədə elektrik enerjisinin istehsalının xeyli artırılması nəticəsində respublikamız külli miqdarda qazanc əldə edə biləcəkdir. Eyni qayda ilə Digah qazpaylayıcı stansiyasından Sumqayıtın EP-300 etilen-propilen sənaye qurğusuna ayrıca qaz kəmərinin çəkilişi həyata keçirilir. Respublikanın qaz sənayesinin problemlərinin həll edilməsində aşağıdakı istiqamətləri nəzərə almaq lazımdır:

-Yeraltı qaz anbarlarının (YQA) perspektiv inkişafı. Bu bölmə fəaliyyətdə olan Qalmaz və Qaradağ yeraltı qaz anbarlarının genişləndirilməsinin və yenidən qurulmasının əsaslandırılmasından, mövcud anbarlardan yaxın gələcəkdə sutkada 20-25 mln.m3 qazın götürülməsi məqsədilə tədbirlərin hazırlanması və həyata keçirilməsindən, habelə Naxçıvan MR-nın duz laylarında yeraltı qaz anbarlarının və duzçıxarma kompleksinin yaradılması təkliflərinin işlənib hazırlanmasından ibarətdir. Yeraltı qaz anbarları institutun müəlliflik nəzarəti altında istismar olunur.

-Təbii qazın nəqlə hazırlanması üçün və onun keyfiyyət göstəricilərinin yaxşılaşdırılması məqsədilə onun Qaradağ YQA-nın ərazisində yeni texnoloji proseslərin və qurğuların sənaye miqyasında sınaqdan keçirilməsi təklif olunur, respublikanın qaz təchizatı sistemində qaz axınlarının enerjisindən istifadə məsələləri, poliolefinlərdən orta və aşağı təzyiqli qaz borularının istehsalı üçün texnologiyanın işlənib hazırlanması məqsədilə seçiləcək kompozisiyaların optimal texnolojci göstəricilərinin seçilməsi və öyrənilməsi, respublikanın magistral qaz kəmərlərində qaz itkilərinin qarşısının alınması və onlara nəzarət məsələlərinin kompleks həlli nəzərdə tutulmuşdur.



- Qazın və qaz kondensatının dərin emalı: maye karbohidrogenli qazların istehsalının artırılması, onlardan səmərəli istifadə məqsədilə:

- neft-qaz qarışığının emalı, neft-kimya proseslərinin texnika və texnologiyasının təkmilləşdirilməsi üzrə elmi-texniki həllin işlənməsi və tətbiqi; məişətdə və sənayedə işlənən kəskin iyli odorantın alınması üçün qurğunun tikilməsi və istifadəyə verilməsi; təbii qazın nəqli və təchizatı üçün onun tərkibində olan karbon qazının təmizlənməsində təkmilləşdirilmiş texnologiyanın işlənib hazırlanması; qazdan və kondensatdan qiymətli komponentlərin alınması məqsədilə müasir texnika və texnologiya səviyyəsində qaz-kimya kompleksinin yaradılması; qazların absorbsiya üsulu ilə qurudulması üçün səmərəli prosesin işlənilməsi və tətbiqi.

- Qaz təchizatı sistemində layihə işləri: mövcud və yeni qaz kəmərlərinin layihələndirilməsi və təkmilləşdirilməsi, dünya standartlarına cavab verməyən qazpaylayıcı stansiyaların yenidən qurulmasının, qazölçən qovşaqlarında yeni modifikasiyalı qaz sayğaclarının quraşdırılmasının layihə sənədlərinin hazırlanması və s.

Respublika üzrə institutun işləyib hazırladığı və qaz təsərrüfatı sahəsinə tətbiq olunmuş və başa çatdırılmış işlənmələri kimi aşağıdakıları göstərmək olar: optimal tərkibli məişət, iaşə və sənaye təminatlı yanacaq qazları istehsal edən qurğu; iaşə, məişət qazlarına kəskin iy verilməsi məqsədilə yeni odorant; qaz kəmərlərindən mayelərin çıxarılması üçün çoxfunksiyalı borudaxili tərtibat; yeraltı qaz anbarlarında əmələ gələn hidrat birləşmələrinin qarşısını almaq üçün yeni ingibitorların tətbiqi; qazın yeraltı qaz anbarlarına vurulması dövründə kompressorların aqreqatlarının istidəyişdirici səthlərində əmələ gələn duz çökmələrinin qarşısının alınması məqsədilə yeni reagentin tətbiqi; qaz kəmərlərini mühafizə etmək üçün korroziya əleyhinə örtüyün mənimsənilməsi və tətbiqi; magistral qaz kəmərlərinin istismarında əmələ gələn texnolojci itkilərə qarşı qaz sərfinin normalaşdırma metodikası; qaz axınında olan mayenin sərfölçən cihazların göstəricilərinə təsirini nəzərə almaq üzrə müvəqqəti təlimat; magistral qaz kəmərlərinin texniki istismarının yeni

qaydalarının işlənib hazırlanması; müxtəlif torpaq-iqlim regionlarından keçən qaz kəmərləri üçün ətraf torpaqların korroziya və biokorroziyaya görə təhlükəli sahələrinin xəritəsi; Qaradağ və Qalmaz yeraltı qaz anbarlarının boru kəmərlərinin və avadanlıqlarının korroziyadan mühafizəsi üçün örtük; qaz kəmərindən maye fazasının çıxarılması üçün tərtibat; qazın nəqlə hazırlanmasında əmələ gələn hidrat birləşmələrinin qarşısının alınması məqsədilə istifadə olunan metanolun optimal sərf normasının işlənməsi; qazın borudaxili separasiyası üçün qurğu; dəniz platformalarında qazın nəqlə hazırlanması texnologiyasının təkmilləşdirilməsi üzrə elmi-texniki həlli; "Qaradağ" YQA-da qazın tərkibində olan su və ağır karbohidrogenlərin çıxarılması üçün optimal ölçülü borudaxili separatorun hazırlanması və tətbiqi; dəniz mədənlərinin magistral qaz kəmərlərinə verilən təbii qazlara aid texniki şərtlər; qaz repressiyası tətbiq olunan və istismarda olan neft-qaz yatağında yeraltı qaz anbarının yaradılması; qazkondensat yatağının neft zolağı neftinin yüksək təzyiq altında qazvurma üsulu ilə çıxarılması; daş duz yatağında yeraltı qaz anbarının yaradılması üsulu; Qalmaz yeraltı qaz anbarında vurulan qazın təzyiqinin artırılması məqsədilə birpilləli sıxıcı kompressor stansiyasının iş rejiminin ikipilləliyə keçirilməsinə dair səmərələşdirici təklifin tətbiqi; qaz kəmərlərinin korroziyadan qorunması üçün örtüklərin hazırlanması; qaz kəmərlərində və şleyflərdə duz çökmələrinə qarşı ingibitorlar; magistral qaz kəmərlərinin istismarında texnoloji qaz itkilərinin planlaşdırılmasının təkmilləşdirilməsi və tədqiqi; təbii qazdan qurudulmuş və təmizlənmiş metan, etan, propan və butanı almağa imkan verən, qazın kompleks emalı üçün adsorbsiya-xromatoqrafiya qurğusu; yüksək hərarətli adsorbsiya üsulu ilə səmt qazından propan və butan qazlarının ayrılması prosesi; qazların qurudulması üçün modifikasiya olunmuş təbii seolitin tətbiqi.

Qalmaz və Qaradağ YQA-nın yaradılması, təbii siolitlər əsasında səmərəli adsorbentlərin yaradılması, qaz kondensatlarının tədqiqi, kiçik ölçülü yanacaq qurğularının layihələndirilməsi və tətbiqi, boru daxilində qazın separasiyası prosesinin yaradılması, qazların separasiyası və emalı qurğularında kürəvi tıxacların tətbiqi, boru kəmərləri üçün korroziya əleyhinə örtüklərin yaradılması, qaz emalı prosesi üzrə katalizatorların hazırlanması, qaz sənayesi müəssisələri üçün ekoloji pasport və zəruri normativ sənədlərin hazırlanması, qazların elektrik sahəsində ayrılması prosesi üzrə tədqiqat nəticələri və s. elmi-texniki tədbirlər institutun nailiyyətləri hesab olunur. Yeni texnologiya ilə hazırlanmış "İKANAZ", "İKANAZ-7", "AZOLYAT-7", "İKİPQ", "CKP-86", "KAZ-1", "Kİ-1", "AS-1", korroziyaya qarşı ingibitorlar, səthi aktiv maddələr Azərbaycan və keçmiş SSRİ-nin qazkondensat yataqlarında və qaz emalı zavodlarında tətbiq edilmişdir.

Magistral qaz kəmərlərinin sistemi üzərində institutun mütəxəssisləri tərəfindən texniki tədqiqat işləri aparılmışdır. Qazıməmməd - Gürcüstan sərhəddi və Qazıməmməd - Siyəzən - Şirvanovka sahələrində magistral qaz kəmərlərinin texniki tədqiqində institutun əməkdaşları ilə yanaşı BP Şirkəti diaqnostika aparatları ilə iştirak etmişdir. Həmin tədqiqatlar nətijcəsində qaz kəmərlərinin jari texniki vəziyyəti araşdırılmış və layihə sənədlərində kəmərlərin nəqletmə imkanlarını artırmaq məqsədilə tədbirlər işlənib hazırlanmışdır.

Seysmiklik, texnogen təsirlər, sürüşmələr və s. iqlim şəraitlərini nəzərə almaqla regionların qazlaşdırılması layihələri institutun mütəxəssisləri tərəfindən işlənib hazırlanmışdır. İnstiututun mühəndisləri qazın obyektiv sərfi normalarını, onların səmərəli istifadəsini, qaz itkilərinin miqdarını və onların qarşısının alınmasına aid geniş tədqiqat işləri aparmışlar. İnstitutun mühəndislərinin təklif etdikləri işləmələr əsasında Gəncə şəhərinin qaz paylama stansiyalarının Türkiyə kompaniyasının məhsulu olan yüksək keyfiyyətli PE-80 və PE-100 markalı polietilen borulardan istifadə edilmişdir.

İnstitutun verdiyi əməli təkliflərin və son illər "Azəriqaz" QSC-nin rəhbərliyinin həyata keçirdiyi çevik tədbirlər nəticəsində qaz itgilərinin qarşısı xeyli alınmışdır. İnstitut tərəfindən yaxın 20 il üçün tərtib edilmiş "Qaz təchizatının baş sxemində" məqsəd ölkənin qaz kəmərlərinin 40 il öncə istismara buraxılması ilə əlaqədar olaraq, ilk növbədə hansı ərazilərdə qaz kəmərlərinin dəyişdirilməsi vacibliyi və ya təmirə ehtiyacı olduğu ortaya çıxır. Qaradağ-Sumqayıt, Qaradağ-Digah, Qaradağ Ye-

raltı Qaz Anbarları və Azərbaycan DRES-i istiqamətlərində və s. magistral qaz kəmərlərinin təmir-tikinti işləri yerinə yetirilmişdir.

Qazpaylayıcı stansiyaların yenidən qurulması və qaztənzimləyicilərinin müəyyən hissəsinin dəyişdirilməsi nəticəsində qaz itgiləri xeyli azaldılmışdır. Respublikada qaza olan real tələbatın öyrənilməsi, qaz təchizatı sistemi üzrə qaz itgilərinin mənbələrinin təyin edilməsi və onlara qarşı mübarizə üsulları, təbii qazın səmərəli istifadəsi yollarının tədqiqi və təkmilləşdirilməsi tədbirləri və s. müvəffəqiyyətlə həyata keçirilməkdədir.

İnstitut tərəfindən verilmiş önəmli təkliflər əsasında təbii qazdan səmərəli və qənaətlə istifadə olunaraq, Qazıməmməd-Mingəçevir magistral qaz kəməri üzərində yerləşmiş rayon mərkəzlərinə və digər istiqamətlərdə təbii qazın verilməsi bərpa edilmişir. Gələcəkdə də, təbii qazdan səmərəli və qənaətlə istifadə olunarsa, respublikanın bir sıra digər yaşayış məntəqələrini də mavi yanacaqla müəyyən qədər təmin etmək mümkün olacaqdır.

Bu məqsədlə, ilk öncə magistral qaz kəmərlərində, habelə lokal qaz şəbəkələrində reabilitasiya və inventarizasiya işləri sürətləndirilməli və qaz itgiləri minimuma endirilməlidir.

Son illər institutun xarici elmi əlaqələri genişləndirilməkdədir. AzETLQİ-nin yaxından köməyi sayəsində Fransanın "Sofreqaz" Şirkəti Qalmaz və Qaradağ yeraltı qaz anbarlarının genişləndirilməsi, yerüstü və yeraltı mədən avadanlıqlarının rekonstruksiyasına dair Texniki-İqtisadi Əsaslandırmanı işləyib hazırlamışdır. Magistral qaz kəməri sahəsində institut Hollandiyanın "Tebadin" və İngiltərənin BP şirkətləri ilə layihələndirmə işlərini birgə yerinə yetirmişdir. Gələcəkdə də, respublikanın qaz sahəsinin bütün problemlərinin həllində AzETLQİ əcnəbi şirkətləri ilə müştərək elmi və layihə işlərini yerinə yetirmək əzmindədir, çünki onların qaz sahəsinin mühüm problemlərinin həlli üçün kifayət qədər yüksək ixtisaslı alim və mütəxəssisləri vardır.

Hazırda Bakı şəhərində və respublikamızın digər iri sənaye mərkəzlərində təbii qazdan istifadə edən istehlakçılara göstərilən xidmət mədəniyyətinin yaxşılaşdırılması, qazın nəqli və paylanması sisteminin bərpası üçün məqsədyönlü iş aparılır. Bu işlərin tez bir zamanda həyata keçirilməsi məqsədilə xarici və daxili investisiyaların cəlb olunması zəruridir. İlk növbədə, qaz ehtiyatlarından səmərəli qaydada, qənaətlə paylanmaı siyasətini həyata keçirmək, qaza qənaət etmək üçün elmi-texniki normativlərdən istifadə etmək lazım gələcəkdir.



Eldar Əliyevin rəhbərliyi altında AzETLQİ-nin istehsal etdiyi məhsul yüksək səmərəliyi, ətraf mühitə zərərsizliyi ilə fərqlənir və ümumdünya standartlarına cavab verir. İnstitutun fəaliyyəti atqısız və enerjiyə qənaət edən texnologiyaya əsasən qazın nəqlə hazırlanması və emalı üçün müasir avadanlıqların, qazın yeraltı saxlama mühafizəsi obyektlərinin yaradılmasına, adsorbentlərin, ingibitorların, korroziya əleyhinə örtüklərin hazırlanmasına və qaz təsərrüfatının texniki səviyyəsinin yüksəldilməsinə yönəldilmişdir.

Qaradağ yeraltı qaz anbarının (YQA) istismarının səmərəliyinin təmin edilməsi məqsədilə, YQA-nın texnoloji auditinin ilkin növü üzrə yeraltı (lay-quyu) təftişinin aparılmasına başlanılmışdır. İkinci mərhələdə isə həmin qaz anbarının yerüstü auditinin aparılmasına başlanacaqdır.



## NEFT AKADEMİYASI ONUN TALEYİDİR

İşıqlı ömür sahiblərindən biri, nəcib əməllərlə xalqına xidmət edən, öz vətəndaşlıq mövqeyi ilə seçilən, texnika elmləri doktoru, Azərbaycan Dövlət Neft Akademiyasının(ADNA) "Neftin, qazın nəqli və saxlanması" kafedrasının professoru, 1997-ci ildən Neft Akademiyasının və onun Elmi Şurasının elmi katibi olmuş, 2003-cü ildən isə maqistratura bölməsinin dekanı vəzifəsində çalışan Qafar Qulamhüseyn oğlu İsmayılovdan söz açmaq istəyirik.

Azərbaycanın seçilib sayılan təhsil ocaqlarından birinin - Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) məzunu olan və peşəkar səviyyəsinə yüksələn Qafar müəllim nəyə nail olmuşsa, öz zəhməti və istedadı sayəsində olmuşdur.

Məlumdur ki, insan şəxsiyyətinin formalaşmasında müxtəlif amillər bu və ya digər dərəcədə rol oynayır, lakin tərbiyənin insan həyatında oynadığı rolu heç kəs inkar edə bilməz. Məşhur Kibbon deyirdi ki: "Hər bir insanın iki tərbiyəsi var: birini ona valideynləri, digərini isə insan özü-özünə verir". Bu mənada haqqında danışdığımız Q. İsmayılov valideynlərini çox erkən itirməsinə baxmayaraq, hər iki tərbiyəni, xalqımıza xas olan ən ülvi hissləri və insani münasibətləri özündə cəmləşdirərək



boya-başa çatmış, bir pedaqoq-alim kimi yetişmişdir.

Yüksək nizam-intizam, məsuliyyət hissi, diqqət və həssaslıq kimi amillər onun xarakteri üçün səciyyəvi xüsusiyyətlərdir. İşi, əməli, sözü bütövlük, böyüyə-kiçiyə hörmət, obyektivlik, ədalət Qafar müəllimə nüfuz qazandırmışdır.

O, 1953-cü il may ayının 14-də Naxçıvan Muxtar Respublikası Babək rayonunun Sirab kəndində, fəhlə ailəsində anadan olmuşdur. 1969-cu ildə 7 saylı Naxçıvan şəhər orta məktəbini bitirərək, indiki Azərbaycan Dövlət Neft Akademiyasının neftmədən fakultəsinə daxil olmuş, 1975-ci ildə isə bu təhsil ocağını bitirərək mühəndis ixtisasına yiyələnmişdir.

Q. İsmayılov 1975-ci ildən gənc mütəxəssis kimi ADNA-da saxlanılmış, "Neft və qaz yataqlarının işlənməsi və istismarı" kafedrasının nəzdində olan "Neft və qazın çıxarılmasının texnika və texnologiyası", "Neft hidravlikası" problem laboratoriyalarında mühəndis, böyük mühəndis, böyük elmi işçi vəzifələrində işləmişdir.

1983-cü ildə "Neft və qaz yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə namizədlik dissertasiyası müdafiə etmişdir.

1984-1985-ci tədris illərində Q. İsmayılov neftçıxarmada texnoloji proseslərin optimallaşdırılması məsələlərinin tədqiqi üzrə Rumıniyanın Ployeşti Neft və Qaz Universitetində elmi təcrübə keçmişdir.

1987-ci ildə ona "Neft-qaz kəmərləri, baza və anbarlarının layihələndirilməsi, tikintisi və istismarı" ixtisası üzrə böyük elmi işçi attestatı verilmişdir.

1991-ci ildə ADNA-nın "Neftin, qazın nəqli və saxlanması" kafedrasının dosenti vəzifəsinə seçilmiş və 1999-cu ilə qədər həmin vəzifədə işləmişdir.

1999-cu ildə "Neft və qaz yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə doktorluq dissertasiyası müdafiə etmiş, "Neftin, qazın nəqli və saxlanması" kafedrasında professor vəzifəsinə seçilmişdir.

Qafar müəllim 1997-ci ildən 2003-cü ilin fevralınadək Neft Akademiyasının Elmi Şurasının elmi katibi olmuş, 2003-cü ilin

fevral ayından isə maqistratura bölməsinin dekanı vəzifəsinə təyin olunmuşdur.

Qafar müəllimin elmi işləri əsasən neftin, qazın çıxarılması və boru kəmərləri ilə nəqli zamanı texnoloji proseslərin səmərəliliyinin enerji və resurslara qənaət edən üsul və texnologiyalar əsasında artırılması, operativ qərarların qəbul olunmasına imkan verən nəzarət-diaqnostika və optimallaşdırma üsullarının işlənib hazırlanması məsələlərinə həsr olunub. Alim Xəzərin karbohidrogen ehtiyatlarının mənimsənilməsi və neft-qaz kəmərlərinin istismarı ilə bağlı ekoloji problemlərin həllinə həsr olunmuş elmi-tədqiqat işləri ilə də məşğul olur.

Son illər Neft Akademiyasının beynəlxalq əlaqələri xeyli genişlənmişdir. 1999-cu ildən etibarən ADNA-nın öz tərəfmüqabilləri olan Parisin Neft və Mühərriklər İnstitutu, Nitsanın Sofiya-Antipolis (Fransa), Genuya (İtaliya) Universitetləri ilə sıx əlaqəsi, böyük əhəmiyyət kəsb edir.

Qafar müəllim "TEMPUS-TACİS" proqramı çərçivəsində Avropa İttifaqı tərəfindən ayrılan qrantın hesabına reallaşan və "Ətraf mühit və neft sənayesi" ixtisası üzrə maqistr hazırlığına həsr olunmuş eyni adlı həmin Avropa kontrakt layihəsi proqramının ADNA üzrə koordinatoru olmuşdur. Qeyd etmək yerinə düşərdi ki, sözü gedən əməkdaşlıq çərçivəsində tərəf müqabilləri ilə əldə olunmuş razılığa və yaradılmış maddi-texniki, eləcə də metodiki bazaya əsasən maqistr hazırlığı, layihənin reallışması müddəti 2001-ci ildə başa çatdıqdan sonra da davam etdirilir.

Qafar müəllim yüksək ixtisaslı və elmi-pedaqoji kadrların hazırlanması və attestasiyası işində yaxından iştirak edir. O, "Ətraf mühit və neft sənayesi" ixtisası üzrə maqistr dərəcəsi verən İxtisaslaşdırılmış Elmi Şuranın və "Dəniz faydalı qazıntı yataqlarının işlənməsi" ixtisası üzrə alimlik dərəcəsi almaq üçün elmi seminarın sədri, "Qaz və neft kəmərləri və anbarlarının layihələndirilməsi" və "Dəniz neft-qaz qurğuları" ixtisaslaşmaları üzrə maqistr dərəcəsi verən İxtisaslaşdırılmış Elmi Şuranın üzvüdür. Onun rəhbərliyi ilə 8 nəfər magistrlik dissertasiyası müdafiə edib. Hal-hazırda 3 nəfərin maqistrlik, 2 nəfərin isə namizədlik dissertasiyası işlərinə rəhbərlik edir.



2003-cü ilin əvvəlində ADNA-da fakultələrdə istiqamətlər üzrə, eləcə də "MBA", "TEMPUS-TACİS" proqramları çərçivəsində maqistr hazırlığını bir mərkəzdən koordinasiya etmək, kadr hazırlığının keyfiyyətini artırmaq, tədris metodika bazasının yüksəldilməsini təmin etmək məqsədilə maqistratura bölməsi yaradılarkən Qafar müəllim bu struktur bölməyə rəhbər təyin edilmişdir.

O, çoxlu sayda beynəlxalq və respublika elmi konfrans və simpoziumlarında məruzələrlə çıxış etmiş, 100-ə qədər elmi məqalə, tezis, dərs vəsaiti, ixtira və patentin müəllifidir.

Q. İsmayılov 2000-ci ildə Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin fərmanı ilə "Tərəqqi" medalına, 2001-ci ildə isə Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının Fəxri fərmanına layiq görülmüşdür.

Qafar müəllim ailəlidir və 2 övladı var. Özü kimi ailə üzvləri - xanımı, qızı və oğlu da Neft Akademiyasının məzunlarıdır.

Əminik ki, öz taleyini Neft Akademiyası ilə bağlayan Qafar müəllimin bu günə qədər yazdığı elmi əsərlər, işlədiyi vəzifələr, layiq görüldüyü elmi adlar və mükafatlar onun son nailiyyətləri olmayacaqdır.



## APARICI MÜHƏNDİS

"Azərgeofizika" Elmi Tədqiqat İnstitutunun 11 saylı geofiziki tədqiqatlar laboratoriyasında 12-ci dərəcəli elmi işçi vəzifəsində çalışan Ələsgərova Fatma Cəbrayıl qızı 1937-ci ildə anadan olmuşdur.

O, 1960-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsinin neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı ixtisası üzrə bitirmiş və 1966-cı ilin oktyabr ayının 14-dək "Leninneft" Neft Mədənləri İdarəsində müxtəlif vəzifələrdə çalışmışdır. 15 oktyabr 1966-cı ildən "Azərgeofizika" ETİ-da aparıcı mühəndis vəzifəsində işləyir.

Fatma xanım 1992-ci ilin aprel ayının 1-dən 11 saylı laboratoriyaya keçirilmişdir. Laboratoriyada işlədiyi müddətdə özünü bacarıqlı, işgüzar, bilikli, işinə məsuliyyətlə yanaşan, intizamlı, əməksevər mütəxəssis kimi göstərmişdir. O, laboratoriyada yerinə yetirilən mövzuların işlənməsində yaxından iştirak edir, öz vəzifəsini vicdanla və yüksək səviyyədə yerinə yetirir.

F.Ələsgərova 1993, 1995, 1996-cı illərdə tərtibatı başa çatmış və Azərbaycan Respublikası Milli Elmlər Akademiyası



mühüm işlər siyahısına düşmüş və Azərbaycanın neftli-qazlı və perspektivli strukturlar atlaslarının icrasında fəal iştirak etmiş, özünün yüksək ixtisaslı mütəxəssis olmasını bir daha nümayiş etdirmişdir. O, 1996-cı ilin fevral ayından 12-ci dərəcəli böyük elmi işçi vəzifəsinə keçirilmişdir. Fatma xanıma 1999-cu ildə icrası başa çatmış atlaslar komplektinin yüksək texniki səviyyədə tərtib edilməsində və 161-2000 və 017-2002 saylı mövzuların icrasında iştirak etmişdir. O, öz elmi-texniki səviyyəsinin artırılması ilə ardıcıl olaraq məşğul olur.

F.Ələsgərova 2000-ci ildən elmi işçi vəzifəsində çalışır. Laboratoriyada icrası yerinə yetirilən bəzi mövzuların məsul icraçısı olmuşdur. Hazırda 035-2003 saylı mövzunun icrasında iştirak edir. F.Ələsgərova institutun ictimai işlərində fəallıq göstərir, veteranlar şurasının üzvü, həmçinin laboratoriyanın həmkarlar qrupunun sədridir.

Səmərəli fəaliyyətinə görə 2001-ci ildə onun adı "XX əsr Azərbaycan qadınları" ensiklopedik toplusuna daxil edilmişdir.



## DÜŞÜNƏN, AXTARAN İNSAN

Rəşid Mirzəməmməd oğlu Kərimov 1933-cü ildə Salyan rayonunun Şirvan-Cəngən kəndində kolxozçu ailəsində anadan olmuşdur. O, 1950-ci ildə orta məktəbi gümüş medalla bitirmiş və həmin ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) geoloji kəşfiyyat fakultəsinə daxil olmuşdur. R. Kərimov institutu "Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" ixtisası üzrə bitirdikdən sonra "Artyomneft" (indiki Abşeron NQÇİ) Neftçıxarma idarəsinə göndərilmişdir. Bu müəssisədə o, 1961-ci ilə kimi müxtəlif sahələrdə - quyuların tədqiqatı və neftçıxarma operatoru, qazçıxarma ustası vəzifələrində çalışmışdır. Burada işlədiyi 6 il ərzində nəinki geologiya və kəşfiyyatı dərindən öyrənmiş, eyni zamanda neftçixarmada texnika və texnologiyanın tətbiqi məsələləri ilə də dərindən məşğul olmuşdur.

Nəzəri biliyə və geniş təcrübəyə sahib olan Rəşid müəllim 1961-ci ildə Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutunun nəzdindəki aspiranturanın əyani şöbəsinə daxil olmuş və oranı 1964-cü ildə bitirmişdir. Sonra o, Darvin Bankası, Artyom adasının Şimal qırışığı və Kürqan Dəniz yataqlarında məhsuldar qatın alt şöbəsinin istismar obyektlərinə bölünməsinə dair geoloji-mədən tədqiqatları" mövzusu üzrə dissertasiya müdafiə edərək, geologiya-mineralogiya elmləri namizədi adı almışdır. Həmin ildən də Azərbaycan elmi-tədqiqat neftçıxarma institutunun ən çətin və geniş tədqiqat işləri tələb olunan sahəsi - neft və qaz yataqlarında ehtiyatların hesablanması laboratoriyasında işə başlamış və indi də orada işləyir. O, institutda əvvəlcə mühəndis, sonra elmi işçi, baş elmi işçi və laboratoriya müdiri vəzifələrində çalışmışdır. 1972-1973-cü illərdə İraq Respublikasının Milli Neftçıxarma Kompaniyasında bu ölkənin ərazisində "Neft ehtiyatlarının qiymətləndirilməsi" üzrə kontraktda baş mühəndis vəzifəsində çalışmışdır. O, kompaniyanın medalı ilə təltif edilmiş və 2-ci dəfə də bu işlərin təkmilləşdirilməsi məqsədilə İraqa 1978-1980-cı illərdə dəvət olunmuşdur.

İraqdan qayıtdıqdan sonra Azərbaycan Neft Sənayesinin Elmi-Tədqiqat və Layihə İnstitutunda (AzNSETLİ) (indiki AzNQSDETLİ) əvvəlcə baş elmi işçi, 1981-ci ildən institutda neft və qaz ehtiyatlarının hesablanması laboratoriyasının müdiri vəzifəsində çalışır.

1964-2003-cü illər ərzində bilavasitə Rəşid müəllimin iştirakı və rəhbərliyi ilə Kür çökəkliyinin, Şərqi Abşeron və Abşeron arxipelaqının bir sıra yataqlarının tektonikası dəqiqləşdirilmiş, bir çoz hallarda isə yenidən işlənilmiş və nəticədə ehtiyatlar dəqiq hesablanmışdır. Onu da qeyd etmək vacibdir kt, ehtiyatların hesablanması, xüsusən yatağın neftvermə əmsalının təyin edilməsi zamanı, yataqların işlənilməsi layihələrinin tərtibi və onların göstəriciləri tələb olunur. Rəşid müəllim ilk dəfə olaraq bu sahədə geniş elmi-tədqiqat işi apararaq, neftvermə əmsalının təyinində və onun iqtisadi cəhətdən əsaslandırılmasında böyük zəhmət çəkmişdir.

Hesablanmış və ya dəqiqləşdirilmiş ehtiyatlar köhnə SSRİ-nin Ehtiyatlar üzrə Dövlət Komissiyası, sonralar isə Ehtiyatlar üzrə Mərkəzi Komissiya tərəfindən yüksək qiymətlə qəbul edilmişdir. Bu ehtiyatlar əsasında bütün yataqların işlənilməsi layihələri tərtib edilməkdədir. Onu da göstərmək olar ki, ehtiyatların hesablanması ayrı-ayrı yataqlarda, horizontlarda, bloklarda tərtib olunan kəsilişlərin, profillərin əsasında aparıldığına görə, neft yataqlarının işlənilməsinin layihələşdirilməsində Rəşid müəllimin elmi nəticələri əsas götürülür.

R. Kərimovun 50-dən artıq elmi məqaləsi dərc edilmişdir. O, həmişə düşünür, axtarır və xalqına xeyir verməyə çalışır.



## MEHRİBAN AİLƏ BAŞÇISI, APARICI GEOLOQ

Məmmədov Aslan Rüstəm oğlu 1952-ci il yanvar ayının 1-də Borçalı mahalının Başkeçid rayonunun Səfərli kəndində müəllim ailəsində anadan olmuşdur. 1959-cu ildə Səfərli kənd orta məktəbinə qəbul edilmiş, həmin məktəbi əla qiymətlərlə bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsinə daxil olmuşdur. 1973-cü ildə ADU-nu bitirdikdən sonra neft sənayesində əmək fəaliyyətinə "Azərneftkəşfiyyat" trestinin Carlı Kəşfiyyat Qazma İdarəsində başlamışdır. O, əvvəlcə, mühəndis-geoloq, böyük geoloq, sahə rəisinin müavini vəzifələrində işləmişdir. Onun bilavasitə əməyi və iştirakı ilə Orta Kür çökəkliyinin perspektivli Mil, Muradxanlı, Zərdab, Şirinqum, Carlı, Qaraməryəm, Sovetlər Qaracallısı, Şirvanlı strukturlarında neft və qaz axtarışı və həmin sahələrdə geoloji-kəşfiyyat işləri aparılmışdır.

Aslan müəllim əmək fəaliyyətini 1984-cü ildən 1992-ci ilə qədər "İttifaqqaz" Birliyinin Qalmaz dərin qazma ekspedisiyasında davam etdirmişdir. O, burada Qalmaz, Qaradağ qazkondensat yataqlarında yeraltı qaz anbarlarının yaradılması və istismar şəbəkəsinin genişləndirilməsində gərgin əmək sərf etmişdir. Vaxtilə SSRİ Nazirlər Sovetinin sərəncamı ilə Qərvənd-Ağdam, Faxralı-Goranboy sahələrində axtarılan termal-su tşlərində özü sahənin rəisi işləmiş, gördüyüy həmin işlər



müsbət nəticə vermişdir. Beləliklə, Ağdam-Qərvənd sahəsində 68 dərəcə temperatur istilikdə 70 atmosfer quyu ağzı təzyiqdə termal-su kəşf edilmişdir.

A.Məmmədov ictimai işlərdə də fəal iştirak etmişdir. O, Qalmaz dərin qazma ekspedisiyasında Əmək Kollektivi Şurasının sədri seçilmişdir. 1992-ci ildə o, daha məsul vəzifəyə - "Azneft" Birliyinin göndərişi ilə Qala dərin istismar qazma ekspedisiyasına Baş geoloq - rəis müavini vəzifəsinə təyin edilmişdir. O, bu məsul vəzifədə özünü bacarıqlı və savadlı bir mühəndis, istehsalat rəhbəri kimi göstərmişdir.

A.Məmmədovun rəhbərliyi və iştirakı ilə Qala, Buzovna, Suraxanı, Maştağa yataqlarında istismar quyuları qazılmış və həmin quyular nəzərdə tutulmuş neft hasilatı ilə sifarişçilərə təhvil verilmişdir. Həmin quyular hal-hazırda istismar olunur.

1996-cı ildən 2002-ci ilə qədər Aslan müəllim xarici mütəxəssislərlə birlikdə "Azgerneft" müştərək müəssisəsində geologiya üzrə rəis müavini vəzifəsində işləmişdir. Burada Ramanı yatağında neft hasilatının sabit saxlanılması və artırılması işlərində fəal iştirak etmişdir.

Aslan müəllim 2002-ci ilin may ayından öz müqəddəs işini "Azərmədəngeofizika" trestində aparıcı geoloq vəzifəsində davam etdirir.



## КАЗАХСТАН СТАЛ ЕГО ВТОРОЙ РОДИНОЙ

Кулиев Юсиф Мурад оглы, родился в 1950 г. в г.Ахсу Республики Азербайджан. В 1967 г. окончил среднюю школу и поступил на нефтепромысловый факультет Азербайджанского Иститута Нефти и Химии имени М.Азизбекова.

В 1972 г. прибыл по направлению молодым специалистом в Казахстан для участия в освоении недр Мангышлака. Трудовую деятельность начал помощником бурильщика Узенского Управления буровых работ.

Совмещая практическую работу с теорией, в 1986 г. , без отрыва от производства защитил кандидатскую диссертацию на тему: "Совершенствование технологии проводки наклонных скважин путем разработки и внедрения рационального профиля, эффективных компоновок низа бурильной колонны".

За достижения рационализаторских работ в 1980 году стал лауреатом премиии ВОИР среди молодежи СССР.

В начале января 1988 г. был приглашен руководством филиала Казахского Политехнического Института для подготовки высококвалифицированных кадров - инженеров буровиков. Работал сначала старшим преподавателем кафедры общеинженерных дисциплин. В апреле 1991 г. успешно прошел конкурсный отбор на должность доцента.

В 1993 г. была образована кафедра "Бурение нефтяных и газовых скважин", куда был назначен заведующим кафедрой.

В 1999-2001 гг. работал деканом нефтехимического факультета, а в 2001-2003 годах - заведующим в укрепленном кафедре "Бурение нефтяных и газовых скважин и геология нефти и газа" Актауского Государственного Университета имени Шахмардана Есенова.

С 2004 г. работает первым проректором Мангистауского Института "Болашак".

В 1999 г. успешно защитил докторскую дессертацию на тему: "Научные и практические основы принятия решений по выбору оптимальных параметров неориентируемых КНБК для управления искривлением наклонных скважин в условиях Западного Казахстана".

Кулиев Ю.М. ведет большую учебно-методическую работу, им подготовлено и издано более 15 методических руководств. В 1996 г. был награжден Почетной грамотой Малой Ассамблеи народов Казахстана, в 2001 г. Юбилейной медалью "10 лет Независимости Республики Казахстан".

Является активным участником научно-технических конференций. Занимается научно-исследовательской работой по проблемам "Технологии бурения нефтяных и газовых скважин". Опубликовал более 65 научных трудов.

Ведет большую общественную работу, является членом Малой Ассамблеи народов Казахстана, председателем Областного Азербайджанского национально-культурного центра "Достлуг", возникшего в 1991 г. одним из первых в городе Актау Республики Казахстан.

"Достлуг" объединяет около 5000 человек - это означает, что примерно одна тысячная часть народа Азербайд-

жана живет в Актау. Среди них учёные, нефтяники, медики, учителя, водители, продавцы, бизнесмены. Имена многих из них известны всему городу. Когда Казахстан стал осваивать свои нефтегазовые месторождения, одними из первых подали соседям руку помощи и содружества азербайджанские нефтяники. Среди них были известные люди - Аллахверди Беквердиев, Махятдин Гусейнов, Исмаил Аллахвердиев - первый строитель и начальник морпорта Актау, Герой Социалистического труда машинист тепловоза Али Шукюров и многие другие. Они удостоены высоких государственных наград, снискали уважение и признательность среди своих коллег и друзей.

При НКЦ создан детский самодеятельный коллектив "Джуджалярим", что означает "Цыплята", и девичий танцевальный ансамбль "Гюнель".

В меру своих сил, как и другие НКЦ города, "Достлуг" занимается благотворительностью, шефствует над домом престарелых, сумел выставить свою команду на соревнованиях по мини-футболу. Пятый класс школы-гимназии № 4 изучает азербайджанский язык. "Достлуг" взял шефство над этим классом.



## ƏLAÇI NEFTÇİ



Miriyev Hamlet Mirsədir oğlu 1936-cı il noyabrın 8-də Qazı Məmməd rayonunda fəhlə ailəsində anadan olmuşdur.

1952-ci ildə Azərbaycan Sənaye İnstitutunun neft-mədən fakültəsinə daxil olmuş, 1957-ci ildə isə həmin fakültəni bitirib "Neft yataqlarının istismarı" ixtisasına yiyələnmişdir. Sonra təyinatı üzrə "Artyomneft" NQÇİ-də (indiki "Abşeronneft" NQÇİ) "dağ mühəndisi" neftçıxarma operatoru peşəsində əmək fəaliyyətinə başlamışdır. Sonralar burada o, quyuların yeraltı təmir ustası, neftçıxarma ustasının köməkçisi kimi fəaliyyət göstərmişdir.

O, 1959-cu ildə Artyom Rayon Komsomol Komitəsinin birinci katibi vəzifəsinə seçilmişdir.

Elmi fəaliyyətlə məşğul olmaq üçün 1961-ci ilin dekabr ayında Elmi-tədqiqat Neftçıxarma İnstitutunun (indiki AzNSETLİ) aspiranturasına daxil olmuş, 1964-cü ildə aspiranturada təhsil müddəti qurtardıqdan sonra o, institutda saxlanılaraq mühəndis vəzifəsinə işə qəbul olunmuşdur. Sonralar Hamlet Miriyev institutun neft və qaz yataqlarının işlənməsinin layihələndirilməsi laboratoriyasında əvvəlcə kiçik, daha sonra böyük elmi işçi vəzifələrinə təyin edilmişdir.

AzNSETLİ-də işlədiyi müddət ərzində bilavasitə onun iştirakı və rəhbərliyi altında neftqaz yataqlarının işlənməsinə və yataqların işlənməsinin geoloji-texnoloji layihə sənədlərinin tərti-

batına, təhlilinə, müəllif nəzarətinə, işlənmə göstəricilərinin proqnozina, layihə quyularının qazılması nəticəsində quyu şəbəkəsini sıxlaşdırmağa, çıxarıla bilən neft ehtiyatlarının hesablanmasına, işlənmə tempini və effektliyini artıran tədbirlərin görülməsinə, "durğun" zonaların təyin edilməsinə, bu zonalarda qazılacaq yeni quyuların miqdarının təyininə və s. aid çoxsaylı elmi-tədqiqat mövzuları yerinə yetirilmişdir.

Hamlet Miriyev 1971-ci ildə namizədlik dissertasiyası müdafiə edərək texnika elmələri namizədi alimlik dərəcəsi almışdır. Keçmiş SSRİ-nin Ali Attestasiya Komissiyası 1991-ci ildə ona "Neft və qaz yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə "böyük elmi işçi" alimlik adı vermişdir.

O, 1975-ci ildən 1978-ci ilə qədər Əlcəzair Xalq Demokratik Respublikasında neft və qaz yataqlarının işlənməsi üzrə ekspert, 1987-1989-cu illər ərzində isə Suriya Ərəb Respublikasında neft və qaz yataqlarının işlənməsi üzrə baş mühəndis vəzifəsində işləmişdir. Hər iki xarici ölkədə işləyən zaman onun rəhbərliyi və iştirakı ilə neft yataqlarının işlənməsinə dair elmi-tədqiqat mövzuları yerinə yetirilmiş və bu iki ölkənin hər birində iki nəfər mütəxəssis hazırlanmışdır. Hər iki ölkədə işləyən zaman o, iki dəfə xaricdə işləyən mütəxəssislər üçün fəxri ad sayılan "Nümunəvi əməyin zərbəçisi" adına layiq görülmüşdür.

Xarici səfərlərdən qayıdandan sonra o, yenidən AzNSETLİ-də fəaliyyətini davam etdirmişdir. 1989-cu ildə, sonuncu dəfə xarici ezamiyyətdən qayıtdıqdan sonra o, institutun elmi katibi vəzifəsinə işə qəbul olunmuş və bu vəzifədə 1994-cü ilin fevral ayına qədər çalışmışdır. 1994-cü ildən isə "Kür çökəkliyi neft-qaz yataqlarının işlənməsi" laboratoriyasına aparıcı elmi işçi vəzifəsinə təyin edilmiş, 1997-ci ildən həmin laboratoriyanın müdiri vəzifəsində çalışır.

H.Miriyev neftqaz yataqlarının işlənməsinə dair 101 elmi məqalənin müəllifidir. Bunlardan 54-ü texniki jurnalların səhifələrində çap edilmiş, 47-si isə elmi-tədqiqat mövzuların əlyazma hesabatlarıdır. Bir kitabın və iki metodik rəhbər sənədin müəlliflərindən biridir. H. Miriyev vaxtilə keçmiş SSRİ-nin Neft Sənayesi Nazirliyində fəxri ad sayılan "Neft sənayesinin əlaçısı" adına layiq görülmüşdür. Əmək veteranıdır.



## ELMİ ŞURANIN ÜZVÜ



Allahverdiyev Kamil İsmayıl oğlu 1931-ci il yanvar ayının 6-da Naxçıvan MR-nın Şərur rayonunun Engicə kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Naxçıvan şəhəri Cəlil Məmmədquluzadə adına Dövlət Müəllimlər İnstitutuna daxil olmuşdur. İnstitutu bitirdikdən sonra orta məktəbdə müəllim işləmişdir.

O, 1951-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuş və 1956-cı ildə institutun mexanika fakültəsinin maşınqayırma texnologiyası şöbəsini bitirmişdir. İnstitutu bitirdikdən sonra təyinatla neft sənayesi avadanlıqları üçün podşipnik hazırlayan 7 saylı Dövlət Podşipnik zavoduna işləməyə göndərilmiş, həmin zavodda 1970-ci ilə kimi texnoloq, sex rəisi, texniki şöbə rəisi, baş mühəndis, direktor vəzifələrində işləmişdir.

1969-cu ildə Moskva Ümumittifaq Podşipnik Sənayesi Elmi-Tədqiqat İnstitutunun qiyabi aspiranturasına daxil olmuş, podşipniklərin etibarlılığının tədqiqi mövzusunda dissertasiya işini 1972-ci ildə Perm şəhər Politexnik İnstitutunda müvəffəqiyyətlə müdafiə edərək, texniki elmlər namizədi adı və həmçinin baş elmi işçi diplomu almışdır.

Kamil Allahverdiyevin namizədlik dissertasiyasə olduqca aktual problemin həllinə - neft sənayesi avadanlığında istifadə olunan böyük həcmli podşipniklərin separatorlarının hazırlan-

masında geniş miqyasda istifadə olunan əlvan metalların plastmas materiallarla əvəz olunaraq əlvan metalların qənaətinə həsr olunmuşdur.

1970-1972-ci illərdə o, neftin bir quyudan bir neçə laydan istismarı üzrə xüsusi konstruktor bürosunda şöbə rəisi vəzifəsində işləmişdir.

1972-ci ildən 1998-ci ilə kimi Ümumittifaq Elmi-Tədqiqat Elektrik Maşınqayırma İnstitutunda işləmişdir. Bu institutda işlədiyi müddətdə K. Allahverdiyev keçmiş SSRİ və sosialist ölkələrinin elektrik maşınqayırma müəssisələri üçün müxtəlif avadanlıqların, avtomat xətlərin, robotların layihələndirilməsi, hazırlanması və tətbiq olunması ilə məşğul olmuşdur. İnstitutda işlədiyi illər ərzində o, Almaniya Federativ Respublikası, Almaniya Demokratik Respublikası ölkələrində yerləşən elektrik maşınqayırma müəssisələrində avadanlıqların tətbiqi, qəbul edilməsi ilə də məşğul olmuşdur.

Kamil Allahverdiyev Azərbaycan Neft və Kimya İnstitutunda (indiki Neft Akademiyası) neftmaşınqayırma avadanlıqları texnologiyası fakültəsində dərs demişdir.

O, 60-dan çox elmi işin, 3 patentin və bir monoqrafiyanın müəllifidir. Onun elmi məqalələri respublika və keçmiş ittifaqın müxtəlif elmi məcmuələrində dərc olunmuşdur.

Kamil Allahverdiyev hal-hazırda Azərbaycan Neft-Qaz Sənayesi Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunda elmi-texniki şöbənin rəisi vəzifəsində işləyir. İnstitutun elmi şurasının büro üzvüdür. Əmək veteranıdır.



## LAYİHƏ SƏNƏDLƏRİNİN TƏRTİBİ



Hüseynova Dinarə Fikrət qızı 1962-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1979-cu ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) neft-mədən fakültəsinə daxil olmuş və 1984-cü ildə "neft və qaz yataqlarının işlənməsi" ixtisasına yiyələndikdən sonra, təyinatla AzNSETLİ-də əmək fəaliyyətinə başlamışdır. Burada o, Kür çökəkliyi neft-qaz yataqlarının işlənməsi laboratoriyasında mühəndis, kiçik elmi işçi, elmi işçi vəzifələrində çalışmışdır.

Hüseynova Dinarə Fikrət qızı 1987-ci ildə AzNSETLİ-nin əyani aspiranturasına daxil olmuş, 1990-cı ildə oranı bitirdikdən sonra laboratoriyada əmək fəaliyyətini davam etdirmişdir. Hal-hazırda o, böyük elmi işçi vəzifəsində çalışır.

O, 1997-ci ildə "Texniki-texnoloji tədbirlərin tənzimlənməsinə nəzarət yolu ilə neft yataqlarının işlənməsinin effektivliyinin artırılması"mövzusunda namizədlik dissertasiyası müdafiə edərək, texnika elmləri namizədi-alimlik dərəcəsi almışdır. Bu müddət ərzində onun bilavasitə iştirakı və rəhbərliyi (etaplar üzrə) ilə Kürsəngi, Qarabağlı, Kürovdağ, Qazanbulaq, Tərtər, Suraxanı və s. neft-qaz yataqlarının işlənməsinə və işlənmənin geoloji-texnoloji layihə sənədlərinin tərtibatına aid elmi-tədqiqat mövzuları yerinə yetirilmişdir.

Neft yataqlarının işlənməsi məsələlərinə aid onun 26 elmi məqaləsi çap edilmiş, 30 elmi-tədqiqat mövzularının icraçısı olmuşdur.



## HƏM DƏ ELMİ RƏHBƏR

Tağıyev Qəzənfər Möhsüm oğlu 1925-ci il sentyabr ayının 15-də Gəncə şəhərində anadan olmuş, 1942-ci ildə həmin şəhərdə orta məktəbin IX sinfini bitirmiş, 1943-1950-ci illər ərzində ordu sıralarında (1943-1945-ci illərdə Böyük vətən müharibəsi iştirakçısı) olmuşdur.

O, 1950-ci ildə ordudan tərxis olunduqdan sonra Gəncə şəhərində fəhlə-gənclər məktəbinin axşam şöbəsinə daxil olmuş, həmin ildə "Azərbaycan Dövlət Neft-qaz Kəşfiyyat Tresti"nin elmi-tədqiqat laboratoriyasında texnik vəzifəsinə işə qəbul edilmişdir.

Q. Tağıyev 1952-ci ildə Bakı şəhərinə gələrək "Azərbaycan Dövlət Neft-qaz Kəşfiyyat" Birliyinə işə qəbul olunmuş, həmin ildə M. Əzizbəyov adına Azərbaycan Dövlət Sənaye İnstitutunun (indiki Neft Akademiyası) neft-mədən fakültəsinin axşam şöbəsinə qəbul olunmuşdur. 1958-ci ildə institutu bitirmiş, "dağ mühəndisi" ixtisası qazanmışdır.

Q.Tağıyev 1953-cü ildə "Azneft" İstehsalat Birliyində, müxtəlif illərdə, 1954-cü ildən AzNQSDETLİ-də texnik, mühəndis, böyük mühəndis, kiçik elmi işçi, baş elmi işçi vəzifələrində işləmişdir. 1968-ci ildə neft yataqlarının işlənməsi, təhlili, proqnozu və digər sahələrdə apardığı elmi-tədqiqat işlərinin nəticələri əsasında "Neftli horizontların qarışıqlı əlaqələrinin işlənmə



prosesinə təsiri" adlı namizədlik dissertasiyasını Qroznı şəhərində müdafiə edərək, texnika elmələri namizədi-alimlik dərəcəsi almışdır.

O, 1978-ci ildə çap olmuş məqalələri əsasında "Baş elmi işçi" diplomunu almış, 1986-cı ildə AzNSETLİ-də keçirilmiş attestasiya komissiyası tərəfindən aparıcı elmi işçi adına layiq görülmüşdür. Həmin ildən etibarən laboratoriya müdiri vəzifəsinə təyin olunmuşdur. Bu vəzifədə işini 1989-cu ilin sonuna qədər davam etdirmiş, sonrakı ildə baş elmi işçi, 1990-cı ildə AzNSETLİ-də keçirilmiş attestasiya komissiyası tərəfindən yenidən aparıcı elmi işçi adına layiq görülmüşdür.

İnstitutda işlədiyi müddət ərzində Kürovdağ, Mişovdağ, Kəlaməddin, Bibiheybət, Kürsəngi, Qarabağlı, Qazanbulaq, Tərtər, Acıdərə, Suraxanı və digər neft-qaz yataqlarının işlənməsinin təhlili, layihə və texnoloji sxemlərin tərtibi, yataqların işlənməsinə müəllif nəzarəti, yataqların yenidən hesablanmış neft-qaz ehtiyatlarının obyektlər üzrə təhlili, əsas işlənmə göstəricilərinin proqnozu, onların son neftvermə əmsallarının təyini, yataqlarda suvurma prosesinin aparılması və proqnozlaşdırılması kimi məsələlərin həllində elmi işçi, məsul icraçı, əksər hallarda isə elmi rəhbər kimi işləmişdir.

Hal-hazırda neft-qaz yataqlarının işlənməsi, texnoloji sxem və layihələrin əsas göstəricilərinin proqnozu, suvurma prosesinin nəticələrinin təhlili, proqnozu müəlliflərin (H.S. Qəmbərovla) təklif etdikləri metodikalar əsasında Kürovdağ, Qarabağlı, Suraxanı və digər yataqların işlənmə layihələrində tətbiq olunur.

O, əmək fəaliyyəti dövründə 110 elmi-tədqiqat işinin yerinə yetirilməsində fəal iştirak etmişdir. Bunlardan 22 elmi-tədqiqat işinin bilavasitə rəhbəri olmuşdur. Dövri mətbuatda çap edilmiş 50 məqalənin müəllifidir.

Q. Tağıyev böyük vətən müharibəsi və əmək veteranıdır. 1941-1945-ci illərdə "Vətən müharibəsi" ordeni və 8 müxtəlif medalla təltif olunmuşdur. Neft Sənayesində əmək fəaliyyətinə görə keçmiş SSRİ-nin "Neft Sənayesi əlaçısı" adına layiq görülmüşdür.



## İSTEHSALIN TEXNOLOGİYASI

Calal Müseyib oğlu Mahmudov 1933-cü ildə Goranboy rayonunun Qızıl Hacılı kəndində anadan olmuşdur.

O, 1955-ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu (indiki Azərbaycan Dövlət Neft Akademiyası) fərqlənmə diplomu ilə bitirdikdən sonra uzun müddət istehsalatda müxtəlif vəzifələrdə çalışmışdır. Daha sonra Azərbaycan Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutunda laboratoriya müdiri, 1968-ci ildən isə D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) işləmiş, "İstehsalın texnologiyası" kafedrasını yaratmış və 20 ildən çoxdur ki, bu kafedraya rəhbərlik edir.

Calal Müseyib oğlu Mahmudov çox cavan - 33 yaşında texniki elmlər doktoru, professor olmuşdur. O, böyük nəzəri və praktiki əhəmiyyəti olan və həcmi 200 çap vərəqindən artıq elmi əsərlərin müəllifidir, o cümlədən, onun 20-dən çox kitabı, dərs vəsaiti, iri həcmi 5 monoqrafiyası çap edilmişdir. O, 12 nəfər aspirant hazırlamışdır.

1967-1972-ci illərdə SSRİ Elm və Texnika Komitəsi yanında yer qabığının dərin quyular vasitəsilə öyrənilməsi üzrə Elmi Şuranın üzvü olub.

1972-1974-cü illərdə Ufa Neft İnstitutunda, Tümen Sənaye



İnstitutunda və P. Lumumba adına Moskva Xalqlar Dostluğu Universitetində ixtisas kurslarından mühazirələr oxuyub.

1970-1978-ci illərdə C.M.Mahmudov SSRİ Ali Attestasiya Komissiyasının 05.15.10 ixtisası üzrə namizədlik və doktorluq dissertasiyalarının məxfi rəyçisi kimi fəaliyyət göstərib.

2003-cü ildən o, Azərbaycan Neft Akademiyasında namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi üzrə Elmi Şuranın üzvüdür.

Professor Calal Müseyib oğlu Mahmudov apardığı elmi işlərin nəticəsinə görə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin gümüş medalına layiq görülmüşdür. "Fədakar əməyə görə", "Əmək veteranı", "SSRİ ali təhsil sistemində əla müvəffəqiyyətlərinə görə" medalları ilə və bir çox fəxri fərmanlarla təltif olunmuşdur.



## С ЧЕСТЬЮ ПО ЖИЗНИ

Годы летят незаметно быстро. В постоянных хлопотах и за любимой работой не ощущаешь своего возраста. И лишь юбилейные вехи в жизни напоминают о том, что мы становимся старше, что за плечами остается прожитое. Не у каждого оно значительно, не многие могут что-либо добавить к коротенькой автобиографии. А вот Шакиру Джавад оглу Мамедьярову директору лаборатории "Далга" отдела научно-исследовательских и экспериментальных работ ГосНИПИ "Гипроморнефтегаз", есть чем по праву гордиться.

После успешного окончания в 1956 году Азербайджанского Промышленного Института по специальности "автоматика - телемеханика" Ш.Мамедьяров был направлен в один из научно-исследовательских институтов Министерства обороны СССР, который находился в Москве. Здесь он и начал трудовую деятельность как инженер. Через некоторое время Шакир Мамедьяров назначается ведущим инженером отдела "Испытание космических аппаратов" опытно-конструкторского бюро, руководимого академиком С.П. Королевым (отдел № 12 СКБ № 1 Госкомитета по оборонной технике Совета Министров СССР).

В 1959 году, приняв приглашение руководства вновь



созданного института "Нефтехимавтоматика" с целью развития приборостроения и автоматики в Азербайджане, Ш. Мамедьяров вернулся на родину и занял должность старшего инженера. В этот период он был награжден Большой серебряной медалью и ценным подарком ВДНХ за осуществление научно-исследовательских и конструкторских работ по автоматизации нефтеперерабатывающей промышленности Азербайджана.

Высоко оценив совместные исследования, ведущиеся ГосНИПИ "Гипроморнефтегаз" и институтом "Нефтехимавтоматика", руководство ГосНИПИ "Гипроморнефтегаз" в 1964 году предложил Шакир муаллиму работать в лаборатории "Далга". Со дня приема в институт он занимал такие должности, как старший инженер, начальник группы, главный механик.

За время работы в лаборатории "Далга" Шакир Мамедьяров создал несколько модификаций приборов, измеряющих параметры волн в акватории Каспийского моря, и осуществил их прикладное применение на стационарной измерительно-наблюдательной станции института, находящейся на "Нефт Дашлары".

В 1978-1996 годах Ш. Мамедьяров работал заместителем, а затем и управделами в Управлении гидрометеорологической службы Азербайджана. Вернувшись в 1996 году вновь в "Гипроморнефтегаз", он сначала был старшим научным сотрудником, а затем продолжил свою научную деятельность как директор лаборатории.

Являясь высококвалифицированным специалистом по современным приборам и оборудованию, используемым с целью определения гидрометеорологических параметров гидротехнических сооружений, эксплуатируемых нефтяниками Азербайджана в акватории Каспийского моря, Ш.Мамедьяров и коллектив руководимой им лаборатории приняли активное участие в создании отраслевых строительных нормативов по проектированию, строительству и эксплуатации гидротехнических сооружений в открытом море. Благодаря исключительным организаторским способнос-

тям и творческому труду Шакира Мамедьярова на месторождении "Гюнешли" (ГМСП № 11) создана и успешно функционирует измерительно-наблюдательная станция по определению гидрометеорологических параметров. Благодаря исследовательским работам, ведущимся на станции, проектирование, строительство и эксплуатация гидротехнического нефтепромыслового оборудования поставлены на твердую научно-техническую основу. Начиная с 2003 года отдел научно-исследовательских и экспериментальных работ при помощи сейсмических приборов ведет в естественных условиях изучение влияния вибрации и колебаний, образуемых на глубоководных морских платформах, вследствие воздействия на них гидрометеорологических параметров ветра, волн, течений и других режимов. Именно Ш. Мамедьяров является одним из руководителей этих работ, имеющих большое значение и с точки зрения безопасности и экологии. Где бы ни работал Шакир Джавад оглу Мамедьяров, какую должность ни занимал бы, он всегда отличался высокой работоспособностью, творческим отношением к порученному делу, выполняя его своевременно и с честью. Он автор десятка научных статей, опубликованных в авторитетных научных изданиях, нескольких открытий и рацпредложений. Не раз Ш. Мамедьяров выступал с докладами на научных конференциях, посвященных применению современных измерительных приборов и проблемам гидрометеорологии.



## TƏDQİQAT MƏRKƏZİNDƏ



Hüseynzadə Rəfiqə Əbdülağa qızı 1952-ci ildə Bakı şəhərində anadan olmuşdur.

1969-ci ildə Bakı şəhəri 132 №-li orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Neft Akademiyasının Geologiya fakültəsinə qəbul olunmuşdur.

R.Ə.Hüseynzadə 1974-cü ildə Azərbaycan Dövlət Neft Akademiyasını bitirdikdən sonra "Neft yataqlarının axtarışı və kəşfiyyatı" ixtisası üzrə aspiranturaya daxil olmuş və 1981-ci ildə "Aşağı Küryanı neft-qaz yataqlarının geoloji-geokimyəvi xüsusiyyətləri" mövzusu üzrə dissertasiyanı müvəffəqiyyətlə müdafiə edərək, geologiya-mineralogiya elmləri namizədi adını almışdır.

1986-cı ildə Bakı Dövlət Universitetinin "İzotop" ETL-da elmi, böyük elmi işçi və laboratoriya rəhbəri vəzifələrində çalışmışdır.

1989-ci ildə "Faydalı qazıntılar" kafedrasının nəzdində "Aerokosmik tədqiqatlar" laboratoriyasında böyük elmi işçi və kafedrada dosent əvəzi vəzifəsində işləmişdir.

Hüseynzadə Rəfiqə Əbdülağa qızı özünün ictimai və elmi-pedaqoji fəaliyyəti ilə Universitet kollektivinin hörmətini qazanıb.

Rəfiqə Hüseynzadə HARS (Hyuston Təkmil ləşdirmə Elmi Mərkəzi), Geokimyəvi laboratoriyanın idarəedilməsi (ABŞ), idarəetmə sistemi (FUGRO Hollandiya), Neft Sənayesinin idarəedilməsi və administrasiyası üzrə proqram (PETRAD), Labora-

toriya qurğularının tətbiqi və öyrənilməsi (VNP Gaz, Hewlett Paskard, Rusiya), Neft-qaz tədqiqatları mərkəzi (Norveç, Tronxeym) və s. kimi qabaqcıl elmi-tədqiqat mərkəzlərində təlim keçmişdir. 2004-cü ildə Böyük Britaniyanın ən yüksək səviyyəli PVM (Professional Value Management) təlimini keçərək, onun sertifikatını almışdır.

Rəfiqə Hüseynzadə Avropa və Amerika Neftçi-geoloqlar Cəmiyyətinin həqiqi üzvüdür.

Rəfiqə Hüseynzadə 1996-ci ildən bu günədək Azneft İB və Şlumberje şirkətinin birgə təsis etdikləri "Azlab" Qapalı Tipli Səhmdar Cəmiyyətində Baş Menecer vəzifəsini icra edir.

"Aslab" öz vəsaiti hesabına yeni beynəlxalq standartlara üyğun səviyyədə kern saxlanma mərkəzinin tikilməsi üçün qərarına gəlmişdir. Bu işi həyata keçirmək üçün "Azlab" dünyada ən məşhur olan Kanadanın Datakon şirkəti layihəsi əsasında bu kompleksin tikintisinə başlamış və tez bir müddətdə onu uğurla başa çatdırmışdır. Bu kompleksdə saxlanılan kernləri tədqiq etməklə, axtarış və kəşfiyyat quyularının qazılması səhaəsində Azərbaycana milyonlarla dollar qənaət edilir.

"Azlab"-da müasir qabaqcıl texnologiya və avadanlığı olan yeni PVT laboratoriyası qurulmuşdur. Civəsiz yeni avadanlığın qurulması nəticəsində “Azlab” həm texniki, həm də ekoloji cəhətdən texnologiyanın aparıcı sıralarında olmaqda davam edir.

Hazırda dünyada üç belə tipli laboratoriya fəaliyyət göstərir. Hyuston və Birləşmiş Ərəb Əmirliklərindən (Dubay) sonra belə bir laboratoriya Azərbaycanda "Azlab"-ın tərkibində yaradılmışdır. Bu laboratoriyanın nəticələri neft ehtiyatının hesablanması və işlənmə layihəsinin əsasını təşkil edir.

"Azlab" YTSC fəaliyyət göstərdiyi 8 il müddətində ABƏŞ, ARDNŞ, EXXON/MOBİL, STATOİL, PARTEX (Qazaxıstan), Draqon Oil (Türkmənistan), Frontera Resurses (Gürcüstan), Lukoil Overseas, Uzbek (Özbəkistan) və s. kimi dünyanın ən iri şirkətlərinin sifarişini yerinə yetirmiş və hazırda həmin şirkətlərin bir çoxu ilə işini davam etdirir.

Bu gün artıq "Azlab" inkişaf etmiş, Respublikada və bütün Xəzər regionunda nüfuzlu elmi-tədqiqat mərkəzinə çevrilmişdir.



## BENTONİT TƏZAHÜRLƏRİ AŞKAR OLUNMUŞDUR



Zöhrabova Vəcihə Ramazan qızı 1938-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1960-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) "Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" ixtisası üzrə geoloji-kəşfiyyat fakültəsini bitirdikdən sonra təyinatla AMEA Geologiya İnstitutuna göndərilmişdir. O, burada "Litologiya" laboratoriyasında baş laborant, böyük elmi işçi vəzifələrində çalışmışdır. V. Zöhrabova hal-hazırda institutda aparıcı elmi işçi vəzifəsində işləyir. Onun elmi fəaliyyəti qeyri-filiz faydalı qazıntıların litologiyası və mineralogiyasının öyrənilməsi ilə bağlıdır.

Vəcihə xanım çökmə və vulkanogen-çökmə süxurlarının maddi tərkibləri, struktur-tekstur xüsusiyyətlərinin öyrənilməsi, onların mineral tərkiblərinin ən dəqiq üsullarla təyin edilməsi və s. işlərlə məşğuldur.

1989-cu ildə "Qobustan-Şamaxı sahəsində eosen yaşlı bentonit təzahürlərinin maddi tərkibi və əmələ gəlməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1960-cı ildə V. Zöhrabovanın iştirakı ilə Qobustan sahəsinin eosen çöküntülərində bir sıra qələvi bentonit təzahürlər aşkar olunmuşdur. Vəcihə xanımın 30 elmi hesabatı, 55 elmi məqaləsi, müəlliflər heyətinin tərkibində iki monoqpafiyası ("Azərbaycanın geologiyası" II cild - 1998-ci il "Litologiya" və VI cild - 2003-cü il "Faydalı qazıntılar") nəşr olunmuşdur.

Vəcihə Zöhrabova elmi məruzələrlə bir sıra simpoziumlarda çıxış etmişdir. (İran İslam Respublikası, Türkiyə).



## ELMİ MƏQALƏLƏRDƏ ƏKS ETDİRMİŞDİR

Əfəndiyeva Elza Neman qızı Azərbaycan Neft Akademiyasını bitirdikdən sonra təyinatla AMEA-na göndərilmiş və hazırda onun bütün əmək və elmi fəaliyyəti respublikanın ən qabaqcıl elm ocaqlarından biri olan Geologiya İnstitutu ilə bağlıdır. O, burada laborant, kiçik elmi işçi, böyük elmi işçi, aparıcı elmi işçi kimi geologiyanın əsas elmi istiqamətlərindən biri olan "Litologiya" ilə məşğul olmuşdur.

E. Əfəndiyeva "Kiçik Qafqazın cənub-qərb hissəsinin (Dağlıq Qarabağın şimal-şərqi) üst yura çöküntülərinin litologiyası" mövzusunda dissertasiya müdafiə etmişdir.

Onun elmi işləri Azərbaycanın müxtəlif regionlarının faydalı qazıntılara perspektivliyi baxımından diqqətə layiqdir. O, Kiçik və Böyük Qafqazın filiz saxlayan süxurlarını ətraflı öyrənərək bir sıra elmi nəticələr almış və bu nəticələr respublikanın və dünyanın müxtəlif nəşriyyatlarında dərc olunan 60-dan çox elmi məqalələrində öz əksini tapmışdır.

Elza xanım istedadlı qadındır. M. Qorkinin belə bir ifadəsi var: "İstedad işə məhəbbət hissindən inkişaf edir və hətta ola bilər ki, mahiyyətcə istedad işə məhəbbətdir". Elə Elza xanımın istedadı da işə məhəbbətindən yaranmışdır.



## İSTEHSALAT TƏCRÜBƏSİ MƏKTƏBİ KEÇMİŞDİR



Əliyev Vilen Əli oğlu 1947-ci ildə İsmayıllı rayonunun Mican kəndində müəllim ailəsində anadan olmuşdur. 1963-cü ildə İsmayıllı şəhər orta məktəbini başa vurmuş, həmin il Azərbaycan Dövlət Universitetinin geoloji kəşfiyyat şöbəsinə daxil olmuş və 1968-ci ildə bu təhsil ocağını bitirmişdir.

1968-ci ildə Neft Daşlarında Sov. İKP-nın XXII qurultayı adına Neft Mədənlər idarəsində, 3 saylı mədəndə tədqiqat işləri üzrə operator kimi işə qəbul edilmiş və həmin ildə mədənin geoloqu vəzifəsinə təyin edilmişdir.

O, müxtəlif sahələrdə - 4 saylı mədəndə geoloq, 5 və 6 saylı mədənlərdə böyük geoloq, "Neft Daşları" NQÇİ-nin Neft və Qaz Yataqlarının İşlənməsi şöbəsinin rəisi olmuşdur. 1997-ci ilin aprel ayından "Neft Daşları" NQÇİ-də Baş geoloq vəzifəsində işləyir.

V. Əliyev Neft Daşları və Palçıq Pilpiləsi yataqlarının ehtiyatının yenidən hesablanmasında və işlənmə layihələrinin hesablanmasında yaxından iştirak etmiş, "Azərbaycan neft təsərrüfatı" jurnalında işlənməyə dair məqalələri dərc olunmuşdur.

O, uzun illər boyu görkəmli geoloq mərhum Ə.Ə. Məmmədovla birgə işləyərək onun istehsalat təcrübəsi məktəbini keçmişdir.

Vilen Əliyev Amerika Neftçi - Geoloqlar Assosiasiyasının filialı olan Azərbaycan Neftçi - Geoloqlar Cəmiyyətinin Neft Daşları böl-



məsinin rəhbəri seçilmiş və cəmiyyətin işində yaxından iştirak edir.

## HASİLATIN ARTIRILMASI ÜÇÜN

Quliyev Firudin Bəhmən oğlu 1946-cı ildə Lerik rayonunda qulluqçu ailəsində anadan olmuşdur. 1953-1964-cü illərdə Biləsuvar rayonunun Nizami adına orta məktəbində təhsil almış, elə orta məktəbi bitirən il M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) Geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur. 1969-c ildə institutu müvəffəqiyyətlə bitirdikdən sonra "Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" ixtisası üzrə dağ mühəndis-geoloqu diplomu almış, sonra təyinatla "Dənizneft" İB-nin Dənizdə Geoloji-kəşfiyyat İdarəsinə işə göndərilmişdir.

F. Quliyev həmin idarədə 1979-cu ilə qədər işləmiş və işlədiyi müddət ərzində kəşfiyyat dəstəsində texnik-geoloq, idarənin geoloji şöbəsində mühəndis-geoloq, tematik partiyada böyük geoloq - rəis müavini vəzifələrində çalışmışdır. Bu dövrdə o, Xəzər dənizinin Azərbaycan, Türkmənistan, Qazaxıstan və Dağıstan sektorlarında aparılan struktur-xəritəalma, struktur-axtarış və kəşfiyyat qazması işlərinin nəticələrinin təhlili və işlənməsində, ayrı-ayrı sahələr üzrə hesabatların tərtib olunmasında, gələcək kəşfiyyat işlərinin istiqamətləndirilməsində, Azərbaycan sektorunun Abşeron və Bakı arxipelaqlarının ərazisində yerləşən perspektivli strukturların geoloji xəritələrinin tərtib edilməsində və eləcə də digər kəşfiyyat sahələri üzrə mükəmməl struktur xəritələrin və geoloji kəsilişlərin tərtib olun-



masında yaxından iştirak etmişdir.

1979-cu ildə "Dənizneftqaz" İB-nin rəhbərliyi F. Quliyevi "Xəzərdənizneftqazgeofizkəşfiyyat" trestinin geoloji şöbəsinin rəisi vəzifəsinə təyin etmişdir. O, bu vəzifədə işləyərkən Xəzər dənizinin bütün sektorlarında aparılan seysmik, qravimetrik, maqnitometrik və digər kəşfiyyat işlərinin layihələndirilməsində, aparılan işlərin nəticələrinin təhlili və işlənməsində, ayrı-ayrı istinad horizontları üzrə struktur xəritələrin və geoloji kəsilişlərin qurulmasında, hesabatların tərtib olunmasında fəal iştirak etmişdir. Dünya şöhrətli Günəşli, Çıraq, Azəri, Kəpəz, Şahdəniz və eləcə də Xəzər dənizinin bütün sektorlarında yerləşən digər perspektivli strukturların ilk mükəmməl struktur xəritələrinin qurulması həmin dövrdə aparılan seysmik kəşfiyyat işlərinin nəticəsində mümkün olmuşdur.

1985-1987-ci illər ərzində F. Quliyev Qvineya-Bissau Respublikasında elmi-texniki yardım göstərmək məqsədilə xidməti ezamiyyətdə olmuşdur. Yerli əhalinin suya olan tələbatını ödəmək məqsədilə onun rəhbərlik etdiyi briqada tərəfindən 30-dan artıq su quyusu qazılıb istismara verilmişdir.

F.Quliyev 1987-1989-cu illər ərzində "Xəzərdənizneftqazgeofizkəşfiyyat" trestində, 1989-1993-cü illər ərzində "Kompleks Dəniz Geoloji - Kəşfiyyat İdarəsi"ndə aparıcı geoloq vəzifəsində çalışmışdır. Bu dövr ərzində o, idarənin apardığı struktur-xəritəalma, mühəndis-geoloji və axtarış qazma işlərinin layihələndirilməsində, onların yerinə yetirilməsində və nəticələri əsasında hesabatların, qrafik materialların tərtib olunmasında yaxından iştirak etmişdir.

1993-cü ildə Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin rəhbərliyi F. Quliyevi "Neft Daşları" DQİİ-nin Baş geoloqu vəzifəsinə təyin etmişdir. İşlədiyi on ildən artıq bir müddət ərzində həmin vəzifədə çalışan Firudin Quliyev bütün bilik və bacarığından istifadə edərək Neft Daşları və Palçıq pilpiləsi sahələrində aparılan istismar qazma işləri nəticəsində həmin yataqların geoloji quruluşunun dəqiqləşdirilməsinə və Respublikada neft hasilatının artırılmasına çalışır.

F. Quliyev Amerika Neftçi-Geoloqlar Assosiasiyasının filialı - Azərbaycan Neftçi-Geoloqlar Cəmiyyətinin üzvüdür. ARDNŞ-nin Fəxri fərmanı ilə təltif edilmişdir.



## ŞÖBƏ RƏİSİ

Cəfərov Rəşid Həzrətqulu oğlu 1946-cı ildə Cəbrayıl rayonunun Qaracallı kəndində anadan olmuşdur.

1965-ci ildə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun geoloji kəşfiyyat fakültəsinə daxil olmuşdur. 1970-ci ildə institutu bitirmiş, təyinatla Dağıstan Neft və Qazçıxarma İdarəsində usta kimi əmək fəaliyyətinə başlamışdır.

Sonra hərbi xidmətə çağırılmış, xidməti başa vurduqdan sonra 1973-cü ildə Füzuli rayonunda yerləşən Səyyar Mexanikləşdirilmiş Dəstədə mexanik-geodezist kimi əmək fəaliyyətini davam etdirmişdir. Neft və Qazçıxarma İdarəsindəki 4 saylı sexdə rəis müavini işləmişdir.

R.Cəfərov 1984-cü ildən Azərbaycan Dövlət Dağ - mədən İşlərinin Təhlükəsizliyinə Nəzarət Komitəsində sahə müfəttişi vəzifəsində çalışmışdır.

Rəşid Cəfərov 1992-ci ilin yanvarından köçürmə yolu ilə Səngəçal Dəniz Qazma İşləri İdarəsində baş mühəndisin əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə müavini təyin olunmuşdur. 1993-cü ildən isə həmin idarədə Əməyin Mühafizəsi və Texniki Təhlükəsizlik məsələləri üzrə şöbə rəisidir.

Rəşid Cəfərov daşıdığı vəzifəyə dair zəngin təcrübə toplamışdır. O, bu təcrübəni gənc neftçilərə öyrətməkdən qürur hissi keçirir.



## SINAQLARDAN KEÇMİŞ HƏYAT YOLU



Yetmiş ilə yaxın ömrünün, istehsalatda çalışdığı 50 ilinin 30 ilini geoloji-coğrafi bölgüyə görə Abşeron yarımadasının şərq hissəsində Buzovna - Maştağa - Qala - Zirə antiklinal qurşaqda yerləşən eyni adlı neft-qaz-kondensat yataqlarında çalışmış Tofiq İbiş oğlu Aslanov ötən əsrin ortalarından sonra formalaşmış neftçi geoloqları ailəsinə daxildir.

Hər bir sənətin, ixtisasın zirvəsi olduğu kimi, neft-mədən geoloqu ixtisasının zirvəsi Neft Qazçıxarma İdarəsinin Baş geoloqu vəzifəsidir. Belə bir zirvəyə yalnız ömrünün gecə və gündüzünü neft mədənlərində keçirən, elmi axtarışlarda olan, dərin düşüncələrlə yerin təkinə nüfuz etməyə çalışanlar yüksəlir. Antik dövrün müdrik filosoflarından olan Aristotel demişdir ki, insanlar gələcəyi düşünəndə gözlərini yerə dikirlər, neftçi geoloqlar da belə insanlardandır.

Qeyd edilənləri elə T. Aslanova da şamil etmək olar. O, 1935-ci ildə Muradxanlı və Cəfərli yataqlarının yerləşdiyi İmişli rayonunun Telişli kəndində anadan olmuşdur. 1952-ci ildə İmişlidə orta məktəbi bitirdikdən sonra həmişə prestijli sayılan Azərbaycan Neft Sənayesi İnstitutunun (indiki Neft Akademiyası) neft-qaz yataqlarının axtarışı və kəşfiyyatı fakültəsinə daxil olmuşdur. 1957-ci ildə institutu bitirdikdən sonra "Əzizbəyovneft" NMİ-nin (indiki H.Z. Tağıyev adına NQÇİ) istismar etdiyi Qala yatağında neft-qazçıxarma operatoru vəzifəsində istehsa-

lat fəaliyyətinə başlamışdır. Qısa bir müddətdə usta, mühəndis, geoloq, mədənin böyük geoloqu, NQÇİ-nin geoloji şöbəsinin rəisi vəzifələrinə qədər yüksəlmişdir.

1974-cü ildə Buzovna-Maştağa, Qala və Zirə yataqlarını istismar edən "Əzizbəyovneft" NQÇİ-nin Baş geoloqu vəzifəsinə təyin edilmiş, elə bu dövrdən də o, şərqi Abşeron neftli-qazlı rayonun geologiyası, yataqların işlənməsi texnologiyası, ən başlıcası isə perspektivi ilə ciddi məşğul olmağa başlamışdır. Respublikamızın neft-qaz yataqlarının geologiyası və işlənməsi ilə məşğul olan elmi-tədqiqat institutlarının alimləri ilə sıx əlaqə yaratmışdır. Onun çoxlu sayda elmi məqalələri "Azərbaycan Neft Təsərrüfatı" və "Neft və qaz" elmi jurnallarında nəşr olunmuşdur. Buzovna -Maştağa və Qala yataqlarının neft-qaz ehtiyatlarının hesablanması, Buzovna - Maştağa və Zirə yataqlarının işlənmə layihəsinin tərtibi kimi elmi-tədqiqat işlərinin rəhbərlərindən biri olmuşdur.

Tofiq müəllim qəzet səhifələrində respublikamızın neft sənayesinə həsr edilmiş bir sıra elmi-populyar məqalələr yazmışdır. Xüsusilə, "Vışka" qəzetində nəşr olunmuş "Minillikdən-minilliyə, əsrdən-əsrə", neft-qaz quyularının qazılmasının zəruriliyinə, qaz sənayesinin inkişafına dair, Qala yatağının 70 illiyinə həsr edilmiş "O, sanki miraj idi" məqalələrin müəlliflərindən biri olmuşdur. Onun "Oğurlanmış xalça və ya vahiməli gecə" novellası da oxucular tərəfindən maraqla qarşılanmışdır.

Tofiq Aslanov hazırda "Azneft" İstehsalat Birliyinin Neft və qaz yataqlarının işlənməsi şöbəsində geoloq kimi öz fəaliyyətini davam etdirir.



## BÖYÜK ƏMƏK SƏRF ETMİŞDİR



Əsədullayev Əsədulla Mikayıl oğlu 1933-cü il sentyabr ayının 6-da Dağıstan MSSR-nın Mahaçqala şəhərində anadan olmuşdur. 1953-cü ildə Xasavyurtdakı 1 saylı orta məktəbi qurtardıqdan sonra Qroznı Neft İnstitutuna daxil olmuş, 1958-ci ildə həmin institutu bitirərək "Neft və qaz yataqlarının işlənməsi üzrə mədən mühəndisi" ixtisasına yiyələnmişdir.

O, əmək fəaliyyətinə ali təhsil aldığı illərdə, 1956-cı ildə Azərbaycanda, 2 saylı Zabrat qazma kontorunda qazmaçı köməkçisi peşəsində başlamışdır.

İnstitutu qurtardıqdan sonra isə o, əmək fəaliyyətini "Tatqazmaneft" trestinin 2 saylı qazma kontorunda davam etdirmişdir. Orada qazmaçı köməkçisi, qazmaçı, quyuların mənimsənilməsi sexinin ustası, qazma ustası işləmişdir. 1963-cü ildə SSRİ qazma briqadaları arasında keçirilən yarışda onun rəhbərlik etdiyi briqada kəşfiyyat qazma briqadası kimi 1-ci yerə layiq görülmüşdür. 1963-cü ilin oktyabr ayında həmin kontorun partiya komitəsinin katibi seçilmişdir. 1965-ci ilin dekabr ayında "Tatneftkəşfiyyat" trestinin vışkaquraşdırma sexinin rəisi vəzifəsinə təyin edilmişdir. 1970-ci ilin mart ayından yenidən partiya komitəsinin katibi seçilmişdir. 1971-ci ilin avqust ayından "Tatneft" birliyinin "Layların neftveriminin artırılması və quyuların

əsaslı təmiri" idarəsində birinci XB-nin rəisi, MMTX-nin rəisi vəzifələrində çalışmışdır.

Əsədulla Əsədullayev 1972-ci ilin may ayından 1975-ci ilin may ayına qədər Əlcəzairdə xidməti ezamiyyətdə olmuşdur (baş mühəndis, kontraktın rəhbəri, Sovet mütəxəssisləri qrupunun rəhbəri işləmişdir). Xarici ezamiyyətdən qayıtdıqdan sonra o, "Tatneft" Birliyinin "Sininoqors" və "Aznakayevsk", "LNA və QƏT" idarələrində istehsalat texniki şöbəsinin rəis müavini, MMTX-nin rəisi, baş mühəndis vəzifələrində çalışmışdır.

Ə.Əsədullayev 1981-ci ildən doğma respublikaya qayıdaraq "Azneft" İB-də baş mühəndisin əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə müavini, şöbə rəisi vəzifələrində işləmişdir. O, hal-hazırda əməyin mühafizəsi və təhlükəsizlik texnikası şöbəsinin rəis müavini vəzifsində çalışır.

Ə.Əsədullayev işlədiyi müddətdə idarə və müəssisələrdə əməyin mühafizəsi və təhlükəsizlik texnikası xidmətlərinin işinin təşkilində, təhlükəsiz əmək şəraitinin yaradılması üzrə məqsədyönlü işlərin aparılması sahəsində və s. tədbirlərin həyata keçirilməsində böyük əmək sərf etmişdir. O, Dağıstan MR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına, "Qırmızı Əmək Bayrağı Ordeni"nə, "Əmək veteranı" medalına, "Neft sənayesinin əlaçısı" döş nişanına və başqa mükafatlara layiq görülmüşdür.



## SOSİAL XİDMƏT



Quliyev Habil Səyyaf oğlu 1962-ci il aprel ayının 2-də İmişli rayonunda anadan olmuşdur. Orta təhsilini 1979-cu ildə Kürdəmir rayonunda bitirdikdən sonra 1980-1982-ci illərdə Rusiyanın Arxangelsk vilayətində hərbi xidmətdə olmuşdur. H.Quliyev hərbi xidmətini başa vurduqdan sonra 1982-ci ildə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) neft və mexanika fakültəsinin axşam şöbəsinə daxil olmuş və həmin institutu 1987-ci ildə tam kurs üzrə bitirərək "neft və mədənlərin maşın və avadanlıqları" (mühəndis-mexanik) ixtisasına yiyələnmişdir.

Habil Quliyev əmək fəaliyyətinə hələ ali məktəbə daxil olmamışdan - 1979-cu ildən 2-ci dərəcəli fəhlə kimi başlamışdır. O, neft sənayesinə 1983-cü ildə gələcək, Abşeron Qazma İşləri İdarəsinin vışka quraşdırıcı sexində quraşdırıcı kimi işə başlamışdır. H.Quliyev 1985-ci ildən isə Sosial Xidmətlər İdarəsində çalışmışdır. Öncə idarədə fəhlə, usta, texnik çalışan Habil Quliyev 1 saylı Mənzil-İstismar Sahəsinin rəisi, mənzil-Kommunal Kontorunun rəisi kimi yüksək vəzifələrə irəli çəkilmişdir. 2003-cü ildə "AzNeft" İB-nin "Azərdənizneftinşaat" trestinin Mənzil-Kommunal Kontoru və "Xəzərdənizneftqaztikinti" trestinin 2 saylı ixtisaslaşdırılmış tikinti-quraşdırma filialının Mənzil-İstismar Sahəsi ləğv edilərək



struktur bölməsi kimi "AzNeft" İB-nin tərkibinə verildi və həmin il bu müəssisələrin bazasında Sosial Xidmətlər İdarəsi yaradıldı. Bu idarəyə rəhbərlik Habil Quliyevə həvalə olundu.

"Azneft" İB-də aparılan struktur dəyişikliyi və H.Quliyevin idarəyə rəhbərliyi altında görülən tədbirlər tezliklə öz faydasını verdi. Bakının ən müxtəlif hissələrində yerləşən və illərlə yetərli kommunal xidmət üzünə həsrət qalmış neftçi evləri yeni həyatını yaşamağa başladı, yardımçı xidmət sistemlərində illərlə yığılıb qalmış problemlər aradan qaldırıldı.

Bakının 8 rayonunda yerləşən 183 binaya, o cümlədən 175 yaşayış binasına, 7 yataqxanaya və ARDNŞ-nin inzibati binasına xidmət göstərən Sosial Xidmətlər İdarəsi Azərbaycan neftçilərinin yaşadığı binaların kommunal sistemlərinin tam erpmal vəziyyətə gətirilməsi, həyətlərin abadlaşdırılması sahəsində səmərəli tədbirlər həyata keçirir. İdarənin xidmət göstərdiyi bəzi sahələrdə sudan tamamilə korluq çəkən ərazilərdə aparılmış abadlıq və bərpa işləri nəticəsində su kəmərləri çəkilərək əhali su ilə təmin olunmuş, əhalinin istirahəti üçün yaşıllıqlar salınmış, oturacaqlar qoyulmuş, məhəllələrdə oyun meydançaları yaradılmış, ərazilərə asfalt döşənmiş, bir sözlə, geniş tikinti-abadlıq işləri həyata keçirilmişdir.

Heç şübhəsiz ki, bütün görülmüş təqdirəlayiq tədbirlərin həyata keçirilməsi Sosial Xidmətlər İdarəsinin rəisi Habil Quliyevin iş qabiliyyəti, bacarığı sayəsində gerçəkləşmişdir. Onun neft sənayesində gördüyü işlər, neftçilərə göstərdiyi diqqət və qayğı rəhbərliyin nəzərindən yayınmamışdır. Habil quliyev 2002-ci ildə ARDNŞ-nin Fəxri fərmanı ilə təltif olunmuşdur.



## QAYĞILI NEFTÇİ



Babayev Əsəd Hidayət oğlu 1958-ci il fevral ayının 10-da Ordubad rayonunun Dırnıs kəndində anadan olmuşdur.

Ə.Babayev 1973-cü ildə Bakıya gələrək təhsilini burada 5 saylı kimya-biologiya təmayüllü Respublika İnternat məktəbində davam etdirmiş, 1975-ci ildə bu təhsil ocağını müvəffəqiyyətlə bitirmişdir. 1978-ci ilə kimi hərbi xidmətdə olmuş və sonrakı illərdə isə o, respublika rəhbərliyinin gənclərin təhsilinə olan qayğısının bəhrəsini dadmış, Ukrayna SSR-ə ali təhsil almağa göndərilmişdir.

Ə.Babayev 1970-ci ilin sonlarında görkəmli siyasi xadim, mərhum prezidentimiz Heydər Əliyevin ölkəmizdə elm və təhsilin inkişafına göstərdiyi böyük qayğının nəticəsi kimi Azərbaycandan Xarkov şəhərinə məqsədli təhsil almağa göndərilmiş və orada V.V. Dokuçayev adına Kənd Təsərrüfatı İnstitutunda təhsil almışdır. 1984-cü ildə institutu fərqlənmə diplomu ilə bitirib, respublikaya qayıdan Əsəd Babayev bir müddət Respublika Kənd Təsərrüfatı Nazirliyinin müxtəlif təşkilat və idarələrində çalışmış və bu illərdə aspiranturada təhsilini davam etdirmişdir.

1990-cı illərin əvvəllərində "Azərneft" Neft və Qazçıxarma Baş İdarəsinin aparatında "Yardımçı kənd təsərrüfatı və əhaliyə pullu xidmət" şöbəsi yaradıldı və bu sahəyə sosial qayğıları da-

şımağı bacaran səriştəli mütəxəssislər cəlb edildi.

Tanınmış neftçi Qurban Abbasovun (Neftçi Qurban) tövsiyəsi ilə Əsəd Hidayət oğlu Babayev bu şöbədə baş mütəxəssis kimi işə cəlb olundu. Ə. Babayevin bir kənd təsərrüfatı mütəxəssisi kimi işə başlaması və onun neftçilərə olan səmimi münasibəti, onlara qayğı göstərmək bacarığı özünü çox tezliklə göstərdi.

1994-cü ildə "Azərneft" Neft və Qazçıxarma Baş idarəsində struktur dəyişikliyindən sonra Ə. Babayev fəaliyyətini Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyi aparatının sosial-inkişaf şöbəsində davam etdirmişdir.

1999-cu ildə yüksək təşkilatçılıq qabiliyyəti nəzərə alınaraq Ə. Babayev Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyi aparatının Həmkarlar Komitəsinin sədr müavini seçilmişdir. O, həmişə neftçilərin sosial şəraitlərinin yaxşılaşdırılması, onların sərbəst vaxtlarının xoş keçməsi naminə İstehsalat Birliyi səviyyəsində tədbirlər planının hazırlanması və həyata keçirilməsində fəallıq göstərir.

Hazırda Əsəd Babayev "Azneft" İB-nin Sosial-inkişaf şöbəsinin mütəxəssisi, Həmkarlar İttifaqı təşkilatının fəalı kimi başqalarına nümunə göstərir.



## ATALARIN GETDİYİ YOLDUR - GETDİYİMİZ YOL



Salamova (Əsgərova) Səlminaz Əzizulla qızı 1949-cu ildə Bakı şəhərinin 2-ci Zabrat qəsəbəsində ziyalı ailəsində anadan olmuşdur. 1964-cü ildə 2-ci Zabrat qəsəbəsindəki 75 saylı orta məktəbin 8-ci sinfini əla qiymətlərlə bitirmişdir. Həmin il Oktyabr İnqilabı adına Qırmızı Əmək Bayrağı Ordenli Bakı Neft Texnikumuna daxil olmuş və 1969-cu ildə həmin texnikumun avtomatika şöbəsini fərqlənmə diplomu ilə bitirərək , Qırmızı Əmək Bayrağı ordenli M. Əzizbəyov adına Neft və Kimya İnstitutunun neft mədən fakültəsinə daxil olmuşdur.1974-cü ildə həmin institutu "neft və qaz yataqlarının işlənməsinin kompleks mexanikləşdirilməsi və texnologiyası" ixtisası üzrə fərqlənmə diplomu ilə başa vurmuşdur.

S. Salamova (Əsgərova) institutu bitirəndən sonra 1974-cü ildə təyinat üzrə N.Nərimanov adına NQÇİ-yə göndərilmiş və 1974-cü ilin avqust ayından 1980-ci ilin aprel ayına qədər orada Elmi-tədqiqat təcrübi işlər sexinin Neft mədən laboratoriyasında mühəndis, böyük mühəndis və həmin laboratoriyanın rəisi vəzifələrində çalışmışdır.

1980-ci ilin aprel ayında Səlminaz xanımın iş təcrübəsi nəzərə alınaraq "Xəzərdənizneftqazsənaye" Ümumittifaq Sənaye Birliyinin "Qazın hasili və emalı üzrə istehsalat şöbəsi"ndə böyük mühəndis vəzifəsinə irəli çəkilmişdir. Hazırda o, "Azər-

neft" İB-də "qazın yığılması, nəqli, emalı və kompressor təsərrüfatı üzrə istehsalat şöbəsi"ndə fəaliyyətini davam etdirir.

S. Salamova (Əsgərova) bir neçə elmi məqalə və səmərələşdirici təkliflərin müəllifidir.1979 və 1980-ci illərdə keçirilən gənc mütəxəssislərin I və II Ümumittifaq elmi-texniki konfransında iştirak etmişdir. 1979-cu ildə keçirilmiş Konfransda onun elmi nəticələri birinci yeri tutaraq diploma layiq görülmüşdür.

Səlminaz xanımın əməyi qiymətləndirilmiş, o, Fəxri fərmanlarla təltif olunmuş və "Əmək zərbəçisi" adına layiq görülmüşdür.

Hal-hazırda Səlminaz xanım "Azneft" İB-də "Neftin, qazın hasilatı və nəqli şöbəsi"ndə çalışır.



## HƏMİŞƏ QABAQCILLAR SIRASINDA



Azərbaycan neft sənayesinin inkişafında əməyi olan, "neftçilər ordusu"nda iz qoyan əməkdar neftçilərdən biri də Balabəy Bayram oğlu Quliyevdir. Aşağı Kür çökəkliyinin "Durovdağ", "Xıllı", "Neftçala" yataqlarında quyuların qazılmasında, istismarında, ümumilikdə bu yataqların işlənməsində Balabəy müəllimin böyük əməyi vardır.

Mürəkkəb iqlim şəraitilə fərqlənən "Xıllı", "Neftçala" yataqları eyni zamanda geoloji cəhətdən mürəkkəb, sulaşmış laylar, az keçiricili kollektorlarla səciyyələnirlər. Belə yataqlardan nefti çıxarmaq, hasilatı sabitləşdirib, sonra da artım almaq peşəkar mühəndis işinin aparılmasını, müasir neft avadanlıqlarını, neftçıxarmanın mütərəqqi üsullarını tətbiq etməyi tələb edir.

Belə tələbatları ödəyən mütəxəssis həqiqətən yüksək ixtisas sahibi olmalıdır. Balabəy müəllim belə mütəxəssislərdəndir. Ömrünün 70-ci baharını arxada qoyan Balabəy Quliyev əvvəlki kimi fitri yaddaşı, cavanlara məxsus şuxluğu, işgüzarlığı və mühəndis peşəkarlığı ilə fərqlənir. Həyatın ən ağır, ecazkar sənətlərindən biri olan neftçi sənətini Balabəy müəllim elə məktəb yaşlarından seçmişdir. Buna bir növ rəvac verən də elə həyat özü idi. Neftçala rayonunun Xıllı kəndində anadan olan Balabəy hər səhər məktəbə gələndə kəndin kənarında yerləşən quyu mancanaqlarını görürdü və onda neftçi olmaq arzusu ildən-ilə

artırdı.

Elə buna görə də 1950-ci ildə orta məktəbi bitirdikdən sonra tərəddüd etmədən sənədlərini Azərbaycan Sənaye İnstitutunun (Azərbaycan Dövlət Neft Akademiyası) Neft və qaz yataqlarının istismarı fakultəsinə vermiş, imtahanları müvəffəqiyyətlə verərək neftçi sənətinin sirlərini öyrənməyə başlamışdır.

1955-ci ildə Balabəy müəllim institutu bitirdikdən sonra boya-başa çatdığı doğma rayona qayıtmış, məktəb illərində arzuladığı neftçi peşəsinə yiyələnmək üçün "Neftçalaneft" Neft Mədənləri İdarəsində operator kimi işə başlamışdır. Balabəy Quliyev neftçi sənətinin bütün sahələrini öyrənə-öyrənə vəzifə pillələrinə çox tezliklə qalxmışdır. Operator, usta, sahə rəisi, mədənin böyük mühəndisi, mədən müdiri, baş mühəndis, neftqazçıxarma idarəsinin rəisi - budur onun keçdiyi şərəfli neftçi yolu.

1994-cü ildə "Neftçalaneft" Neft və Qazçıxarma İdarəsinin bazası əsasında "ANŞAD Petrol" Müştərək Neft və Qazçıxarma Müəssisəsi yarandıqdan sonra o, müəssisənin baş direktorunun müavini vəzifəsində çalışmağa başlamışdır.

Hal-hazırda Balabəy müəllim MM-nin İş Komitəsinin üzvüdür, Dövlət Neft Şirkəti ilə Türkiyənin "Attila Doğan Petrol" və Malayziyanın "Land and General Berhad" Şirkətləri tərəfindən yaradılmış MM-nin müxtəlif struktur bölmələrinin fəaliyyətinin əlaqələndirilməsində yaxından iştirak edir, özünün bacarığını, biliyini, təcrübəsini cavanlara öyrədir.

Onun böyük təcrübəsi, bacarığı, "mühəndis xətti" bir çox mürəkkəb işlərdə, müəssisənin öz güvvəsilə neft və qaz quyularının qazılmasında, mənimsənilməsində bəhrəsini vermiş, cari məsələlərin həllində köməyə yetmişdir.

Neft sənayesinin problemləri ilə çox yaxından tanış olan Balabəy Bayram oğlu Quliyev bir çox səmərəli və effektli təkliflərin, ixtiraların müəllifidir. Onun istehsalata tətbiq etdiyi bu təkliflər müəssisəyə milyonlarla manat xeyir vermişdir.

B. Quliyev həmişə öz üzərində çalışan və bildiyini başqalarına öyrədən bir şəxsdir. Onun rəhbərlikdən başlamış, sıravi kollektiv üzvlərinin hər birinin yanında hörməti, nüfuzu vardır. Balabəy müəllimi mədənlərin "isti nöqtəsində", qazılan quyuların yanında, mənimsəmədə olan quyuların başında görmək olar.



Fədakar neftçi olan Balabəy Quliyev eyni zamanda Neftçala rayonunun tanınmış, nüfuzlu şəxslərindən biridir. O, ömrü boyu rayonun ictimai-sosial məsələlərinin həllində yaxından iştirak etmişdir.

Sirr deyil ki, hər yerdə olduğu kimi, neft müəssisələri yerləşdikləri ərazilərdə də tikinti-abadlıq aparılmasında həmişə ön mövqedə olurlar. Neftçala rayonunda da belədir. "ANŞAD Petrol" MM rayonun ən böyük sənaye müəssisəsi olduğu üçün bir çox tədbirlərdə onun nümayəndələri yaxından iştirak edirlər. Bu işdə Balabəy müəllim həmişə öndə olur.

B. Quliyevin səmərəli əməyi dəfələrlə yüksək qiymətləndirilmiş, o, əmək veteranı medalı ilə, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin, Neftçala rayonunun yerli hakimiyyət orqanlarının bir çox Fəxri fərmanları ilə təltif edilmişdir. Balabəy müəllim başqalarına nümunə ola bilən ailə başçısıdır. Onun 4 övladı ali savadlı mütəxəssisdirlər. Onlardan üçü ailə quraraq, ona "baba" rütbəsini də bəxş ediblər. Bir övladı atasının yolunu davam etdirir - o da neftçidir.



## TƏCRÜBƏLİ MÜTƏXƏSSİS

Hacıyeva Dilarə Cabbar qızı 1937-ci ildə Naxçıvan şəhərində dünyaya gəlmişdir. 1956-cı ildə C. Məmmədquluzadə adına Naxçıvan şəhər 2 saylı orta məktəbi, daha sonra Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyasını) geoloji kəşfiyyat fakültəsinin neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı şöbəsini bitirmişdir.

1960-cı ilin sentyabr ayında Əli Bayramlı şəhərində "Şirvanneft" NMİ-də laborant vəzifəsinə işə qəbul olunmuş, həmin idarənin geoloji şöbəsində texnik, geoloq, ETİİS-də böyük geoloq vəzifələrində işləmişdir.

1982-ci ilin noyabr ayından "Qaradağneft" NQÇİ-ə (indiki Ə.C. Əmirov adına NQÇİ) köçürülmə yolu ilə işə gəlmiş və NQÇİ-nin ETİİS-nin neft və qaz yataqlarının işlənməsi şöbəsində işləyir. Süni təsir altında olan yataqların işlənməsi, tədqiqi, qalıq neft ehtiyatlarının hesablanması ilə məşğul olur.

Dilarə Hacıyeva neft yataqlarının göstəricilərinin toplanması və təhlilində yüksək təcrübəyə malik mütəxəssisdir.

Dilarə xanım ailəsini, övladlarını çox sevir. Böyük qızı Hacıyeva Gövhər Hümmət qızı həkimdir, oğlu Ələkbər riyaziyyatçıdır, kiçik qızı Cəlalət isə memardır.



## GƏNCLƏRİN HAMİ TƏRBİYƏÇİSİ



Bakı şəhərində anadan olmuş Lukonina Lidiya Petrovna orta təhsilini Bakıda almış, 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin geoloji - coğrafiya fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə 1957-ci ildən başlayan Lukonina Lidiya 1957-1958-ci illərdə "Qaradağneft" trestinin traktor bazasında fəhlə, 1958-1962-ci illərdə Bakı Dəmirbeton Əşyaları Konstruksiyası Zavodunda armaturçu işləmişdir. 1962-ci ildən "Qaradağneft" Neft və Qazçıxarma İdarəsində (indiki Ə.C. Əmirov adına NQÇİ) çalışır. O, bu idarədə 1962-1966-cı illərdə qazkompressor sexində operator, 1966-1971-ci illərdə 3 saylı mədəndə geoloq, 1971-1981-ci illlərdə ETİİS-də geoloq vəzifələrində çalışmışdır.

Lukonina Lidiya Petrovna 1981-ci ildən NQÇİ-nin geoloji şöbəsində geoloqdur. O, neft-mədən geologiyasını yaxşı bilən bacarıqlı və təcrübəli mütəxəssisdir.

Lukonina Lidiya təcrübəli neftçi kimi həm də gənclərin hami tərbiyəçisidir. O, öz zəngin iş təcrübəsini gənc neftçilərə həvəslə öyrədir. Qayğıkeşliyinə görə Lidiya Petrovnanın adı kollektivdə hörmətlə çəkilir.



## ÇƏTİN HƏYAT YOLU

İbrahimli Eyvaz İzzət oğlu 1948-ci il sentyabr ayının 14-də Gədəbəy rayonunun Qaradağ kəndində kolxozçu ailəsində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra o, 1966-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyasına) Geoloji-kəşfiyyat fakültəsinin axşam şöbəsinə daxil olmuşdur. 1969-cu ilin oktyabr ayından öz ixtisası üzrə (Neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi) Bibiheybət yatağındakı Neft və Qazçıxarma İdarəsinin 5-ci mədənində neft-qazçıxarma operatoru vəzifəsinə işə qəbul olunmuşdur.1971-ci ildə təhsilini başa vurduqdan sonra E. İbrahimli mədəndə ixtisasına uyğun iş olmadığına görə 1972-ci ilin əvvəlində METGKİ-nun Azərbaycan kompleks elmi-tədqiqat laboratoriyasına kiçik elmi işçi vəzifəsinə qəbul olunmuşdur. Həmin ilin sonunda ordu sıralarına hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini başa vurduqdan sonra institutda yeri saxlanılmasına baxmayaraq, öz iş yerinə qayıtmamışdır. Neftçi-geoloq olmaq arzusu onu Bakı şəhərindən uzağa - Kürsəngi QİI-də geoloji şöbənin böyük geoloqu vəzifəsinə gətirib çıxarmışdır.

O, 1974-cü ilin payızında qəbul imtahanlarını verərək Azərbaycan SSR Elmlər Akademiyasının qiyabi aspiranturasına qəbul olmuşdur. 4 il oxumasına baxmayaraq dissertasiya müdafiə etməmişdir.



E. İbrahimli 1982-ci ildən sahə geoloqu vəzifəsində işləmişdir. İşlədiyi müddətdə öz işinin öhdəsindən layiqincə gəlməyi bacarmışdır. Eyvaz İbrahimli quyularda geoloji-texniki tədbirləri vaxtında tətbiq etmiş, quyuların qəzasız qazılmasında onun böyük xidmətləri olmuşdur.

O, 1985-ci ilin payızında Ceyrançöl Kəşfiyyat Qazma İşləri İdarəsində geoloji şöbənin rəis müavini vəzifəsinə işə qəbul edilmişdir. 1997-ci ilin aprel ayında Kürsəngi QİI-nə geoloji şöbənin rəisi vəzifəsinə işə götürülmüş və hal-hazırda bu vəzifədə çalışır. O, öz fəaliyyətində qabaqcıl təcrübənin, qabaqcıl iş üsullarının tətbiqinə xüsusi diqqət yetirir.



## UĞURLU YOLDA İRƏLİLƏYİRLƏR

Hüseynov Nazim Əmirxan oğlu 1957-ci ildə İ.M. Qubkin adına Moskva Neft İnstitutunu bitirmişdir.

Əmək fəaliyyətinə 1957-ci ildən başlayan Nazim Hüseynov 1957-1979-cu illərdə "Kirovneft" Neft və Qazçıxarma İdarəsinin (indiki "Binəqədineft"NQÇİ) 2 və 3 saylı mədənlərində operator, neftqazçıxarma ustası, NQÇİ-də texniki istehsalat və mühəndis texniki xidməti şöbələrində rəis vəzifələrində çalışmışdır.

N. Hüseynov 1979-1987-ci illərdə 26 Bakı Komissarı adına NQÇİ-də (indiki "Bibiheybətneft" NQÇİ) və "Leninneft" NQÇİ-də (indiki "Balaxanıneft" NQÇİ) baş mühəndis vəzifəsində çalışmışdır. N. Hüseynov 1988-ci ildən Ə.C. Əmirov adına NQÇİ-nin baş mühəndisi olmuşdur. O, həm də yaradıcı mühəndisdir, respublikanın əməkdar səmərələşdiricisidir. 25 elmi işin, 3 ixtiranın müəllifidir.

2003-cü ilin avqust ayının 10-da Ə.C. Əmirov adına NQÇİ-nin kollektivi təntənəli surətdə N. Hüseynovun 70 illik yubileyini keçirmişdir.

Yubileydə idarənin baş geoloqu, Nazim Hüseynovun ən yaxın dostu Hümbət Ələkbəroğlu onun yubileyini şerlə təbrik etmişdir:



Nazim, əziz dostum, əziz qardaşım
Çox mübarək olsun bu 70 yaşın!
Namusla, şərəflə omr elədik biz,
Şən keçdi günlərin, qoydun gözəl iz.
Gəncdik görüşəndə, o ilk günlərdə,
Dedim, dost olarıq yəqin dübarə.
Budur çox vaxt keçib görüşümüzdən,
Sədaqət tökülür sənin sözündən.
Böyük qardaş bildim hər an səni mən
Daim məmnun oldum qardaş sözündən.
Gözəl başa düşdük bir-birimizi,
Xasiyyətin mehriban etdi bizi.
Daim xoş nəzakət görmüşəm səndən,
Əsla incimədim sənin sözündən.
Bölüşdük şadlığı, kədəri də biz,
Daim bir vururdu qoşa qəlbimiz.
Gözəl xasiyyətin xoş gəlib mənə,
"Bəli" söyləmişəm hər bir kəlmənə.
Doğma qardaş kimi mehriban olduq,
Hər işdə mübariz bir insan olduq.
Mən çox həssas oldum sənin arzuna,
Sənsə "yox" demədin Azər oğluna.
Can deyib, həmişə can eşitmişik,
Mübariz bir yolla qoşa getmişik.
Bax, budur, çatmısan 70 yaşına
Mən də söz çələngi qoydum başına.
Sənin yubileyini təbrik eylədim,
Ay səni 100 yaşa, deyib söylədim.

Hüseynov Nazim Əmirxan oğlu 2004-cü ilin yanvar ayından "Binəqədineft" NQÇİ-nin mərkəzi - texnoloji xidmətinin rəis müavini vəzifəsində fəaliyyətini davam etdirir.



## BACARIQLI İQTİSADÇI

Baba Abdulla oğlu Budaqov 1961-ci il noyabr ayının 24-də Qazax rayonunun Aşağı Salahlı kəndində, ziyalı ailəsində anadan olmuşdur. O, 1979-cu ildə Aşağı Salahlı kənd orta məktəbini əla qiymətlərlə bitirmişdir. Əmək fəaliyyətinə 1979-cu ildə Bakı Elektrik Ştampları Zavodunda fəhləlikdən başlamış, çilingər peşəsində çalışmışdır. 1980-cı ildə istehsalatdan ayrılmadan D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indiki İqtisad Universitetinə) daxil olmuş və 1987-ci ildə sənayenin planlaşdırılması ixtisası üzrə tam kursu bitirib iqtisadçı ixtisasına yiyələnmişdir. 1980-1982-ci illərdə Ukrayna SSR-də və Belarusiya SSR-də hərbi xidmətdə olmuşdur. O, hərbi xidməti başa vurduqdan sonra yenidən vətənə qayıtmışdır. 1983-1985-ci illərdə Bakı şəhər 19 saylı mətbəədə cildləyici peşəsində əmək fəaliyyətini davam etdirmişdir.

Baba Budaqov iqtisadçı kimi iş fəaliyyətinə 1985-ci ildən Dövlət Statistika Komitəsinin əsaslı tikinti, sosial və demoqrafiya statistikası şöbələrində başlamış, baş iqtisadçı vəzifəsinə yüksəlmişdir. 1989-cu il əhalinin Ümumittifaq siyahıya alınmasına hazırlıq və onun keçirilməsində fəal iştirak etdiyinə görə SSRİ Dövlət Statistika Komitəsinin Fəxri fərmanı ilə təltif olunmuşdur. 1990-cı ildə Dağlıq Qarabağda erməni işğalçıları tərəfindən aparılan təxribatlar və təzyiqlər nəticəsində azərbaycanlıların sayı azaldıldığı və ermənilərin bu ərazilərdə saylarının şişirdildiyi bir vaxtda B. Budaqov həmin təhlükəli yaşayış ərazilərindəki azərbaycanlıların sosial-demoqrafik müayinələrini yüksək səviyyədə keçirmiş, uçotun doğru-düzgünlüyünü təmin etmişdir.



B. Budaqov 1996-cı ilin fevral ayının 19-dan Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Dövlət Gəmi və Liman Nəzarəti müfəttişliyində iqtisadçı vəzifəsinə işə qəbul olunmuşdur. O, 1996-cı il iyun ayının 8-dən Dövlət Gəmi və Liman Nəzarəti müfəttişliyinin baş mühasibi vəzifəsinə təyin edilmişdir. İşlədiyi müddət ərzində özünü bacarıqlı və işgüzar mütəxəssis kimi göstərmiş, verilən tapşırıqları vaxtında və layiqincə yerinə yetirmişdir. Rəhbərlik etdiyi sahədə nizam-intizam yaratmış və işçilər arasında hörmət qazanmışdır.

Baba Abdulla oğlu Budaqov 2002-ci ildə ARDNŞ-nin Fəxri fərmanı ilə təltif edilmişdir.

2001-ci ildə ARDNŞ-də struktur təkmilləşdirilməsi edildikdən sonra Dövlət Gəmi və Liman Nəzarəti müfəttişliyi "Azneft" İstehsalat Birliyinin strukturuna daxil edilmişdir. Həmin vaxtdan "Azneft" İB-nin Dövlət Gəmi və Liman Nəzarəti müfəttişliyinin mühasibat uçotu şöbəsinin rəisi - baş mühasibi vəzifəsinə təyin edilmişdir.



## O, HƏM DƏ FƏAL İCTİMAİYYƏTÇİDİR

**H**üseynova Xanımgül İsfəndiyar qızı 1952-ci il apre ayının 15-də Bakı şəhərində anadan olmuşdur. O, orta təhsilini Bakı şəhərində almış, 1984-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun sənayenin planlaşdırılması fakültəsini bitirmişdir.

X.Hüseynova 1970-ci ildə Azərbaycan Neftçıxarma Sənayes Nazirliyinin Xüsusi Tamponaj kontorunda əmək fəaliyyətinə başlamış, elə o vaxtdan da öz həyatını, ailəsinin davamçısı kimi, neft sənayesinə bağlamışdır. Xanımgül Hüseynova 1984-1987-ci illərdə Qaradağ Rayon İcraiyyə Komitəsində iqtisadçı-mühəndis və plan komissiyasının sədri vəzifələrində işləmişdir. X. Hüseynova "Azneft" İstehsalat Birliyində sənayenin planlaşdırılması işləri üzrə tanınmış mütəxəssisdir.

Xanımgül Hüseynova Qaradağ rayonunda bacarıqlı iqtisadçı və fəal ictimaiyyətçi kimi böyük hörmətə malikdir. O, 1977-1982-ci illərdə rayon sovetinə xalq deputatı seçilmiş, 1989-cu ildən Azərbaycan Qadınlar Cəmiyyəti Qaradağ rayon şöbəsinin sədri, Respublika Qadınlar Cəmiyyəti Rəyasət Heyətinin üzvüdür.

Xanımgül Hüseynova möhkəm iradəyə malik qadındır. Aqillər demişlər: "Mümkün olmayanı yalnız insan mümkün edə bilər. Xarakter mükəmməl tərbiyələnmiş iradədir". Bu sözlər X. Hüseynovanı həmişə düşündürür.





## KADR SİYASƏTİ

**"B**ibiheybətneft" Neft-Qazçıxarma İdarəsində kadrlar şöbəsinin rəisi vəzifəsində çalışan, "Neftçi" Qadınlar Cəmiyyətinin üzvü, respublika qadınlarının 1-ci qurultayının nümayəndəsi Leyla Mirzə qızı Rzayevanın söhbəti:

"Mən özüm Qarabağ bölgəsindənəm, Füzuli rayonunda boya-başa çatmışam, orta məktəbi orada bitirmişəm. Bakıya köçəndə qohumlarımın əksəriyyətinin - xala, əmi uşaqlarının neft sənayesində çalışdığını gördüm. Onların arasında mədən işçiləri, ustalar, sex rəisləri var idi. Mən də o vaxt işləmək istəyirdim. 1977-ci ilin iyulun 4-də ilk dəfə "Bibiheybətneft" NQÇİ-nin kadrlar şöbəsinə gəldim. Kadrlar üzrə sıravi müfəttiş kimi işə başladım. Çoxları elə fikirləşirdi ki, mən buraya müvəqqəti, institut üçün staj toplamağa gəlmişəm. Lakin bir qədər sonra işə olan münasibətimi görənlər "bu qız deyəsən, bura həmişəlik gəlib" - deyirdilər. O vaxt idarəmizin 1500-ə yaxın işçisi var idi. İşim çox olurdu, baxmayaraq ki, axşamlar təhsilimi davam etdirirdim.çox vaxt evə də iş götürürdüm. Bir neçə ildən sonra rəhbər kadrlar üzrə mühəndis vəzifəsinə təyin edildim. 1984-cü ildə kadrlar şöbəinin rəisi təqaüdə çıxanda rəhbərlik məni bu vəzifəyə təyin etdi. O vaxdan vəzifə borcumu yerinə yetirirəm. Gördüyünüz kimi, neft sənayesinə gəlişim haradasa təsadüflə

bağlı olsa da, bu peşə sahiblərinin işlərinə maraq, sevgi hissləri təsadüfü üstələyib.

"Bibiheybətneft" NQÇİ bacarıqlı neftçi kadrların beşiyi sayıla bilər. Kimlər işləməyib burada? Sosialist Əməyi Qəhrəmanları Mirzə Mustafayev, vaxtilə Azərbaycan SSR neftçıxarma sənayesi naziri olmuş Bəxtiyar Məmmədov, Gülbala Əliyev, Dövlət mükafatı laureatı Hüseynəli Əliyev və onlarca başqaları... Bu insanların hər biri sözün əsl mənasında şəxsiyyət idi. Təsəvvür edin ki, Gülbala Əliyevin savadı yox idi, imza yerinə sənədə barmağını basırdı. Lakin onun icad etdiyi qurğulardan, ixtiralardan bir çox xarici dövlətlərdə bu gün də istifadə olunur. Yeri gəlmişkən idarəmizin yerləşdiyi küçə də bu gün onun adını daşıyır.

Uzun müddət idarəmizdə usta vəzifəsində çalışan Hüseynəli Əliyev elə iş başında da vəfat etdi. "SSRİ-nin fəxri neftçisi" adına layiq görülən Əkrəm Dadaşov və respublikanın əməkdar neft və qaz sənayesi işçisi Əli Abdullayev kimi qocaman neftçilər hal-hazırda da idarəmizdə çalışaraq neft hasilatının artırılmasında bacarıqlarını əsirgəmirlər.

Mən burada Paşa Sultanov, Əzzayib Bağıyev, Kərim Kərimov kimi rəislərlə işləmişəm. Onların hər biri özünəxas iş üslubuna, rəhbərlik qabiliyyətinə, istehsalata fərdi yanaşmaq xüsusiyyətinə malik idi. Lakin hamısını bir amal birləşdirirdi: ölkə iqtisadiyyatının inkişafına xidmət etmək, vətənin neftə olan tələbatını təmin etmək üçün gecə-gündüz çalışmaq. Hal-hazırda idarəyə rəhbərlik edən Rəhman Zeynalovun da əmək yolu məhz bu qocaman neft sənayesi beşiyi ilə bağlı olub. Sıravi operatorluqdan mühəndis, sex rəisi, idarə rəisinin müavini kimi vəzifə pillələrini keçərək, idarənin rəisi vəzifəsinə qədər yüksəlmişdir. Məhz buna görədir ki, ömrünü həsr etdiyi idarənin kollektivinin bütün qayğı və problemlərini, istehsalatın nöqsan və müsbət tərəflərini hamıdan yaxşı bilir. Rəhman müəllim işçilər arasında qayğıkeş, insan əməyini qiymətləndirməyi bacaran, yardım əlini ehtiyacı olandan əsirgəməyən bir rəhbər kimi hörmət qazanmışdır.

Hazırki neftçilərimizi öz sələflərindən fərqləndirən nədir? Mən deyərdim, ilk növbədə iş şəraiti. O dövrdə neftçilərimiz daha ağır iş şəraitində çalışırdılar. Doğrudur, onların əməyi də yüksək qiymətləndirilirdi. Paytaxtın mərkəzi küçələrində onlara ev verilirdi, yaxşı mükafatlar alırdılar, ölkənin ən səfalı guşələrində dincəlmək, sağlamlıqlarını bərpa etmək imkanına malik idilər. Bilirsiniz, nefti yerin təkindən çıxaran, ömrünü "qara qızıl" hasilatına sərf edən neftçiyə elə şərait yaradılmalıdır ki, təqaüdə çıxandan sonra o, normal, ehtiyacsız həyat sürə bilsin. Bir də istər o dövrün neftçisi olsun, istər bu dövrün, əgər həqiqətən bu peşəyə ürəkdən bağlanıb gəlibsə, çətinliklərdən qorxub yarı yoldan qayıtmayıbsa, deməli, Azərbaycanın neft sənayesi tarixində bu insanın da izi olacaq, iqtisadiyyatımızın inkişafına onun da töhfəsi olacaq, o da gələcək nəsillərə öz təcrübəsini ötürə biləcək.

Əvvəllər Neft və Kimya İnstitutunu (indiki Neft Akademiyasını) bitirən gəncləri təyinatla idarəmizə yollayırdılar. Təcrübə keçməyə gələn tələbələrimiz də çox olurdu. Hətta idarəmizə tez-tez xarici tələbələr də gəlirdi. Gündüzlər işləyib, axşamlar oxuyan gənclərimiz də az deyildi. Bu gənclər böyük həvəslə neft sənayesinin sirrlərini mənimsəməyə can atır, təcrübəli mütəxəssislərin köməyinə arxalanırdılar.Gənc kadrlara xüsusi diqqət vardı. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində məlum hadisələr zəminində baş verən dəyişikliklər nəticəsində gənclərin çoxu respublikadan gedir, qazancı başqa sahələrdə axtarır, neft sənayesinə maraq gösətrənlərin sayı azalırdı. Bu da kadr hazırlığının səngiməsinə səbəb olmuşdu. Lakin son illər yeni neft strategiyasının, "Əsrin müqaviləsi"nin həyata keçirilməsi kadr siyasətində də dirçəliş yaratdı. İndi idarəmizdə çoxlu gənc kadrlar çalışır. Çox vaxt gənclərimiz ailə səadətlərini də elə burada tapır, evlənirlər, övladları da bizim bağçalarda tərbiyə alırlar. İdarəmizdə bir neçə nəsil neftçilər sülaləsi yetişir.

Bir məqamı da qeyd etmək istəyirəm. Hazırda bizim idarədə çalışan, vaxtilə bu elm ocağını - Neft Akademiyasını bitirmiş bir gənc mütəxəssisimiz ARDNŞ-nin hesabına bir il müddətində ixtisasını artırır, biliyini təkmilləşdirir. Mən gələcəkdə yeni yaradılmış sistemin genişləndirilməsini və bu cür kadrların sayının çox olmasını istərdim.

Vaxtilə neft sənayesində qadınlarımız ən çətin sahələrdə be-

lə kişilərlə çiyin-çiyinə çalışıblar. Bildiyiniz kimi Böyük Vətən müharibəsi illərində kişilərin əksəriyyəti cəbhədə olduğundan bütün işin ağırlığı məhz qadınların üzərinə düşürdü. Təsəvvür edin ki, körpə uşağı olan analar uşağın qırxı çıxan kimi işə başlamağa məcbur idilər. İndi qadınlarımızın işi çox yüngülləşib, analıq məzuniyyətinin müddəti 3 ilə qədər uzadılıb. Doğrudur, hazırda mədənlərə qızlarımız əvvəlki illərə nisbətən az gəlir. Lakin gələnlər hər şeylə maraqlanır, savadlı kadr olmaq üçün çalışır, bu peşənin çətinliyini də, şərəfini də eyni cür qəbul edirlər. İdarəmizdə böyük iş stajına malik, bütün fəaliyyətlərini "Bibiheybətneft" NQÇİ-yə bağlayan qadınlarımız az deyil. Onlardan Rəna Əzizova, Sevil Hacıyeva, Gülarə Abdullayeva, Zərifə Mirzəyeva, Klavdiya Boqomolova, Tamara Ritko, Sevil Məcidova və başqaları gənc qızlarımız üçün əsl örnəkdirlər. Hərdən xaricdən gələn qadın qonaqlarmız olur. Onları mədənlərə aparır, orada işləyən qadınlarla tanış edirəm. Biləndə ki, qadınlarımız arasında bir yerdə 40 ildən çox işləyənlər var, çox təəccüblənirlər. Bəli, zərif Azərbaycan qadını təkcə ləyaqəti ilə deyil, eyni zamanda əməksevərliyi və çətinliklərə sinə gərmək bacarığı ilə də həmişə seçilib. Buna görə də onlara, xüsusən ömrünü neft sənayesinə həsr etmiş qadınlara daim layiq olduqları yüksək qiyməti verməli, onların problemləri nəinki əmək cəbhəsində çalışdıqları vaxt, istirahətə çıxdıqdan sonra belə diqqət mərkəzində olmalıdır".





## ƏMƏK VETERANI, QAYĞIKEŞ AİLƏ BAŞÇISI

Qarayev Əliyar Yaqub oğlu 1937-ci il may ayının 1-də Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur. O, 1954-cü ildə Şəki şəhər 10 saylı orta məktəbi əla və yaxşı qiymətlərlə başa vurduqdan sonra həmin ildə Azərbaycan Sənaye İnstitutuna (indiki Neft Akademiyası) qəbul olunmuş və ali təhsil ocağını 1959-cu ildə müvəffəqiyyətlə bitirmiş, "neft və qaz yataqlarının işlənməsi" üzrə dağ mühəndisi ixtisasına yiyələnmişdir.

O, 1959-cu ildə institutu bitirdikdən sonra Azərbaycanın neft sənayesində qazmaçı köməkçisi kimi əmək fəaliyyətinə başlamış və qazmaçının klassik yolunu keçməklə, 1980-ci ilə qədər qazma üzrə mühəndis, qazma ustası, istehsalat-texniki şöbənin böyük mühəndisi, yuyucu məhlullar üzrə Baş mühəndisin müavini, Baş texnoloq-texnoloji şöbənin rəisi kimi müxtəlif vəzifələrdə səylə və bacarıqla çalışmışdır. 1980-ci ildə Ə. Qarayev neft sənayesində ən mürəkkəb və məsuliyyətli sahəyə - Xəzər Hərbiləşdirilmiş Hissənin yeni yaradılmış Cənub dəstəsinə komandir vəzifəsinə irəli çəkilmişdir. Həmin dəstənin əsas vəzifəsi mürəkkəb və çox bahalı, üzən qazma qurğularında baş verə biləcək açıq qaz və neft fontanlarına qarşı profilaktik iş aparmaq idi.

Əliyar Qarayev öz biliyi və bacarığı sayəsində qarşısına

qoyulan vəzifənin öhdəsindən layiqincə gəlmiş, dəstədə işgüzar və yaradıcı mühit yaratmış, həmin dəstəni o zamankı SSRİ-də Hərbiləşdirilmiş Hissələr arasında ən qabaqcıl profilaktika dəstələrindən birinə çevirmişdir. Özünə və tabeliyində olan rayon mühəndislərinə yüksək tələbkarlığı və prinsipiallığı, qayğıkeşliyi və səmimiyyəti ilə kollektiv arasında böyük nüfuz qazanmışdır.

Bilavasitə Ə. Qarayevin rəhbərliyi altında rayon mühəndisləri öz peşə hazırlıqlarını artırmaq məqsədilə fontan əleyhinə profaliktika sahəsində üzən qazma qurğularının spesifik xüsusiyyətlərinə və ən mürəkkəb işlərin aparılmasına həsr edilmiş aktual mövzulara dair avtoreferatlar hazırlamış və dəstənin yığıncağında məruzə ilə çıxış etmişlər.

O, dəfələrlə Moskvada və keçmiş SSRİ-nin ayrı-ayrı şəhərlərində açıq qaz və neftfontanlarının qarşısının alınmasının aktual məsələlərinə həsr edilmiş konfranslarda dərin məzmunlu, yüksək praktiki əhəmiyyətə malik olan məruzələrlə, mühazirələrlə çıxış etmişdir. Həmin məruzə və mühazirələrin bir çoxu Baş idarə (Əməyin Mühafizəsi və Hərbiləşdirilmiş Hissələr İdarəsi) tərəfindən nəşr olunmaq üçün tövsiyə edilmişdir.

Açıq fontana qarşı profilaktika sahəsində qazandığı nailiyyətlərə görə Qarayev Yaqub Əliyar oğlu 1986-cı ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir. O, Azərbaycan Respublikasının Əmək veteranıdır.

Əliyar Qarayev eyni zamanda qayğıkeş ailə başçısıdır. O, beş övlad böyüdüb boya-başa çatdırmış, hamısı da ali təhsil almışdır. On iki nəvəsi var.



## SEX RƏİSİ



Səfərov Abbas Məmməd oğlu 1941-ci il oktyabr ayının 5-də Salyan rayonunun Xolqarabucaq kəndində anadan olmuşdur. O, 1958-ci ildə Xolqarabucaq kənd orta məktəbin 9-cu sinfini bitirdikdən sonra Sumqayıt şəhərinə gəlmişdir və 10-cu sinfi buradakı 3 saylı orta məktəbdə bitirmişdir.

1959-cu ildə orta məktəbi bitirdikdən sonra Sumqayıt "Üzvixlor" məhsulları zavoduna işə qəbul olunmuş, 3-cü dərəcəli elektrokar sürücüsü işləmişdir. 1960-1963-cü illərdə ordu sıralarında qulluq etmiş, hərbi xidməti başa vurduqdan sonra əvvəlki iş yerinə qayıtmışdır.

A. Səfərov 1964-cü ildə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna qəbul olunmuşdur. 1967-ci ildən elektrik çilingəri işləmiş, 1969-cu ildə elektrik ustası təyin olunmuşdur. 1970-ci ildə institutu bitirmiş, "Elektrik mexaniki" ixtisasına yiyələnmişdir. İnstitutu bitirdikdən sonra M. Əzizbəyov adına zavodun Sulfanol istehsalatının "S-4" sexinə energetik təyin olunmuşdur. 1975-ci ildə həmin sexə rəis, 1976-cı ildə həmin zavodun Elektrik təchizatı sexinə 0,4 kv sahəsinə sahə rəisi təyin olunmuşdur. 1977-ci ildə öz xahişi ilə zavoddan çıxıb Sumqayıt şəhəri 91 saylı Texniki Peşə məktəbinə baş usta keçmişdir.

1978-ci ildə o, Azərbaycan KP MK-nın Sumqayıt filialı

"Marksizm-Leninizm" Universitetinin təsərrüfat rəhbərləri fakültəsinə daxil olmuş və 1980-ci ildə həmin kursu bitirmişdir, 1978-ci ildə Texniki Peşə məktəbinin bağlanması ilə əlaqədar Sumqayıt "Üzvi sintez" kombinatına 2xlor və kaustik soda" istehsalatına rəis müavini təyin olunmuşdur. 1979-cu ildə həmin kombinatda "Divinil" istehsalatına böyük energetik keçmişdir. 1980-ci ildə "xlor və kaustik soda" istehsalatına Yeni texnikanın tətbiqi üzrə rəis müavini işləmişdir.

A.Səfərov 1982-ci ilin may ayında Bakı şəhərində "Xəzərdəniztəmirinşaat" tresti 4 saylı İTTİ-nə (Korroziyadan Mühafizə İdarəsi) işə qəbul olunmuş, əvvəlcə laboratoriyada mühəndis, 2 və 4 saylı sahələrdə iş icraçısı işləmişdir. 1983-cü ilin may ayında həmin idarənin Baş mühəndisi təyin olunmuşdur.

O, 1986-cı ilin may ayında "Xəzərdəniztəmirinşaat" tresti 1 saylı İTTİ-nə (Neft Daşlarında) rəis təyin olunmuşdur. 1990-cı ilin fevral ayında "28 May" adına NQÇİ-nin DNMHQTİ sexinə rəis təyin edilmiş və hal-hazırda həmin vəzifədə çalışır.

Abbas Səfərov Əmək veteranıdır.



## TACA LAYİQ GÖVHƏR



Adılov Akif Məhəmmədəli oğlu 1950-ci il oktyabr ayının 5-də Oğuz rayonunda anadan olmuşdur. 1967-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, 1973-cü ildə "Tikintinin iqtisadiyyatı və təşkili" ixtisası üzrə tam kursu başa vurmuşdur. O, iqtisadçı-mühəndis ixtisasına yiyələndikdən sonra əmək fəaliyyətinə başlamış, müxtəlif ölkələrdə işləmişdir.

Akif Adılov Zaqatala kolxozlararası tikinti idarəsində inşaat üzrə briqadir işləmişdir. Sonra o, Rusiya Federasiyasına getmiş, Stavropol diyarı Pyatiqorsk şəhərində "Pyatiqorsktikinti" Trestində metal konstruksiyaları üzrə quraşdırıcı, Türkmənistanın Çələkən şəhərində "Çələkəndənizneftqaz" Sənaye İstehsalat Birliyində müxtəlif sahələrdə çalışmış, burada baş mühəndis vəzifəsinə qədər yüksəlmişdir.

Akif Adılov 1985-ci ilin may ayında Bakı Dərin Dəniz Özülləri Zavoduna işə dəvət olunmuşdur. O, burada "Şelflayihətikinti" İstehsalat Birliyində baş direktor müavini işləmiş, hazırda isə İstehsalat Birliyinin bazasında yenidən təşkil olunmuş Bakı Dərin Dəniz Özülləri Zavodunda kadrlar və sənaye-inkişaf şöbəsinin rəisi vəzifəsində fəaliyyət göstərir.

A.Adılov 28 ildir ki, neft sənayesində çalışır. İşlədiyi müddət ərzində əməyi yüksək qiymətləndirilib. Neft və qaz sənayesinin

inkişafında xidmətlərinə görə, ARDNŞ-in, "Şelflayihətikinti" İstehsalat Birliyinin, Qaradağ Rayon İcra Hakimiyyətinin Fəxri fərmanlarına layiq görülmüşdür.

Akif Adılov ictimai işlərdə də fəallıq göstərir, gənclərin yaxın məsləhətçisidir. O, 1999-cu ilin dekabr ayında bələdiyyə seçkilərində qaradağ rayon Sahil qəsəbəsi Bələdiyyə Şurasının üzvü seçilmişdir.

Akif Adılov zəhmət dünyasında axıtdığı inci tər hesabına taca layiq bir gövhər tapmışdır. Bu gövhər onun qazandığı nüfuz, xətir - hörmətdir.



## DƏRİN NEFT KƏŞFİYYATI QUYULARININ USTASI



Misgərli Məmmədəli Sahib oğlu 1949-cu ildə Salyan rayonunun Kür-Kosa kəndində anadan olmuşdur. O, 1967-ci ildə Salyan şəhər 2 saylı orta məktəbini bitirmiş və həmin ildə Azərbaycan Neft və Kimya İnstitutunun Neft - mədən fakültəsinin qazma şöbəsinə daxil olmuşdur. 1972-ci ildə institutu müvəffəqiyyətlə bitirmiş və təyinatla Qarabağlı Qazma İşləri İdarəsinə göndərilmişdir.

Gənc mühəndis Qarabağlı sahəsində 130 və 132 saylı, Kürsəngi sahəsində 85 saylı, Balazənən sahəsində layihə dərinliyi 3800 metr olan 48 saylı, eyni zamanda 49 saylı quyularda qazmaçı köməkçisi, qazmaçı və buruq ustası işləmişdir. 1974-cü ildə Qarabağlı QİI Neftçala rayonuna köçürülmüşdür.

Gənc usta Neftçala sahəsində layihə dərinliyi =H=3860 metr olan istismar quyusunda çalışmış və həmin quyunu müvəffəqiyyətlə qazıb neftçilərə təhvil vermişdir. İstismara verdiyi quyulardan gündəlik 50-60 ton neft hasil edilirdi. 1977-ci ildə o, Xıllı sahəsində layihə dərinliyi =H=4500 metr olan quyunun qazılmasında çalışmışdır. M.Misgərli 2 saylı Rayon Mühəndis Texnoloji Xidmət Sahəsinin rəisi vəzifəsinə yüksəlmişdir. 2 saylı RMTX sahəsinin rəisi vəzifəsində işlədiyi müddətdə o, Neftçala, Xıllı, Balazənən, Durovdağ, Şor-sulu, Orta Muğan sahələrində olan istismar və kəşfiyyat quyularının qazılmasına, texniki-

istismar kəmərlərinin buraxılmasına və sementlə aparılan əməliyyatlara rəhbərlik etmişdir. 1985-ci ildə Neftçala QİI-in Bakı şəhəri Qobustan qəsəbəsinə köçürülməsi ilə əlaqədar olaraq öz işini Lökbatan, Suraxanı, Binəqədi, Quş-xana, Qobustan, Pirsaat sahələrində qazılan istismar kəşfiyyat quyularının qazılmasında davam etdirmişdir.

1989-cu ildə Moskva şəhərində akademik Qubkin adına Neft Qaz İnstitutunda 6 aylıq kurs keçmişdir. Sonradan öz doğma kollektivinə qayıtmış və əmək fəaliyyətinə Pirsaat sahəsində layihə dərinliyi =H=4200 metr olan 216 saylı quyuda Bibiheybət sahəsində əyri quyuların qazılmasında (3410, 3902, 3903) çalışmışdır. O, bu işi 1992-ci ildə Kürsəngi sahəsi layihə dərinliyi =H=5200 metr olan kəşfiyyat quyusunda davam etdirmiş və nəticə 4500 metr dərinliyə 8" texniki kəmərin buraxılması ilə sona çatmışdır.

M.Misgərli 1995-ci ildən isə Lökbatan və Atəşgah sahələrində istismar quyularının qazılmasında çalışır. O, yorulmaq bilmədən çalışır və neft-qaz sənayesinin gələcəyinə inanır.





## СЧАСТЛИВАЯ СУДЬБА ЗАВАТ

**Большая армия представительниц слабой половины человечества связала свою жизнь с Государственной нефтяной компанией Азербайджана, и о каждой можно написать книгу, очерк в газете.**

**Но сегодня нам хотелось бы открыть разговор о Зават Муслим кызы Ханкишиевой, которой в этом году исполнилось 72 года. Хотелось еще и потому, чтобы молодежь не забывала о старшем поколении нефтяников, благодаря трудовому подвигу которых ковалась слава нашей страны.**

**Непростой жизненный путь довелось пройти этой женщине, родившейся в селе Нохудлар Девечинского района Азербайджана. Оставшись без матери совсем еще ребенком, Зават в 12-летним возрасте потеряла и отца, а мачеха, бросив на произвол судьбы пятерых детей, ушла из осиротившего дома.**

**Это было в самой середине Великой Отечественной войны. Старшие братья ушли на фронт, откуда так и не вернулись. 12-летнем возрасте потеряла и отца, а мачеха, бросив на произвол судьбы пятерых детей, ушла из осиротевшего дома. Зават отправили в детдом в Губу, а спустя еще два года в детский дом, что находился в поселке Бузовна, лишив девочку радости ежедневно видеться с двумя родными сестрами. Зават тяжело переживала одиноче-**

ство, но не унывала. В 1946 году она поступила в Баиловское ремесленное училище № 3, окончив которое в 1949 году, с направлением в руках пришла на I промысел треста "Сталиннефть" (ныне НГДУ "Бибиэйбатнефть") в качестве оператора по добыче нефти. Зават тогда исполнилось всего 18 лет, но познала она уже столько горечи, что хватило бы на три жизни.

В 1950 году Зават после семилетней разлуки встречается с сестрами и в том же году выходит замуж. Спутником ее жизни становится нефтяник, работавший здесь же в тресте "Сталиннефть" Яхья Ильясов. В то время управляющим треста был Паша Султанов. До сих пор помнит Зават ханум начальников промысла Тофика Алиева, Алисахаба Мирзоева, Агамали Караева, мастеров по добыче нефти Вели Алиева, Гасыма Гасымзаде, Фуада Меликова, Мирзаагу Алиева, Гасыма Ахмедова, Рамиза Гурбанова, ныне работающего в Нефтяной академии, рядом с которыми она проработала без перерыва целых 32 года. И всегда Зават ханум была в первых рядах, всегда отличалась трудолюбием, добросовестностью, исполнительностью. И несмотря на то, что это был нелегкий для женщины труд, она нашла в нем свое счастье. Ее доблестное служение избранному делу отмечено многими правительственными наградами, среди которых ордена Трудового Красного Знамени и Трудовой славы III степени, медали "К 100-летию нефтяной и газовой промышленности СССР", похвальные листы Министерства нефтяной промышленности СССР и другие отличия.

Сегодня ветеран труда Зават ханум Ханкишиева находится на заслуженном отдыхе. Она гордится своей рабочей биографией, которая может стать добрым примером для молодого поколения нефтяников.



## BACARIQLI MEXANİK



Əhmədov Fəxrəddin Habil oğlu 1958-ci ildə Salyanda anadan olmuş, buradakı 2 saylı orta məktəbi bitirmişdir. Orta məktəbi bitirdikdən sonra həmin il M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun mexanika fakültəsinə daxil olmuşdur.

Fəxrəddin Əhmədov 1980-ci ildə institutu bitirdikdən sonra təyinat üzrə Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsinə işə götürülmüşdür. Əvvəlcə, xidmət çilingəri işləmiş, sonra buruq avadanlıqlarının təmiri sexində mexanik, avadanlıqların quraşdırılması üzrə böyük mexanik vəzifələrində çalışmışdır. F. Əhmədov bir çox sahədə, o cümlədən Muradxanlı, Zərdab, 2-ci Palantökən, Tərsdəllər, Ağdaş, Ceyrançöl və başqa sahələrdə özünü yaxşı, bacarıqlı işçi kimi göstərə bilmişdir. O, 1986 - 1991-ci illərdə buruq avadanlıqlarının təmiri sexinin rəisi, 1991 - 1993-cü illərdə vışkaquraşdırma sexinin rəisi, 1993 - 2002-ci illərdə maddi texniki təchizat şöbəsinin rəisi kimi məsul vəzifələrdə çalışmışdır. Fəxrəddin Əhmədov 2002-ci ildən Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində baş mexanik vəzifəsində işləyir.

Bacarıqlı neftçi həm də qayğıkeş ailə başçısıdır. Üç övladı var. Fəxrəddin Əhmədov işdə olduğu kimi evdə də intizamlı, ədəb-ərkanlı olmağı xoşlayır. Odur ki, övladlarını əsl vətəndaş kimi milli adət-ənənələrimizə hörmət ruhunda tərbiyə edir.



## MƏSULİYYƏT HİSSİ

Vəliyev Ağasəf Salman oğlu 1952-ci il avqust ayının 18-də Neftçala rayonunun Qədimkənd kəndində anadan olmuşdur. Orta məktəbi həmin kənddə başa vurduqdan sonra 1976-cı ildə Azərbaycan Neft və Kimya İnstitutunun neft-mədən fakültəsini bitirərək, neft və qaz quyularının qazılması ixtisasına yiyələnmişdir. A. Vəliyev əmək fəaliyyətinə Əlibayramlı Qazma İşləri İdarəsində başlamışdır. O, əvvəl qazmaçı, sonra Rayon Mühəndis Texnoloji Xidmətinin böyük texnoloqu, növbə rəisi vəzifələrində işləmişdir.

O, 30 mart 1983-cü ildə köçürmə yolu ilə Carlı Qazma İşləri İdarəsinə işə göndərilmişdir. Əvvəlcə, buruq ustası, sonra Rayon Mühəndis Texnoloji Xidmətinin rəisi, Mərkəzi Mühəndis Texnoloji Xidmətinin rəisi vəzifələrində işləmişdir. 1990-cı ildə Zərdab Dərin Kəşfiyyat Qazma Ekspedisiyasına rəis təyin olunmuşdur.

A.Vəliyev 1994-cü ildə Zərdab Dərin Kəşfiyyat Qazma Ekspedisiyasının ləğvi ilə əlaqədar olaraq baza müəssisəsinə - Carlı Kəşfiyyat Qazma İdarəsinə Rayon Mühəndis Texnoloji Xidmətinin rəisi keçirilmişdir.

1996-cı ildə Carlı Kəşfiyyat Qazma İdarəsi ləğv edilib Carlı Dərin Kəşfiyyat Qazma Ekspedisiyası yarandığı üçün Ağasəf Vəliyev 2 saylı Rayon Mühəndis Texnoloji Xidmətinə rəis vəzifəsinə təyin olunmuşdur. 1999-cu ildə Carlı Dərin Kəşfiyyat Qazma Ekspedisiyası ləğv olunduqdan sonra A. Vəliyev köçürülmə yolu ilə Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsinin 1 saylı Rayon Mühəndis Texnoloji Xidmətinin rəisi vəzifəsinə təyin edilmiş və həmin vəzifədə çalışır.

Ağasəf Vəliyev harada işləyibsə, özündə dərin məsuliyyət hiss edib, üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib.



## QABAQCIL TƏCRÜBƏNİN TƏTBİQİ

Mirzəyev Əlisa Xasay oğlu 1948-ci il mart ayının 5-də Saatlı rayonunun Əlisoltanlı kəndində ziyalı ailəsində anadan olmuşdur. 1972-ci ildə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun neft və qaz mədənlərinin maşın və avadanlığı fakültəsini bitirmişdir.

Ə.Mirzəyev Bakı Baş Tikinti Trestinin 9 saylı tikinti idarəsində əmək fəaliyyətinə başlamışdır. Sonra o, Divanlı Kəşfiyyat Qazma İdarəsində beşinci dərəcəli qazmaçı köməkçisi, Saatlı Dərin Qazma (15 km) Neft Kəşfiyyat Ekspedisiyasında əvvəlcə, avadanlıqların təmiri üzrə mexanik, sonra təhlükəsizlik texnikası üzrə mühəndis, daha sonra boruların təmiri sexində texnik və ekspedisiyanın baş mexaniki vəzifələrində çalışmışdır.

Azərbaycanda ilk dəfə olaraq (7,5 km) dərin quyu qazılmasında Ə.Mirzəyev fəal iştirak etmiş, elə buna görə də o, Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanına layiq görülmüşdür.

Əlisa Mirzəyev Qobustan Qazma İşləri İdarəsində mexanik işləmişdir. Hazırda o, həmin idarənin BATS-nin rəis müavini vəzifəsində işləyir. O, daşıdığı vəzifəsi çərçivəsində daim yeniliklər axtarır, qabaqcıl təcrübənin tətbiqinə səy göstərir.

Əlisa müəllim söhbət zamanı V.Q. Belinskinin bu sözlərini xatırlatdı: "Alim, şair, döyüşçü, qanunverici... və s. olmaq yaxşıdır, lakin bunlarla yanaşı, insan olmaq da lazımdır". Əlisa müəllim insanlığı hər şeydən üstün tutur.



## MÜRƏKKƏB İŞLƏR ÜZRƏ MÜHƏNDİS



Xudiyev Cəlair Qılıncxan oğlu Yardımlı rayonunun Porsovo kəndində doğulmuşdur. Orta məktəbi bitirdikdən sonra Bakı Sənaye Texnikumuna daxil olmuşdur. Texnikumu bitirdikdən sonra o, su nəqliyyatı gəmisində komandir kimi əmək fəaliyyətinə başlamışdır. C. Xudiyev burada yüksək əmək fəallığı ilə çalışmış, müxtəlif mükafatlara layiq görülmüşdür.

C.Xudiyev 1960-cı ildə Əli Bayramlı şəhər 2 saylı qazma idarəsində qazmaçı köməkçisi, sonra qazmaçı işləmişdir. Əli Bayramlıda Neft Texnikumunu bitirdikdən sonra mühəndis, mühəndis-texnoloq, Qarabağlı Qazma İşləri İdarəsində mürəkkəb işlər üzrə mühəndis vəzifələrində çalışmışdır.

C.Xudiyev Sosialist Əməyi Qəhrəmanı Akif Əmənovun başçılığı ilə 75 saylı 5 500 metr dərinlikdəki quyunun və digər quyuların qazılmasında yaxından iştirak etmişdir. İşində qazandığı uğurlara görə müxtəlif mükafatlara, diploma, fəxri fərmanlara layiq görülmüşdür.

Cəlair Xudiyev Hazırda Qobustan Kəşfiyyat Qazma İşləri idarəsində mürəkkəb işlər üzrə mühəndis vəzifəsində çalışır.

Mütəfəkkir E.R. Labile demişdir: "Sabah bu gün üçün ən böyük düşməndir, sabah bizi gücdən salır, bizi acizliyə gətirib çıxarır, iş görməyə qoymur". Cəlair müəllim bu günün işini sabaha qoyan adam deyildir. O, hər işi öz vaxtında görür və uğur qazanır.



## DƏRİN KƏŞFİYYAT QUYULARI

Nuriyev Mərdan Binnət oğlu 1946-cı il aprel ayının 4-də Gürcüstan Respublikası Marneuli rayonunun Qasımlı kəndində anadan olmuşdur. 1969-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirmişdir. İnstitutu bitirdikdən sonra neft kəşfiyyat trestində qazmaçı köməkçisi, texniki işlər şöbəsində böyük mühəndis, 1 saylı rayon texniki xidmət sahəsinin rəis müavini vəzifələrində çalışmışdır.

M.Nuriyev 1975-ci ildən buruq ustası kimi fəaliyyət göstərmişdir. Kəlaməddin, Zərdab, Əmirarx, Palantökən və başqa sahələrdə dərin kəşfiyyat quyularının (4500-5000 metr) qazılmasında gərgin əmək sərf etmişdir. O, göstərdiyi əmək nümunələrinə görə SSRİ Neft Sənayesi Nazirliyi tərəfindən müxtəlif mükafatlarla təltif olunmuşdur.

M.Nuriyev 1978-1980-ci illərdə Suriya Ərəb Respublikasında ezamiyyətdə olmuş, orada neft istehsalında fəal iştirak etmişdir.

Mərdan Nuriyev hazırda Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində buruq rəisi vəzifəsində çalışır.

Mütəfəkkir Cəlaləddin Rumi demişdir: "Dənizin dibində incilər və daşlar qarışıq halda olur. Fəzilət də belədir. Onlar da eyiblər və qüsurların arasında olur. Onları tapıb üzə çıxarmaq hünər istəyir". Bax, haqqında danışdığımız Mərdan müəllim də hünərli insandır. Yaxşını pisi ayırd etməyi gözəl bilir. Ona görə də hörmət sahibidir.



## FƏALLIQ GÖSTƏRİR



Filosof A. Feyerbax demişdir: "İnsan öz qüvvəsinə inandığı vaxt istəyinə nail olur". Vidadi müəllim də həmişə öz qüvvəsinə inanıb, indi də inanır.

İmaməliyev Vidadi Əlişiraz oğlu 1952-ci ildə Hacıqabul rayonunun Qarasu kəndində doğulmuşdur. 1970-ci ildə Hacıqabul şəhərindəki 5 saylı orta məktəbi bitirdikdən sonra M. Əzizbəyov adına Neft və Kimya İnstitutuna daxil olmuşdur.

V.İmaməliyev 1975-ci ildə həmin institutun neft-mədən fakültəsini bitirmiş, neft və qaz quyularının qazılması üzrə dağ mühəndisi ixtisası almışdır. O, 1975-ci ildə təyinatla Carlı Kəşfiyyat Qazma İdarəsində qazmaçı kimi əmək fəaliyyətinə başlamışdır. 1975-1977-ci illərdə həmin idarədə qazmaçı, mühəndis-texnoloq, buruq ustası kimi Muradxanlı sahəsində kəşfiyyat və istismar quyularının qazılmasında fəal iştirak etmişdir.

V.İmaməliyev 1977-ci ildən Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində işləyir. O, Zərdab, Əmirarx, Tərs Dəllər, Kürsəngi sahələrində dərin kəşfiyyat quyularının qazılmasında fəal iştirak etmişdir. Bu illər ərzində mühəndis-texnoloq, buruq ustası, sahə rəisinin müavini, KMTX-in növbə rəisi və rəisi vəzifələrində çalışmışdır. İşlədiyi müddət ərzində 8 səmərələşdirici təklif vermiş, yeni texnika və texnologiyanın tətbiqində, dərin quyuların qazılmasında fəal iştirak etmişdir.

Vidadi İmaməliyev hazırda Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində mərkəzi texniki xidmətin rəisi vəzifəsində işləyir.



## GƏRGİN ƏMƏK SƏRF ETMİŞDİR

Cavadov Telman Məmmədhəsən oğlu 1952-ci ildə Salyan rayonunda anadan olmuşdur. 1969-cu ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutunun neft və mexanika fakültəsinin axşam şöbəsinə daxil olmuşdur.

T. Cavadov 1971-1973-cü illərdə hərbi xidmətdə olmuş, 1969-1978-ci illərdə Bibiheybət mədənlərində işləmişdir. O, institutu bitirdikdən sonra Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində mexanik kimi əmək fəaliyyətini davam etdirmişdir.

Telman Cavadov Zərdab, Tərsdəllər, Ceyrançöl, birinci Palantökən və başqa sahələrdə gərgin əmək sərf etmişdir.

T.Cavadov 1989-cu ildə işləmək üçün İraq dövlətinə ezam olunmuş, neft kontraktında mexanik vəzifəsində çalışmışdır. 1990-cı ildə xarici ezamiyyətdən qayıtdıqdan sonra Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində buruq avadanlığı təmiri sexinin rəisi vəzifəsinə təyin olunmuşdur.

Telman Cavadovun iş yoldaşlarına, ailəsinə qarşı həssas münasibəti, əməyə vicdanlı münasibəti ona hörmət qazandırmışdır. O, harada çalışmasından asılı olmayaraq həmişə öz vicdanının hökmü ilə fəaliyyət göstərir, məsuliyyət hissini heç vaxt unutmur.



## ELEKTRİK SEXİNİN RƏİSİ



Babayev Məmmədəli Əliş oğlu 1947-ci il iyun ayının 2-də Salyan rayonunun Kür Qaraqaşlı kəndində anadan olmuşdur.

M. Babayev 1971-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun energetika fakültəsini bitirmişdir. Həmin il Düşənbə Mərkəzləşdirilmiş Montaj İdarəsində usta işləmişdir. Bir il sonra o, respublikaya qayıtmış və öz ixtisası üzrə Əli Bayramlı QRES-də işləməyə başlamışdır. Az sonra yenidən iş yerini dəyişərək Salyan Plastik Kütlə Emalı zavodunda elektrik, mühəndis elektrik, sex rəisi vəzifələrində işləmişdir.

Məmmədəli Babayev sonralar Kürsəngi Qazma İşləri İdarəsində elektrik mühəndisi, elektrik avadanlıqlarının təmiri üzrə elektrik mexaniki, Kürətrafı QİI-də baş energetik, Qobustan KTİİ-də elektrik sexinin rəisi vəzifələrində fəaliyyət göstərmişdir.

M.Babayev hazırda Qobustan KTİİ-də elektrik sexinin rəisi vəzifəsində fəaliyyətini davam etdirir.

Məmmədəli Aristotelin bu fikrini həmişə xatırlayır: "Səadəti məqsədlərimizdə deyil, enerjimizdə axtarmaq lazımdır". M. Babayev də öz məqsədlərini həyata keçirərkən öz gücünə, enerjisinə arxalanır, heç bir çətinlik onu qorxutmur.



## HƏM DƏNİZDƏ, HƏM QURUDA

Yusifov Mehman Həbulla oğlu 1954-cü il iyul ayının 6-da Cəlilabad rayonunun Həziabad kəndində anadan olmuşdur. 1970-ci ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur. 1975-ci ildə həmin institutu bitirmiş və kəşfiyyatçı ixtisası qazanmışdır.

M.Yusifov institutu bitirdikdən sonra təyinatla Sahil Dəniz Kəşfiyyat Qazma İşləri İdarəsinə göndərilmiş, burada qazmaçı köməkçisi kimi əmək fəaliyyətinə başlamışdır. Sonra mühəndis, mühəndis-texnoloq, mühəndis texniki, xidmət sahəsinin böyük geoloqu, geoloji şöbənin rəis müavini, Qalmaz yeraltı qazsaxlama stansiyasında baş geoloq, Qobustan Kəşfiyyat Qazma İşləri İdarəsində böyük geoloq,geoloji şöbənin rəisi işləmişdir. 1997-ci ildən isə Qobustan KQİİ-nin Həmkarlar İttifaqı Komitəsinin sədridir.

M.Yusifov həm dənizdə, həm də quruda bir çox neft və qaz yataqlarının açılmasında yaxından iştirak etmişdir. Mehman Yusifov işlədiyi müddətdə bir çox elmi konfranslarda iştirak etmiş, bir sıra elmi məqalələri kütləvi informasiya vasitələrində çap edilmişdir. Bir çox fəxri fərman və digər mükafatlara layiq görülmüşdür.

Mehman müəllim həmişə adamları düzgün hərəkət etməyə, vicdanlı, əxlaqlı olmağa çağırır. O, V.Paskalın sözlərini tez-tez xatırladır: "Vicdan bizim malik olduğumuz ən yaxşı əxlaq kitabıdır, yoldan azmamaq üçün ona tez-tez baxmaq lazımdır".



## PROFİLAKTİK DƏSTƏNİN KOMANDİRİ



Hüseynov Seyid Hüseyn Mir Əvsər oğlu 1934-cü il oktyabr ayanın 15-də Bakı şəhərində fəhlə ailəsində anadan olmuşdur. O, 1953-cü ildə orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra həmin ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) neft-mədən fakültəsinə daxil olmuşdur. Seyid Hüseyn Hüseynov 1958-ci ildə institutun tam kursunu bitirərək "Neft və qaz yataqlarının işlənməsi" ixtisasına yiyələnmişdir. Dövlət İmtahan Komissiyasının 1958-ci il 05 iyun tarixli qərarı ilə ona "dağ mühəndisi" ixtisası verilmişdir.

O, 1958-ci ildə təyinatla M. Əzizbəyov adına Neft Mədənləri İdarəsinin Qazma kontorunda əmək fəaliyyətinə başlamış və 1961-ci ilə qədər həmin idarədə qazmaçı və buruq ustası vəzifələrində çalışmışdır.

1961-1970-ci illərdə "Azərbaycan Dəniz Neft Kəşfiyyatı" trestinin 1 saylı Qazma idarəsində buruq ustası, sahədə və texniki şöbədə böyük mühəndis vəzifələrində çalışmışdır. 1970-1974-cü illərdə "İliç Buxtası" adına Dəniz Kəşfiyyat Qazma İdarəsində texniki şöbənin rəisi, MMTX-nin rəisi vəzifələrində səylə və bacarıqla işləmişdir.

S.Hüseynov 1974-1989-cu illər ərzində "Bulla" DKQİ-də buruq rəisi, MMTX-nin rəisi, idarənin Baş mühəndisi kimi fəaliyyət

göstərmişdir. 1989-1992-ci illərdə Vyetnam Sosialist Respublikasına ezam olunan Seyid Hüseyn Hüseynov buruq rəisi vəzifəsində əlindən gələni əsirgəməmiş, dost ölkədə neft hasilatının artırılmasında yaxından iştirak etmişdir. Vyetnamdan qayıtdıqdan sonra 1994-cü ilə kimi Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin "Bulla" DKQİ-də MMTX-nin rəis müavini vəzifəsində işləmişdir.

O, 1994-cü ildən neft və qaz sənayesinin ən mürəkkəb və məsuliyyətli sahələrindən biri olan "Fontana Qarşı Dağ-mədən Xilasetmə Hərbiləşdirilmiş Hissəsi"ndə Abşeron profilaktik dəstəsinin komandiri vəzifəsində çalışır.

Hüseynov Seyid Hüseyn 46 illik əmək fəaliyəti ərzində ömrünün çox hissəsini dənizdə ən dərin quyuların qazılması texnologiyasının inkişafına və təkmilləşdirilməsinə həsr etmiş, özünü qazma işləri üzrə yüksək ixtisaslı mühəndis, təcrübəli təşkilatçı kimi göstərmişdir. O, öz fəliyyətindəki uğurlara hər şeydən əvvəl yüksək peşəkarlığı, özünə və başqalarına olan tələbkarlığı və işgüzarlığı sayəsində nail olmuşdur.

S.Hüseynov dəniz şəraitində ən dərin quyuların qazılmasında və onların mənimsənilməsində əldə etdiyi nailiyyətlərə görə 1986-cı ildə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. O, Respublikanın Əmək veteranıdır. Ailəlidir, üç övlad atasıdır.

Təvazökarlığı və ziyalılığı ilə seçilən Hüseynov Seyid Hüseyn bu gün ömrünün yetkin çağını yaşayır.



## RAYON MÜHƏNDİSİ



Mehdiyev Cəbrayıl İmran oğlu 1943-cü il mart ayının 24-də Zəngilan rayonunun Nəcəflər kəndində dəmiryolçu ailəsində anadan olmuşdur. 1960-cı ildə Mincivan qəsəbəsindəki 25 saylı dəmiryol orta məktəbini bitirmişdir. Həmin ildə ali məktəbə daxil ola bilmədiyi üçün o, Bakıdakı 2 saylı texniki peşə məktəbində oxumağı qərara almışdır. Sonra C. Mehdiyev Torpaqşünaslıq İnstitutunda xəritəşünas kimi işə düzəlmiş, Azərbaycan Neft və Kimya İnstitutunun axşam şöbəsinə daxil olmuşdur.

C.Mehdiyev 1963-cü ildə qazandığı ixtisası üzrə "Azenerjisazlama" müəssisəsində istilik və turbin avadanlıqlarını sazlama sexində texnik kimi işə başlamışdır. C.Mehdiyev 1963-1966-cı illərdə Almaniya Demokratik Respublikasında hərbi xidmətdə olmuş, xidmətini başa vurduqdan sonra isə "Azərneftkəşfiyyat"ın 2 saylı idarəsində çilingər, buruq alətləri meydançasının rəisi, buruq avadanlıqları mühəndisi, hərbiləşdirilmiş dəstədə tağım komandiri vəzifələrində işləmişdir. C.Mehdiyev 1990-1994-cü illərdə Vyetnamda çalışmış, sonra doğma vətənə qayıdaraq əvvəlki işində fəaliyyətini davam etdirmişdir.

C.Mehdiyev 1994-cü ildən fontana qarşı dağ mədənxilasetmə hərbi hissəsinin cənub dəstəsində rayon mühəndisi vəzifəsində çalışır.

Mütərəqqi fin yazıçısı Larin Martti yazmışdır: "Yaşamağı bacarmaq hər damcı ilhama 99 damcı tər qatmaqdan ibarətdir". Cəbrayıl müəllim də həyatın mənasını zəhmətdə görür.



## TÜMEN - MURADXANLI

Babayev Xankişi Balakişi oğlu 1958-ci il noyabr ayının 23-də İmişli rayonunun Ölcələr kəndində kolxozçu ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutuna daxil olmaq arzusu ilə sənədlərini həmin təhsil ocağına vermiş, lakin müsabiqədən keçə bilməmişdir. Bu uğursuzluq onu ruhdan salmamışdır.

Xankişi bir il kolxozda işlədikdən sonra neftçi olmaq fikrinə düşmüş, 1976-cı ildə Azərbaycan Neft və Kimya İnstitutuna daxil olmuşdur. O, burada dağ mühəndisi ixtisası qazanmış, təyinatla Uzaq Şərqə-Tümen vilayətinin Nijnevartovsk şəhərinə işləməyə göndərilmiş, NQÇİ-də quyuların yeraltı təmiri sexində operator kimi əmək fəaliyyətinə başlamışdır. Sonra da usta vəzifəsinə keçmişdir.

X.Babayev 1982-ci ildə respublikaya qayıtmış "Muradxanlı" NQÇİ-də mühəndis işləmiş, 1988-ci ildə quyuların yeraltı və əsaslı təmiri sexində usta vəzifəsinə keçirilmişdir. O, burada böyük mühəndis işləmişdir. 1998-ci ildən "Muradxanlı" neft mədənində "Neft və qazçıxarma" sexinə rəhbərlik etmişdir.

Xankişi Babayev Muradxanlı LNM-də NQÇİ-nin rəisi vəzifəsində fəaliyyət göstərir.

L.N.Tolstoy demişdir: "Əgər siz əmək növünü qabiliyyətinizə görə seçə bilsəniz və bütün varlığınızı ona sərf edə bilsəniz xoşbəxtlik özü sizi axtarıb tapacaqdır...". Bax, elə Babayev Xankişi Balakişi oğlu da əmək növünü öz qabiliyyətinə görə seçə bilmişdir.





## DƏRİN FİKİRLİ GEOLOQ

Həsənov Rəşid Əbdülhəsən oğlu 1935-ci il mart ayının 18-də Neftçala rayonunun Bankə kəndində anadan olmuşdur. 1952-ci ildə Bakı şəhərində Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, 1957-ci ildə həmin institutun geoloji kəşfiyyat fakültəsini bitirmişdir. Həmin il təyinatla Rusiyanın Çita şəhərinə işə göndərilmişdir. Orada Tuço İlinsk axtarış dəstəsində kiçik geoloq vəzifəsində çalışmışdır.

Rəşid Həsənov 1958-ci ildə Azərbaycana qayıtmış və Əli Bayramlı şəhərində "Şirvanneft" Neft Mədən İdarəsinin birinci mədənində neftçıxarma operatoru vəzifəsinə işə qəbul edilmişdir. 1959-1967-ci illərdə idarədə mühəndis geoloq, böyük geoloq və geoloji şöbənin rəisi vəzifələrində çalışmışdır.

R.Həsənov 1967-ci ildə əmək müqaviləsi əsasında Rusiyaya getmiş və "Saxalinneft" Birliyində əvvəl "Paramoy" Neft Mədən İdarəsinin, sonra "Kolendoneft" Neft Mədən İdarəsinin baş geoloqu vəzifəsində işləmişdir. 1969-cu ilin noyabr ayında SSRİ Neft Sənayesi Nazirliyinin əmri ilə Azərbaycan Neft Sənayesi Nazirliyi sisteminə keçirilmiş, 1979-cu ilin ortalarına qədər "Şirvanneft" NQÇİ-nin baş geoloqu olmuşdur.

R.Həsənov sonralar Əli Bayramlı Sənaye Texnikumunun direktoru, elmi-tədqiqat sexində böyük geoloq, baş geoloq, "Şirvanoyl" Azərbaycan - İngiltərə müştərək müəssisəsində baş

geoloq vəzifəsində çalışmışdır. 1999-2000-ci illərdə müştərək müəssisənin baş direktoru, sonra baş geoloq işləmiş, 2002-ci ildən isə Rəşid Həsənov təqaüdə çıxmışdır.

R.Həsənov Qarabağlı, Kəmaləddin, Muradxanlı və Cənub - qərbi Muşovdağ neft və qaz yataqlarının açılmasının bilavasitə fəal iştirakçısı olmuş, SSRİ Neft Sənayesi Nazirliyinin mükafatlarına layiq görülmüşdür. O, 1973-cü ildə istehsalatda işləyə-işləyə elmi fəaliyyətini davam etdirmişdir. "Müxtəlif növlü kollektor layların geoloji quruluşunun, neftliliyinin xüsusiyyətləri və onların ayrı-ayrı mərhələlərdə işlənməsi məsələləri" mövzusunda dissertasiya müdafiə etmişdir. Həmin dissertasiya işi 1974-cü ildə Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin medalına layiq görülmüşdür. R. Həsənov 1980-1985-ci illərdə Əli Bayramlı şəhər "Bilik" Cəmiyyətinin "Fəal əməyə görə" mükafatı ilə və "Azərbaycanda milyard ton neft hasilatı" döş nişanı ilə təltif edilmişdir. O, bir neçə ictimai-elmi təşkilatların, o cümlədən Amerika Geoloqlar Assosiasiyasının Azərbaycan bölməsinin üzvü seçilmişdir.

Rəşid Həsənov 38 elmi işin, 100-dən çox səmərəli təklifin müəllifidir.

R.Həsənov həm də qələm əhlidir. Onun rus dilindən Azərbaycan dilinə tərcümə etdiyi yazılar oxücuların marağına səbəb olmuşdur. Onun çoxsaylı yazıları mətbuatda dərc olunmuşdur. O, ovçuluqla və arxeologiya məsələləri ilə məşğul olmağı çox sevir. Onun həyatsevərliyinə həsr olunmuş yazılar, video kasetlər vardır. 50-dən çox elmi-tematik işin rəhbəri və fəal iştirakçısı olmuş, 40-dan çox tələbənin diplom işinə rəhbərlik etmişdir.

R.Həsənov Moskvada, Ufada, Tümendə, Volqoqradda, k-raynada, Qazaxıstanda və başqa şəhərlərdə elmi konfranslarda Azərbaycan neftçilərini təmsil etmişdir.

Yeni fikirli geoloq R.Həsənov "Muşovdağın tektonik sifəti", "Yetişməmiş neft layları" və başqa mövzulu sanballı məqalələrini "Azərbaycan Neft Təsərrüfatı" jurnalında çap etdirmişdir.



## SƏY GÖSTƏRİR



Aslanov Xanbala Kamal oğlu 1957-ci il fevral ayının 10-da Şamaxı rayonunun Kürdəmic kəndində doğulmuşdur. 1980-ci ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunu (indiki Neft Akdemiyası) bitirmiş, neft və qaz yataqlarının işlənməsi texnologiyası və kompleks mexanikləşdirilməsi üzrə dağ mühəndisi ixtisasına yiyələnmişdir.

X. Aslanov 1980-ci il noyabr ayının 26-da "Şirvanneft" NQÇİ-də 4-cü dərəcəli neftçıxarma operatoru kimi əmək fəaliyyətinə başlamışdır. Sonralar o, ETİİS-də neft-mədən laboratoriyasında mühəndis, "Şirvanneft" NQÇİ-də komsomol komitəsinin katibi, "Şirvan" Texnoloji İdarəsində partiya təşkilatının katibi vəzifələrində işləmişdir.

X.Aslanov 1990-cı ildə Bakı Ali Partiya Məktəbinə daxil olmuş, həmin məktəbi bitirdikdən sonra Əli Bayramlı şəhər Partiya Komitəsində təlimatçı kimi fəaliyyət göstərmişdir.

Xanbala Aslanov sonrakı illərdə Araz zavodunda kadrlar şöbəsinin rəisi, avtoservisdə baş mühəndis, Araz zavodunda Həmkarlar İttifaqı Təşkilatının sədri, "Şirvanneft" NQÇİ-də quyuların əsaslı təmir sexində usta, neftçıxarma ustası, rəis müavini, rəis, istehsalat xidməti bazasında rəis müavini, mühəndis, "Şirvanoyl" BMM-in baş mühəndisi, texniki direk-

torun birinci müavini vəzifələrində çalışmışdır.

X.Aslanov 2003-cü ilin iyun ayından bölgə direktoru vəzifəsində işləyir.

Xanbala müəllim öz üzərində yorulmadan çalışır, ona həvalə edilmiş vəzifənin öhdəsindən ləyaqətlə gəlməyə səy göstərir.

Xanbala Aslanov işlə, əməklə məşğul olanda sanki qəlbinə qüvvət gəlir. Odur ki, onu həmişə iş başında görmək olur. M. Hadinin təbirincə desək, "əmək zülmət içində bir işıqdır, qəlbə qüvvətdir". Xanbala müəllimin də qəlbi əməkdən qüvvət alır.



## QUYULARIN OPTİMAL REJİMİ



Məmmədov Abuzər Muxtar oğlu 1929-cu il iyul ayının 2-də Bakı şəhərində anadan olmuşdur. orta təhsili Bakı şəhərinin 25, 13 və 1 saylı ibtidai və orta məktəblərində almışdır. 1948-ci ildə orta təhsilini başa vurduqdan sonra Az.Sİ-nun energetika fakültəsinə daxil olmuş maddi vəziyyətin çətin olması nəticəsində 3 aydan sonra institutu atıb Bakı şəhərindəki 5 saylı çörək zavodunda fəhləlik etmişdir.

1949-cu ildə yenidən Azərbaycan Sənaye İnstitutunun "Neft-mədən" fakültəsinə daxil olmuş, institutun Həmkarlar komitəsi sədrinin müavini kimi ictimai vəzifədə çalışmışdır.

1954-cü ildə institutu bitirib təyinatla "Orconokidzeneft" Neft Mədənlər Trestinin sərəncamına göndərilmişdir. Burada o usta, sahə rəisi, mədənin böyük mühəndisi, mədən müdiri vəzifələrində çalışmışdır. 1961-ci ilin fevral ayından 1962-ci ilin may ayına qədər Azərbaycan Neft Maşınqayırma İnstitutunda böyük mühəndis işləmiş, sonra yenidən "Orconokidzeneft" neft mə`dənlərirnə qayıtmışdır.

1962-ci ilin may ayından 1974-cü ilin iyul ayına qədər "Orconokidzeneft" NMİ-nin ETİS-də şöbə rəisi, sex rəisinin müavini və sonra Mərkəzi mühəndis-texnoloji şöbəsinin rəisi vəzifəsində çalışmışdır.

1974-1984-cü illərdə "Əzizbəyovneft" NMİ-də İdarənin baş mühəndisi vəzifəsində (10 il) çalışmışdır.

1971-1974-cü illərdə əlavə olaraq Bakı axşam neft texnikumunda, sonralar isə 1974-1984-cü illərdə Azəneft Birliyinin Tədris-kurs kombinatında əvəzçiliklə müəllim işləmişdir.

O, 1984-1986-cı illərdə Az.NSETLİ-da böyük mühəndis, 1986-1993-cü ilə qədər "Normativ tədqiqat stansiyası"nda şöbə rəisi vəzifəsində çalışmışdır. 1993-cü ilin fevral ayından 2000-ci ilə qədər ARDNŞ-in "Elm və texniki tərəqqi" şöbəsində baş mütəxəssis vəzifəsində çalışmışdır. 2000-ci ildən bu günə qədər NTM-də baş mütəxəssis vəzifəsində çalışır.

100-ə qədər ixtira və səmərələşdirici təkliflərin, 15-ə qədər elmi məqalənin müəllifidir. Dəfələrlə keçmiş SSRİ-nin ÜİXTNS-nin medal və mükafatları ilə təltif olunmuşdur. Əmək veteranıdır. Neft sənayesi əlaçısıdır. Hal-hazırda onun təklif etdiyi üsulla kompres quyularının optimal rejimi təyin olunur.



## ƏLAÇI NEFTÇİ GEOLOQ - ANA



Xanlarova Şövkət Hüseyn qızı 1926-cı il yanvar ayının 29-da Bakı şəhərində anadan olmuşdur.

O, 1949-cu ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunu (indiki Neft Akademiyası) dağ mühəndisi geoloqu ixtisası üzrə bitirmişdir. Elə həmin il "Qobustan" Neft Kəşfiyyat Trestində işə başlamışdır.

1953-cü ildə üç birlik birləşərək "Azneft" İB-nin yaradılması ilə əlaqədar Ş. Xanlarova "Azneft" Geologiya İdarəsinin yeni yataqların kəşfiyyat sektorunun rəhbəri vəzifəsinə təyin edilmişdir. 1953-1992-ci illərdə "Azneft" İB-də müxtəlif dəyişikliklər olmasına baxmayaraq, Şövkət xanım həmişə böyük geoloq, qrup rəhbəri vəzifələrində çalışmışdır.

1994-cü ildən Ş. Xanlarova kompleks geoloji ekspedisiyasında əməli təhlil partiyasının rəisi vəzifəsində işləyir. İşinin nəticələri faydalıdır.

O, "Azneft" İB-də işlədiyi dövrdə 15-dən artıq (Kürovdağ - Mişovdağ, Qarabağlı, Kürsəngi, Qaradağ, Səngəçal-Duvannı-dəniz, Bulla adası, Bulla-dəniz, Cənub Banka və s.) yataqların kəşf edilməsində bilavasitə iştirak etmişdir.

Ş.Xanlarova əfsanəvi "Neft Daşları" neft-qaz yatağının kəşfinə görə diplomla və "Yatağı ilk kəşf edən" döş nişanı ilə təltif

olunmuşdur.

Keçmiş SSRİ-nin Neft Sənayesi Nazirliyinin əmri ilə o, yeni yataqların kəşf olunmasında iştirak etdiyinə görə mükafat almışdır.

1982-ci il dekabrın 3-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Şövkət Xanlarovaya "Azərbaycan Respublikasının Əməkdar geoloqu" fəxri adı verilmişdir.

Neft sənayesində işlədiyi müddətdə "Neft Sənayesinin əlaçısı" döş nişanı ilə, işdə fərqləndiyinə görə SSRİ Neft Sənayesi Nazirliyinin Fəxri fərmanı ilə, "Azneft" İB-nin əmri ilə Fəxri fərmanlarla və "Azərbaycanda milyard ton neft çıxarılmasının qeyd olunması" döş nişanı ilə təltif olunmuşdur.

Şövkət xanım əmək veteranıdır. İki övladı var.

Azərbaycan neftçiləri neftçi-ana geoloq Şövkət xanım Xanlarova ilə fəxr edirlər.



## GEOLOJİ FONDA TƏHVİL VERİLMİŞDİR



Əlipaşa Həsən oğlu Əfəndiyev 11 avqust 1928-ci ildə Ağstafa rayonunun Poylu kəndində anadan olmuşdur.

1947-ci ildə Ağstafa dəmiryol məktəbini bitirmiş, 1948-ci ildə Gəncə geoloji-axtarış kontoruna (GAK) işə qəbul olunmuşdur. 1951-ci ilə qədər xəritəalma və axtarış partiyalarında kollektor, texnik-geoloq vəzifələrində, 1951-1960-cı illərdə Abşeron Xəzəryanı GAK-da texnik-geoloq, geoloq, böyük geoloq vəzifələrində çalışmışdır.

1951-ci ildə M. Əzizbəyov adına Azərbaycan Qırmızı Əmək Bayrağı ordenli Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakultəsinə daxil olmuş, 1955-ci ildə həmin institutu bitirmişdir.

1958-ci ildə Siyəzən monoklinalının Zeyvə sahəsində neft yatağı açılmışdır. Ə. Əfəndiyev orada sahənin geoloqu işləmişdir.

1960-cı ildən 1965-ci ilə qədər Azərbaycan Nazirlər Soveti yanında Geoloji idarənin xəritəalma partiyasında geoloq və böyük geoloq vəzifələrində çalışmışdır.

1965-ci ildən 1975-ci ilə qədər Quruda GKK-da böyük geoloq, xəritəalma partiyasının rəisi, idarənin geoloji şöbəsinin rəisi, 1975-ci ildən 1980-cı ilə qədər Dənizdə GK idarəsində böyük geoloq və tematik partiyanın rəisi olmuşdur.

Ə.Əfəndiyev tematik partiyanın Mərkəzi Bakı arxipelaqının antiklinal zonasının qalxımının, Şimal Bakı arxipelaqının və Abşeron-Balaxanıyanı zonada aparılmış işlərdə əsas icraçı olmuşdur.

1980-ci ildən 1991-ci ilə qədər "Dənizneftqazelmitədqiqatlayihə" ETLİ-də qrup rəisi, bölmə rəisi və laboratoriya rəhbəri vəzifələrində çalışmışdır. "Günəşli", "Azəri", "Kəpəz", "Əşrəfi", "Naxçıvan", "Şah-dəniz" yataqlarının axtarış-kəşfiyyat quyularının qazma layihələrinin hazırlanmasında əsas icraçı, Xəzər dəniz neft və qaz ehtiyatlarının hesablanması və Kompleks layihəsinin tərtib olunmasının əsas icraçısı olmuşdur.

Ə.Əfəndiyev 1992-ci ildən 2003-cü ilin may ayına qədər Quruda NQÇ İB-nin Kompleksli Geoloji Topoqrafiya Ekspedisiyasında "Bank məlumatlarının toplanması və sistemləşdirilməsi" partiyasının rəisi olmuşdur. Struktur dəyişikliyi ilə əlaqədar hal-hazırda "Azneft" İB-nin Kompleks Geoloji Kəşfiyyat və Topoqrafiya İdarəsində həmin vəzifəni icra edir. Bilavasitə onun iştirakı ilə XX əsrin 20-30-cu illərindən başlamış bu günə qədər respublikamızın quru sahələrində qazılmış axtarış və kəşfiyyat quyularının 100-dən artıq qazma göstəriciləri toplanılıb sistemləşdirilərək cədvəllər formasına salınmış və hesabatlar şəklində "Azneft" İB-nin geoloji fonduna təhvil verilmişdir.



## QAZÇIXARMA SEXİNİN RƏİSİ



Xəlilov Müğdət Səlim oğlu 1954-cü il sentyabrın 27-də Ucar rayonunun Alpı kəndində anadan olmuşdur.

1970-ci ildə Ucar rayonu Qulubənd kənd orta məktəbini bitirmiş, həmin ildə də Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Neft Akademiyası) daxil olmuşdur. 1974-cü ildən 1976-cı ilə kimi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra təhsilini davam etdirmiş və 1978-ci ildə ANKİ-nu bitirmişdir.

O, 1977-ci ildə "Balaxanıneft" NQÇİ-nə neft və qaz hasilatı üzrə operator peşəsinə işə qəbul edilmişdir. 1977-ci və 1992-ci illər ərzində neft və qaz hasilatı üzrə operator, mədən geoloqu, böyük geoloq vəzifələrində işləmişdir. M. Xəlilov 1992-ci ildən "Balaxanıneft" NQÇİ-nin 4 saylı neft və qazçıxarma sexinin rəisi vəzifəsində çalışır.

Müğdət Xəlilov bir sıra səmərələşdirici təkliflərin müəllifidir. Müxtəlif orqanlar tərəfindən diplom, fəxri fərmanlarla təltif olunmuşdur. 2001-ci iilin sentyabr ayında mərhum prezidentimiz Heydər Əliyevin fərmanı ilə "Tərəqqi" medalına layiq görülmüşdür.

Ailəlidir, üç övladı var.



## İCTİMAİYYƏTÇİ QADIN

İsmayılova Çimnazxanım Bernalı qızı 1952-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1969-cu ildə orta məktəbi bitirdikdən sonra Oktyabr inqilabı adına Bakı Neft Tnxnikumuna (Bakı Neft Energetika Kolleci) daxil olmuşdur. 1972-ci ildə texnikumu bitirərək təyinatı üzrə "Balaxanıneft" NQÇİ-nə neft və qaz hasilatı üzrə operator peşəsinə işə qəbul edilmişdir.

1972-ci ildə Ç. İsmayılova təhsilini davam etdirmək üçün Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) mexanika fakültəsinə daxil olmuş və 1978-ci ildə həmin institutu bitirmişdir.

O, 1975-1991-ci illər ərzində Azərbaycan SSR Ali Sovetinə 3 çağırış deputat seçilmişdir.

İşlədiyi müddət ərzində "Əməkdar neftçi" adına layiq görülmüşdür. Ç. İsmayılova "Neftçi qadınlar" şurasının, neftçilərin Həmkarlar İttifaqı Komitəsinin üzvü, "Balaxanıneft" NQÇİ-nin Qadınlar şurasının sədridir. O, Ümumittifaq və Ümumrespublika Həmkarlar İttifaqı qurultaylarının iştirakçısı olmuşdur. Yeni Azərbaycan Partiyısının üzvüdür. YAP-ın birinci və ikinci qurultaylarına nümayəndə seçilmişdir.





## TƏCRÜBƏLİ OPERATOR

Məmmədova Tamara Qurban qızı 1933-cü il yanvar ayının 27-də Bakı şəhərində anadan olmuşdur.

1951-ci ildə orta məktəbi bitirib Oktyabr inqilabı adına Bakı Neft Texnikumuna (indiki Bakı Neft Energetika Kolleci) daxil olmuşdur. O, əmək fəaliyyətinə 1955-ci ildə texnikumu bitirdikdən sonra təyinatı üzrə "Balaxanıneft" NQÇİ-nin 4 saylı neft və qazçıxarma sexində (NQÇS) başlamışdır. 1957-ci ildə texnik-geoloq vəzifəsinə təyin edilmişdir. Lakin 1971-ci ildə texnik-geoloq vəzifəsi ləğv edildikdən sonra T. Məmmədovanı neft və qaz hasilatı üzrə operator peşəsinə təyin etmişlər.

İşlədiyi müddət ərzində bir çox fəxri fərmanlarla, o cümlədən 1970-ci ildə "Lenin" yubileyi medalı ilə təltif olunmuş, 1997-ci ildə "Əmək veteranı" adına layiq görülmüşdür.

T. Məmmədova 1973-cü ildə iki dəfə rayon Sovetinə deputat seçilmiş, 2000-ci ildən Sabunçu rayon YAP təşkilatının üzvüdür. 1987-ci ildən Həmkarlar İttifaqı Komitəsində sədr vəzifəsini icra edir.



## GEOLOJİ İŞLƏR QAYDASINDADIR

Kurkina Lidiya İvanovna 1942-ci il aprel ayının 27-də Qusar rayonunda fəhlə ailəsində anadan olmuşdur.

1962-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) geoloji-kəşfiyyat fakültəsinin əyani şöbəsinə daxil olmuşdur. 1967-ci ildə həmin ali təhsil ocağını bitirərək dağ geoloqu mühəndisi ixtisasına yiyələnmişdir.

O, 1968-ci ilin mart ayının 13-dən təyinatı üzrə "Balaxanıneft" NQÇİ-nə işə qəbul olunmuşdur. 1968-ci və 1992-ci illərdə geoloq vəzifəsində çalışmışdır. 1992-ci ildən bu günə kimi 4 saylı neft və qazçıxarma sexində geologiya işləri üzrə rəis müavini vəzifəsində işləyir.

L.Kurkina işlədiyi müddət ərzində bir çox fəxri fərmanlarla təltif olunmuşdur. 1997-ci ildə "Əmək veteranı" adına layiq görülmüşdür. 2002-ci ildən Sabunçi rayon YAP təşkilatının üzvüdür.



## O, İŞİNƏ MƏSULİYYƏTLƏ YANAŞIR



İbrahimov Rafiq Salman oğlu 1958-ci il fevralın 10-da Zəngəzurun Sisiyan rayonundakı Dəstəkert kəndində anadan olmuşdur. 1965-ci ildə ailəsi ilə Bakı şəhərinin Sahil qəsəbəsinə köçmüşdür. Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir.

"Xəzərdənizneft" (Dədə Qorqud) üzən qazma qurğusunda qazmaçı köməkçisi, "Şelf-2" üzən qazma qurğusunda mühəndis-texnoloq, rayon mühəndisi, Xəzər hərbiləşdirilmiş hissəsinin Cənub dəstəsinin komandir köməkçisi, Cənub dəstəsinin konmandiri, buruq ustası, Azərbaycan Respublikası prezidentinin işlər idarəsinin qrup rəhbəri olmuş, hazırda sektor müdiri işləyir. O, işinə məsuliyyətlə yanaşır.

Texniki elmlər namizədi Rafiq İbrahimov bir çox elmi əsərin, səmərələşdirici təklifin müəllifidir. Əməyi bir çox mükafatlara layiq görülmüşdür.



## FƏNN KOMİSSİYASININ SƏDRİ

Həmişəyev Akif Şirin oğlu 1934-cü ildə Qazax rayonunun Musaköy (indiki Xanlıqlar kəndi) kəndində ziyalı ailəsində anadan olmuşdur.

1952-ci ildə Qazax şəhər 1 saylı orta məktəbinin rus bölməsini medalla bitirərək, həmin ildə də Azərbaycan Sənaye İnstitutuna (indiki Neft Akademiyası) qəbul olunmuşdur. 1957-ci ildə həmin institutun Geoloji fakültəsinin "Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" ixtisası üzrə bitirmiş və təyinatla Neft Daşlarınnda əmək fəaliyyətinə başlamışdır.

Operator, mühəndis, böyük geoloq və şöbə müdiri, texnikum direktoru kimi müxtəlif vəzifələrdə işləmişdir.

1971-ci ildə Gilov adasında Neft-Qazçıxarma idarəsində böyük geoloq, geoloji şöbənin müdiri vəzifəsində işləmişdir, 1975-ci ildə aspiranturanı bitirib elmi işini müdafiə edərək, geologiya-mineralogiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

İşlədiyi dövr ərzində dövlətimiz tərəfindən və eyni zamanda Əfqanistan dövləti tərəfindən medallarla və fəxri fərmanlarla təltif edilib. Əmək veteranıdır. 2 monoqrafiya, 30-a yaxın elmi işlərin, 12 fənn proqramının və 8 şer kitabının müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Hal-hazırda Bakı Neft-Energetika kollecində fənn komissiyasının sədri işləyir.



## FONTANA QARŞI MÜBARİZƏDƏ



Əlizadə Novruz Teymur oğlu 1947-ci il mart ayının 21-də Bakı şəhərində fəhlə ailəsində anadan olmuşdur. N.Əlizadə 1966-ci ildə Bakı şəhər 199 saylı orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra həmin ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) neft-mədən fakültəsinə daxil olmuşdur. 1972-ci ildə həmin ali təhsil ocağını bitirərək "Neft və qaz yataqlarının işlənməsi" üzrə dağ mühəndisi ixtisasına yiyələnmişdir. O, ali təhsil almaqla bərabər 1969-cu ildə əmək fəaliyyətinə başlamış və "26 Bakı Komissarı" adına NQÇİ-də neftçıxarma operatoru vəzifəsinə işə qəbul olunmuşdur. 1971-ci ilə qədər orada işləmişdir. 1971-1978-ci illərdə Elmi-Tədqiqat İnstitutunda - AzİNMAŞ-da böyük mühəndis vəzifəsində çalışmışdır.

1978-1979-cu illərdə Novruz Əlizadə "Sahil" Dəniz Kəşfiyyat Qazma İdarəsində fontana qarşı avadanlıqlar üzrə mühəndis vəzifəsində işləmişdir. O, hansı vəzifədə işləyirsə-işləsin, hər yerdə özünü bacarıqlı, işgüzar və savadlı br mütəxəssis kimi göstərmişdir.

N.Əlizadə 38 illik iş stajının 25 ildən çoxunu Azərbaycanın neft sənayesində ən ağır və təhlükəli sahəyə - açıq qaz və neft fontanlarının qarşısının alınması üzrə profilaktik işlərin aparılmasına həsr etmişdir. 25 ildən çoxdur ki, o, Fontana Qarşı Dağmədən Xilasetmə Hərbiləşdirilmiş Hissəsində Abşeron dəstəsi-

nin rayon mühəndisi, tağım komandiri, dəstə komandiri vəzifələrində yorulmadan çalışmışdır. Onun rəhbərlik etdiyi profilaktik dəstənin rayon mühəndisləri qarşılarına qoyulan vəzifənin öhdəsindən layiqincə gəlir, istehsalat obyektlərində işçilərlə müxtəlif "həyəcan" siqnalları üzrə təlim-məşqlər keçirir, qazma və yaxud istismar quyularında baş verə biləcək neft-qaz-su təzahürlərinin qarşısını almaq üsullarını neftçilərə həvəslə öyrədirlər. Onlar eyni zamanda müntəzəm olaraq bilik və bacarıqlarını artırırlar. Açıq qaz və neft fontanlarının qarşısının alınmasına dair nəzəri və təcrübi məsələlərin həll edilməsi kimi aktual mövzularda avtoreferat yazmaq və onu müdafiə etmək dəstədə bir ənənə şəklini almışdır.

Əlizadə Novruz Azərbaycan Respublikasının "Əmək veteranı"dır. O, "Əməkdə fərqlənməyə görə medal" ilə təltif olunmuşdur.

Ailəlidir, iki övlad atasıdır. Təvazökarlığı ilə seçilən Novruz Əlizadə bu gün ömrünün yetkin çağını yaşayır.



## 50 İL NEFT SƏNAYESİ SİSTEMİNDƏ



Zeynalov Arif Hacıəmi oğlu 1931-ci il avqustun 15-də Bakı şəhərində neftçi ailəsində anadan olmuşdur.

1947-ci ildə 8 illik təhsili başa vurduqdan sonra meşəbəyi ixtisası üzrə Bakı Meşə Təsərrüfatı Texnikumuna daxil olmuş və 1950-ci ildə həmin texnikumu bitirdikdən sonra gənc mütəxəssis kimi Qutqaşen rayonunda (indiki Qəbələ) əmək fəaliyyətinə başlamışdır.

O, meşəbəyi peşəsində çalışarkən az müddət ərzində rayon ərazisində yeni meşə zolaqlarının salınması və onlara vaxtlı-vaxtında aqro-texniki qulluq göstərilməsi üçün səy və bacarığını əsirgəməmişdir.

A.H.Zeynalov uzaq dağ rayonunda çalışarkən kollektivdə ünsiyyətdə olduğu insanların dərin hörmət və məhəbbətini qazanmışdır.

Lakin neftçi ailəsində dünyaya göz açması, Xəzərin sahilində boya-başa çatması və qəlbən dənizə bağlılığı onu rahat buraxmır, daim özünə cəlb edir.

Bu istək və arzuyla da o 1954-cü ildə öz sevimli peşəsindən ayrılaraq illərlə həsrətində olduğu bir sahəyə - Dəniz neft sənayesinə gəlmiş və "Artyomneft" trestində əmək fəaliyytinə başlamışdır.

1955-ci ildə isə A.H.Zeynalov neft sənayesində daha çətin bir sahəyə "Xəzərdənizneftdonanma" idarəsinin Qəza-Xilasetmə işləri dəstəsində xilasedən-matros vəzifəsində çalışmışdır.

A.H.Zeynalov 1965-ci ildə texnik, 1968-ci ildə isə baş texnik vəzifəsinə irəli çəkilmişdir.

1992-ci ildən o, Xəzər Dəniz Dalğıc Qəza Xilasetmə İşləri İdarəsinin 2 saylı istehsalat sahəsində sahə rəisinin müavini vəzifəsində çalışır.

A.H.Zeynalov 1968-ci ildə sualtı-texniki işlərin yerinə yetirilməsi üzrə dalğıc ixtisasına yiyələndikdən sonra, Xəzər dənizində neft və qaz yataqlarının istismarı prosesində, hidrotexniki qurğuların tikintisində, təmirində və onlara sualtı-texniki xidmət göstərilməsində fəal iştirak etmiş və müxtəlif dövrlərdə çox yüksək əmək göstəricilərinə nail olmuşdur.

O, bacarıqlı və işgüzar bir mütəxəssis kimi işlədiyi müddət ərzində başçılıq etdiyi sahədə ona tapşırılan işin öhdəsindən ləyaqətlə gəlmiş, rəhbərlik etdiyi sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, neftçilər tərəfindən verilən sifarişlərin vaxtlı-vaxtında yerinə yetirilməsi, kollektivdə əmək və icra intizamına nəzarətin gücləndirilməsində öz bilik və təcrübəsini əsirgəməmişdir.

O, nizam-intizama riayət edən, özünə və tabeliyində olan işçilərə qarşı tələbkar, yüksək təşkilatçılıq qabiliyyətinə, kollektivdə layiqli hörmətə malik olan mütəxəssisdir.

A.H.Zeynalov həm də yaşadığı rayonun ərazisində, eləcə də çalışdığı idarənin ictimai işlərində də fəal iştirak edir. Belə ki, o, hal-hazırda Bakı şəhəri Yasamal rayonunun ağsaqqallar şurasının üzvü və idarənin HİK-nin idarə heyətinin üzvü kimi ictimai iş aparır.

O, 1981-ci ildə "Əməkdə fərqlənməyə görə" medalı, 1999-cu ildə isə Azərbaycan Dövlət Neft Şirkətinin Fəxri fərmanı ilə təltif olunmuşdur.



# ÜÇÜNCÜ BÖLMƏ

## HƏYATDA İZİ QALANLAR

### ONLAR XALQIMIZIN SƏADƏTİ UĞRUNDA FƏDAKARLIQ GÖSTƏRMİŞLƏR

**Adıgözəlov Nəsirəddin Seyfəddin oğlu (1926 - 1996)**



Adıgözəlov Nəsirəddin Seyfəddin oğlu 1926-cı ildə Qusarda anadan olmuşdur. 1954-cü ilə qədər koxozda işləmiş, sonra Bakıya gəlmişdir.

Nəsirəddin Adıgözəlov 1954-cü ildə Bakıda "Molotovneft" Neft və Qazçıxarma İdarəsinin (indiki Ə.C.Əmirov adına NQÇİ) quyuların əsaslı təmiri şöbəsində çalışmışdır.

N.Adıgözəlov uzun müddət qazma briqadasına rəhbərlik etmiş, qazma işi üzrə püxtələşmiş və qazma işlərini son dərəcə yüksək səviyyədə bilən bir mütəxəssis kimi yetişmişdir. O, əsasən idarənin yataqlarında nisbətən dayaz (1200 metrə qədər) quyuların qazılması üzrə ixtisaslaşmışdır. Onun uzun illər ərzində qazdığı yüzlərlə neft quyusu uzunömürlü olmuş, həmin quyular bu gün də yüksək neft hasilatı ilə işləyir.

N.Adıgözəlovun əməyi yüksək qiymətləndirilmiş, ona "Azərbaycanın neft ustası" fəxri adı verilmişdir. O, "III dərəcəli əmək şöhrəti", Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif olunmuşdur.

Nəsirəddin Adıgözəlov 1995-ci ildə təqaüdə çıxmış, 70 yaşında Bakıda dünyasını dəyişmişdir.

## Bağırov Akif Əliağa oğlu (1932 - 1994)



Bağırov Akif Əliağa oğlu 1932-ci il iyun ayının 12-də Bakı şəhərində anadan olmuşdur. O, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin faydalı qazıntıların geofiziki üsullarla axtarışı ixtisası üzrə tam kursu bitirmişdir.

A.Bağırov 1957-1959-cu illərdə Qazaxıstanın Aktyubinsk şəhərində geofiziki ekspedisiyanın mühəndis-geofiziki vəzifəsində işləmiş, 1960-cı ildə neft çıxarılması üzrə Azərbaycan Elmi-Tədqiqat İnstitutunun geofiziki laboratoriyasına işə keçirilmişdir. Sonra o, Ümumittifaq Geofizika Elmi-Tədqiqat İnstitutunda böyük mühəndis kimi fəaliyyət göstərmişdir.

A.Bağırov 1968-ci ildə böyük mühəndis-operator kimi Almaniya Demokratik Respublikasına ezam olunmuş, 1972-ci ildə xarici ezamiyyətdən qayıtdıqdan sonra o, yenidən əvvəlki iş yerində böyük mühəndis kimi iş fəaliyyətini davam etdirmişdir. 1962-ci ildən məsul elmi-tədqiqat işləri aparmış, seysmik kəşfiyyat məsələləri ilə məşğul olmuşdur. A. Bağırov uzun illər ərzində ona tapşırılmış işləri yüksək elmi-texniki səviyyədə yerinə yetirmiş, seysmik materialların avtomatik sistemini yaratmışdır.

15 elmi işin müəllifi olan Akif Bağırov "Kommunist əməyi zərbəçisi", "Sosializm yarışının qalibi" döş nişanlarına, müxtəlif fəxri fərmanlara layiq görülmüşdür. Bundan başqa A. Bağırov "Almaniya Demokratik Respublikasının sosialist əməyi fəalı", "ADR-ın sosialist əməyi kollektivi" adlarına layiq görülmüş, 8 fəxri fərmanla təltif olunmuşdur.

Akif Bağırov 1994-cü ildə vəfat etmişdir.



## Qəfərov Fikrət Əli oğlu (1959 - 2002)



Qəfərov Fikrət Əli oğlu 1959-cu ildə Sabirabad rayonunun Abdulyan kəndində anadan olmuşdur. O, 1978-ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş və 1982-ci ildə həmin institutu fərqlənmə diplomu ilə bitirmişdir.

1982-ci ildə institutun təyinatı ilə "Neft Daşları" NQÇ İB-də mühasib vəzifəsində əmək fəaliyyətinə başlamışdır.

1982-1984-cü illərdə hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra F.Qəfərov əvvəlki vəzifəsində işləmiş və 1984-cü ildən 1988-ci ilədək "Neft Daşları" DQİİ-nin baş mühasibi vəzifəsində çalışmışdır.

1988-1990-cı illərdə o, Azərbaycan "Sənayetikintibank"ının Bakı şəhəri Əməliyyat İdarəsinin baş mühasibi, 1990-1991-ci illərdə "Azneft" İB-nin "28 May" adına NQÇİ-nin baş mühasibi işləmişdir.

1991-1993-cü illərdə Fikrət Qəfərov "Şelflayihə" İB-də baş mühasibin müavini, Azərbaycan Respublikası Prezident Aparatı maliyyə şöbəsində müavin, "Azneft" NQÇ Baş idarəsində baş mühasibin müavini vəzifələrində çalışmışdır.

1994-1995-ci illərdə o, yenidən "28 May" adına NQÇİ-nin baş mühasibi vəzifəsinə qayıtmışdır.

1995-ci ildən ömrünün sonunadək F.Qəfərov N.Nərimanov adına NQÇİ-də baş mühasib vəzifəsində fəaliyyət göstərmişdir.

Vaxtsız ölümü ilə əzizlərinin ürəyini yandıran Fikrət Qəfərovun əziz xatirəsi daim onların qəlbində yaşayacaqdır.



## Əliyev İsmayıl Mehdi oğlu
## (1910-2003)

На 93-м году жизни скончался старейший работник нефтяной промышленности Азербайджана Исмаил Мехти оглы Алиев.

И. Алиев родился 23 сентября 1910 года в городе Ереван. В 1924 году поступил в Нухинский педагогический техникум, после окончания техникума в 1929 году работал преподавателем в г. Сальян.

В 1934 году И. Алиев стал студентом геолого-разведочного отделения нефтепромыслового факультета Индустриального института им. Азизбекова, по окончании которого получил специальность инженера-геолога по нефтяным и газовым месторождениям.

В 1940 году И. Алиев поступил в трест "Азморнефтеразведка" и по март 1942 года работал старшим геологом разведки Нафталан. В 1942 году он был призван в армию и участвовал в боях против немецко-фашистких оккупантов до 1943 года. Во время одного из боев, получив тяжелое осколочное ранение, был госпитализирован и до 1944 года находился на лечении в Баку. За участие в боевых действиях И.Алиев бал награжден орденом Отечественной войны 1 степени, медалью "За оборону Кавказа" и другими боевыми наградами.

После демобилизации Исмаил Алиев работал на разных должностях в системе нефтяной промышленности Азербайджана: главным геологом конторы бурения Нафталан треста "Азморнефтеразведка", главным геологом, а затем - и.о. управляющего трестом "Кировабаднефтеразведка", главным геологом объединения "Азнефтеразведка". В 1953 году И. Алиева назначают начальником отдела по разведке новых месторождений объединения "Азнефть", а спустя год ему поручают руководство отделом поисков и разведки месторождений Министерства нефтяной промышленности Азербайджана. С 1958 по 1961 год Исмаил Алиев работал в Ираке консультантом Министерства нефти Ирака. По возвращении на Родину до 1975 года заведовал отделом нефтяной и газовой промышленности Госплана Азербайджана. В 1975 году И. Алиев ушел на пенсию, но продолжал свою трудовую деятельность, работая в ВНИПИгаз начальником геолого-разведочной партии, в качестве консультанта принимал участие в разработке проекта Закона Азербайджана о нефти. И.Алиев занимался преподавательской деятельностью. Он является автором статей и трудов по вопросам развития Кировобадской области, путей увеличения добычи нефти в Кировобадской области, характера контакта майкопской свиты с фораминиферовыми слоями.

За заслуги в деле развития нефтяной промышленности Азербайджана открытие новых месторождений Исмаил Алиев был награжден орденами Ленина и Трудового Красного Знамени, медалью "За трудовое отличие".



**Əmirov Hüseynağa Bəbiş oğlu (1929 - 2004)**

H.B.Əmirov 1929-cu il yanvarın 1-də Biləsuvar rayonunda kolxozçu ailəsində anadan olmuşdur.1949-cu ildə Biləsuvar rayonunun Ağalı kənd orta məktəbini bitirmiş, 1950-55-ci illərdə o vaxtki Azərbaycan Sənaye İnstitutunun neft-mədən fakültəsində oxumuşdur. 1955-ci ildə "dəniz neft quyularının istismarı" üzrə dağ mühəndisi ixtisasını almış, təyinatla Neft Daşlarında usta köməkçisi, neft və qazçıxarma ustası vəzifələrində fəaliyyət göstərmişdir.

1972-ci ildə H. Əmirov Mərkəzi Mühəndis Texnoloji Xidmətinin rəis müavini, rəisi, 1978-ci ildə keçmiş XXII partiya qurultayı adına NQÇİ-nin rəis müavini, 1980-ci ildə həmin NQÇİ-nin Baş mühəndisi vəzifəsinə təyin edilmişdir.

1990-cı ildə yeni yaradılmış "28 May" adına NQÇİ-nin Mərkəzi Mühəndis Texnoloji Xidmətinin rəisi vəzifəsinə təyin edilən H. Əmirov bir müddət bu vəzifədə çalışdıqdan sonra, ona NQÇİ-nin İstehsalat Xidməti Bazasının rəisi kimi məsul bir vəzifə tapşırılmış və o, bu sahədə ömrünün son günlərinə qədər səmərəli fəaliyyət göstərmiş, bütün diqqətini istehsalatın problemlərinin həllinə yönəltmişdir.

1965-ci ildə Hüseynağa Əmirova Azərbaycan Respublikasının Neft ustası, 1975-ci ildə isə Respublikanın "Əməkdar mühəndisi" fəxri adları verilmişdir.





**Əsədov Nadir Babaxan oğlu (1948 - 2003)**

Əsədov Nadir Babaxan oğlu 1971-ci ildə M. Əzizbəyov adına Neft və Kimya İnstitutunu (indiki Neft Akademiyası) bitirdikdən sonra N. Nərimanov adına NQÇİ-də operator kimi əmək fəaliyyətinə başlamışdır.

Nadir Əsədov usta, mədən müdiri, baş mühəndis, rəis vəzifələrinə qədər yüksəlmişdir.

1989-cu ildə o, yeni yaradılmış "28 May" adına NQÇİ-nə rəis təyin olunmuş, 1992-ci ilə qədər bu idarənin rəisi vəzifəsini layiqincə icra etmişdir.

Qayğıkeş və mehriban insan Nadir Əsədov həyatdan vaxtsız köçmüşdür. İstehsalatda çalışdığı illərdə həmişə səy göstərmişdir ki, ona tapşırılan işin öhdəsindən layiqincə gəlsin, etimadı doğrultsun. Elə bu keyfiyyətlərinə görə də kollektivin hörmətini qazanmış, müxtəlif mükafatlara layiq görülmüşdür.

1992-ci ildən ömrünün son günlərinə qədər N.Əsədov N.Nərimanov adına NQÇİ-nə rəhbərlik etmişdir.



**Əsgərov**
**Əzizulla Məşədi Əsgər oğlu**
**(1912 - 1975)**

Əsgərov Əzizulla Məşədi Əsgər oğlu 1912-ci ildə Bakı şəhərinin II Zabrat qəsəbəsində kübar ailədə anadan olmuşdur. O, orta təhsilini II Zabrat qəsəbəsindəki məktəbdə almışdır. Oktyabr İnqilabı adına Bakı Neft Texnikumunu bitirmişdir.

Ə.M. Əsgərov 1939-cu ildə S.M. Kirov adına Azərbaycan Dövlət Universitetininin (indiki Bakı Dövlət Universiteti) kimya fakültəsini bitirərək Balaxanı kənd orta məktəbində kimya fənnini tədris etmişdir.

Əzizulla müəllim tarix və ədəbiyyatı (klassik ədəbiyyatımızı və türk ədəbiyyatını) dərindən bilirdi. Bu sahəyə olan böyük sevgisi onda ikinci Dünya müharibəsindən sonra təhsilini ADU-da davam etdirmək arzusu oyatdı. O, Azərbaycan Dövlət Universitetinin tarix-ədəbiyyat fakültəsini də müvəffəqiyyətlə bitirdi.

Ərəb və fars dillərini mükəmməl bilən Əzizulla müəllim eyni zamanda həvəskar şair idi. Bir çox şerlərin müəllifi idi. Ömrünün son illərində neft sahəsində də çalışmışdır.

1937-ci ildə əksər ziyalılar kimi Əzizulla müəllim də xalq düşməni kimi həbs edilmiş və sonradan bəraət qazanmışdır. Həbs olunan vaxt onun bir çox dəyərli kitabları və yazıları məhv edilmişdir.



**Hacıyev**
**Fərman Mustafa oğlu**
**(1929 - 2003)**



Görkəmli alim, "Dənizneftqazlayihə" DETLİ-nin hidrotexniki qurğular sahəsində elmi işlər üzrə direktor müavini, texnika elmləri doktoru, professor Fərman Mustafa oğlu Hacıyev 2003-cü il avqustun 20-də ömrünün 74-cü ilində vəfat etmişdir.

Fərman Hacıyev 1929-cu ildə Şəki şəhərində anadan olmuşdur. 1953-cü ildə Azərbaycan Politexnik İnstitutunu bitirərək "Dənizneftqazlayihə" Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunda mühəndislikdən institutun direktoru vəzifəsinə qədər şərəfli həyat yolu keçmişdir. O, 1960-cı ildə texnika elmləri namizədi alimlik dərəcəsi, 1991-ci ildə isə texnika elmləri doktoru alimlik dərəcəsi almışdır. 1984-cü ildən başlayaraq Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda professor vəzifəsində işləmişdir.

Fərman müəllimin alimlik və mühəndislik fəaliyyəti geniş elmi və layihə sahələrini əhatə edir. Dəniz şəraiti üçün hidrotexniki neft-mədən qurğularının layihələndirilməsinin nəzəri məsələlərinin həllində onun böyük rolu olmuşdur. Hidrotexniki qurğulara təsir edən hidrometereoloji və seysmik qüvvələrin hesablanmasının nəzəri və normativ əsaslarının hazırlanmasında Fərman müəllimin elmi-tədqiqat işlərinin nəticələri keçmiş SSRİ məkanında mühəndislər tərəfindən yüksək qiymətləndirilmişdir.

Fərman müəllim Xəzər dənizi, həmçinin Qara, Azov, Baltik və başqa dənizlərdə tikilmiş onlarla hidrotexniki qurğuların layihələndirilməsi, tikilməsi və istismarına nəzarətə rəhbərlik etmişdir.

Onun "Günəşli" yatağı üçün yerinə yetirdiyi layihə işlərini xüsusi qeyd etmək lazımdır. Belə ki, keçmiş SSRİ məkanında ilk dəfə olaraq "Günəşli" yatağı üçün dərin dəniz özüllərinin layihələndirilməsi və quraşdırılması Fərman Hacıyevin rəhbərliyi altında həyata keçirilmişdir.

F.Hacıyev keçmiş SSRİ-nin elmi idarələri və alimləri arasında yüksək nüfuza malik idi və bir çox elmi bölmələrin üzvü idi. O, SSRİ Elmlər Akademiyası su təsərrüfatı problemləri üzrə Şurasının qurğular bölməsinin üzvü, SSRİ-nin seysmik tikintilər üzrə Milli Komitəsinin üzvü, Azərbaycan Dövlət Tikinti Komitəsinin elmi-texniki Şurasının üzvü, Azərbaycan Neft və Qaz Sənayesinin Elmi-Texniki Cəmiyyətinin hidrotexnika bölməsinin sədri və bir çox başqa şuraların üzvü idi.

Fərman müəllim 1984-1994-cü illərdə "Dənizneftqazlayihə" DETLİ-nin direktoru olmuşdur. Bu müddət ərzində o, yüksək idarəetmə bacarığına malik alim kimi institutda yerinə yetirilən elmi - tədqiqat və layihə-konstruktor işlərinə müvəffəqiyyətlə rəhbərlik etmişdir.

Fərman Hacıyev çapdan çıxmış 20-dən çox elmi əsərin, kitabın, normativ-texniki sənədin müəllifidir. Onun rəhbərliyi altında 7 elmlər namizədi yetişmişdir.

Fərman Hacıyev yüksək intellektual səviyyəli, insanlara qarşı xeyirxah niyyətli görkəmli şəxsiyyət idi.



## Hüseynov Əli Nəzir oğlu (1931 - 2003)



Bacarıqlı mütəxəssis, neftçi-geoloq Əli Nəzir oğlu Hüseynov ömrünün 72-ci ilində vəfat etmişdir.

Əli Hüseynov 1931-ci il oktyabrın 15-də Neftçala rayonunun Qızqayıtlı kəndində anadan olmuşdur.

Əmək fəaliyyətinə 1955-ci ildə Azərbaycan Sənaye İnstitutunun geoloji kəşfiyyat fakültəsini bitirdikdən sonra Neftçala NQÇİ-də Kürovdağ yatağında geoloq vəzifəsindən başlamışdır. Sonralar həmin idarədə 3 saylı mədəndə böyük geoloq, "Şirvanneft" NQÇİ-nin 1 və 2 saylı mədənlərində böyük geoloq, elmi-tədqiqat sexində baş geoloq, geoloji şöbənin rəisi, NQÇİ-nin baş geoloqu, 1970-1985-ci illərdə "Azneft" Birliyinin baş direktorunun müavini - baş geoloqu vəzifələrində çalışmışdır.

1985-1988-ci illərdə Ə. Hüseynov yüksək səviyyəli mütəxəssis kimi Anqola Xalq Respublikasına xidməti ezamiyyətə göndərilmiş və orada müvəffəqiyyətlə rəhbər vəzifələrdə çalışmışdır.

1988-1992-ci illərdə "AzNSETLİ"-də böyük elmi işçi, 1992-1994-cü illərdə "Azneft" Neft və Qazçıxarma üzrə baş İdarədə aparıcı geoloq, 1994-2003-cü illərdə "Quruda Neft və Qazçıxarma" İstehsalat Birliyinin Baş geoloqu - direktor müavini vəzifələrində çalışmışdır. 2003-cü ilin aprel ayından Əli Hüseynov ARDNŞ-nin "Geofizika və mühəndis geologiyası" İstehsalat

Birliyinin "Azərgeofizika" Elmi - Tədqiqat İnstitutunun direktor müavini - baş geoloqu vəzifəsində çalışmışdır.

Ə.Hüseynov geoloji cəhətdən çox mürəkkəb regionun - Aşağı Kür çökəkliyi NQR-nin əksər neft və qaz yataqlarının ilkin kəşfiyyatçılarından və onların sənaye əhəmiyyətli işlənməyə daxil edilməsinin əsas təşkilatçılarından olmuşdur. Ə. Hüseynov neft sənayesində xidmətlərinə görə Azərbaycan SSR-in "Fəxri neftçisi" adına layiq görülmüşdür, "Şərəf nişanı" ordeni, Azərbaycan Respublikasının "Tərəqqi" medalı ilə təltif olunmuşdur. O, əmək veteranı idi.

Böyük neftçi-mütəxəssis və gözəl insan, səmimi dost, mehriban ailə başçısı Əli Hüseynovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.



## Məmmədov Akif Məti oğlu (1942 - 2004)



Akif Məti oğlu Məmmədov 1942-ci ildə Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olmuşdur. O, 1965-ci ildə Politexnik İnstitutunu bitirib, mühəndis-mexanik ixtisası aldıqdan sonra təyinatla alüminium zavodunda 6-cı dərəcəli çilingər kimi əmək fəaliyyətinə başlamışdır. 1966-1968-ci illərdə Ümumittifaq Elmi-Tədqiqat Neftmaşınqayırma İnstitutunda mühəndis - mexanik, 1968-1972-ci illərdə "Vodgeo" İnstitutunda böyük mühəndis, 1972-1989-cu illərdə Bakı Su Kəməri İdarəsinin nasos stansiyalarının və su tutumlarının istismarı üzrə istehsalat idarəsində baş mexanik, baş mühəndis və idarə rəisi, 1989-2001-ci illərdə Dövlət Yanacaq Komitəsində və Dövlət Neft Şirkətinin "Azərnefttəchizat" Birliyində mühəndis, aparıcı müfəttiş və şöbə rəisi vəzifələrində işləmiş Akif Məmmədov 21 aprel 2003-cü ildən ömrünün sonunadək "Geofizika və Mühəndis Geologiyası" İB-də maddi-texniki təchizat şöbəsinin rəisi vəzifəsində çalışmışdır. Bu az müddətdə o, kollektivin hörmətini qazanmış, sevimlisinə çevrilmişdir.

Vaxtsız ölüm Akif Məmmədovun ömrünə son qoydu. Əzizləri kollektiv üzvləri və onu tanıyanlar Akif müəllimin xatirəsini həmişə əziz saxlayacaqlar.

**Məmmədov**
**Ələşrəf Veysəl oğlu**
**(1931 - 2003)**



Görkəmli geoloq, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, respublika Dövlət mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, professor Ələşrəf Veysəl oğlu Məmmədov 2003-cü il avqustun 26-da 72 yaşında vəfat etmişdir.

Ə.Məmmədov 1931-ci il noyabr ayının 1-də Qax rayonunun İlisu kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, ali təhsilini 1948-1953-cü illərdə Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya fakültəsinin geologiya şöbəsində almışdır.

Ə.Məmmədov universitet təhsilini başa vurduqdan sonra həyatını bütünlüklə Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) ilə bağlamışdır. O, burada Geologiya İnstitutunda kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlamış, 1953-1956-cı illərdə institutun aspiranturasında oxumuş, 1956-1958-ci illərdə AMEA-nın Neft Ekspedisiyasında işçi qrupuna rəhbərlik etmiş, 1958-1970-ci illərdə Geologiya İnstitutunun tetonika laboratoriyasında baş elmi işçi vəzifəsində çalışmışdır. Ə. Məmmədov 1956-cı ildə namizədlik, 1970-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. Ə. Məmmədov 1971-ci ildən həyatının sonunadək - fasiləsiz olaraq 30 ildən artıq bir müddət ərzində AMEA-nın Coğrafiya İnstitutunda paleocoğrafiya şöbəsinin müdiri vəzifəsində çalışmışdır. O,1989-cu ildə Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə həqiqi üzvü seçilmişdir.



Ə.Məmmədovun Kür çökəkliyinin regional geologiyası və tektonikası, stratiqrafiya, paleocoğrafiya, Azərbaycanın və Qafqazın geoloji inkişafının tarixi, neft-qazlılıq perspektivləri məsələlərinə həsr olunmuş fundamental tədqiqatları Qafqaz bölgəsinin geologiyasının öyrənilməsində mühüm rol oynamışdır, Azərbaycanın və bir çox xarici ölkələrin geologiya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Alimin yaxından iştirakı ilə Azərbaycanın geoloji, tektoniki və geotektoniki xəritələri tərtib edilərək dərc olunmuşdur. Onun tərtib etdiyi xəritələr İngiltərədə nəşr olunmuş "Avrasiya şelflərinin mezo-kaynozoyda paleocoğrafiyası" atlasına daxil edilmişdir. Ələşrəf Məmmədov 200-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın müəllifidir. Onun rəhbərliyi altında bir çox elmlər namizədi və doktoru hazırlanmışdır. Ə. Məmmədov elmi yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. O, 30 ildən çox Bakı Dövlət Universitetinin coğrafiya fakültəsinin professoru kimi səmərəli fəaliyyət göstərmişdir.

Milli geologiya elminin nüfuzlu nümayəndələrindən olan Ə. Məmmədov bir çox beynəlxalq elmi konqres, simpozium və konfransların təşkilatçısı və iştirakçısı olmuş, xarici ölkələrdə, o cümlədən ABŞ-da, Rusiyada, Fransada, İranda, Türkiyədə Azərbaycan elmini həmişə yüksək səviyyədə və ləyaqətlə təmsil etmişdir.

Görkəmli alim, gözəl ziyalı və xeyirxah insan Ələşrəf Məmmədovun xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.



**Məmmədov**
**Əflatun Kamal oğlu**
**(1949 - 2004)**

2004-cü il aprelin 30-da "Xəzər İxtisaslaşdırılmış Hövzə Qəza Xilasetmə" Açıq Tipli Səhmdar Cəmiyyətinə ağır itki üz verdi, Cəmiyyətin sədri Əflatun Məmmədov 54 yaşında vaxtsız vəfat etdi.

Ə.Məmmədov 1949-cu ildə Bakı şəhərində anadan olmuşdur. 1973-cü ildə Odessanın Dəniz Donanma Mühəndisləri İnstitutunun gəmi mexaniki fakültəsini bitirmişdir.

Ə.Məmmədov əmək fəaliyyətinə 1967-ci ildə başlamış və 23 yaşından ömrünü dənizə bağlamışdır. 1972-ci ildən Xəzər Dəniz Gəmiçiliyinin V.Sturua adına Gəmi təmiri zavodunda mühəndis-texnoloq, böyük mühəndis vəzifələrində çalışmışdır. 1978-ci ildən 1981-ci ilədək D.Bünyatzadə İstehsalat vahidində texniki şöbənin rəisi işləmişdir. 1981-ci ildən 2004-cü ilədək "Xəzər İxtisaslaşdırılmış Hövzə Qəza Xilasetmə" idarəsində əvvəl baş mühəndis, 1990-cı ildən isə idarə rəisi vəzifəsində çalışmışdır. Savadlı mütəxəssis, tələbkar və qayğıkeş rəhbər, fəal ixtiraçı, səmərələşdirici - bütün bü insani keyfiyyətlər ona xas olan xüsusiyyətlər olub. Onun hesabında yüzdən çox həyata keçirilmiş ixtira və səmərələşdirmələr vardır. Bu müddətdə o, kollektivdə nüfuz qazanmışdır.

Mərhum prezidentimiz Heydər Əliyevin rəhbərliyi altında Ə.Məmmədov Qara dənizdə "A.Naximov" gəmisinin qəzası ilə əlaqədar xilasetmə əməliyyatında fəal iştirak etmişdir. Bundan



başqa dənizdə dəfələrlə ciddi qəza xilasetmə işlərinə şəxsən rəhbərlik etmişdir. Kollektiv onun rəhbərliyi altında cəmləşərək Sovet quruluşu dağıldıqdan sonra ağır keçid şəraitində və iqtisadi çətinliklərə baxmayaraq idarəni qoruyub saxlaya bilmişdir.

"Vışka" qəzetinin redaksiya heyətiinin üzvü Ə.Məmmədov qəzetin səhifələrində fəal müəllif kimi tanınmışdı. Dənizdə neft dağıntılarının ləğvi haqqında kitabın müəllifidir.

Əflatun Məmmədovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.



**Məmmədov Rafiq Həsən oğlu (1932 - 2003)**

2003-cü il oktyabrın 18-də qocaman neftçi, ömrünün 50 ilini respublikanın neft və qaz sənayesinin fəaliyyətinə və inkişafına sərf etmiş Məmmədov Rafiq Həsən oğlu uzun sürən xəstəlikdən sorna vəfat etmişdir.

R.Məmmədov 1932-ci ildə Füzuli rayonunda anadan olmuş, orada orta təhsilini başa vurmuş və ali məktəbə daxil olmuşdur. 1957-ci ildə o, M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Neft Akademiyası) neft və qaz yataqlarının işlənməsi ixtisası üzrə bitirərək əmək fəaliyyətinə o vaxtkı "Əzizbəyovneft" NQÇİ-nin mədənlərində operator kimi başlamışdır. Sonralar pillə-pillə yüksələrək R. Məmmədov həmin idarədə usta köməkçisi, yeraltı təmir ustası, mədən müdiri vəzifələrində çalışmışdır.

Həmin illərdə istehsalatda göstərdiyi əzmkar fəaliyyətinə görə Rafiq müəllim "Şərəf nişanı" ordeni ilə təltif olunmuş və "Siyəzənneft" NQÇİ-nə rəis vəzifəsinə təyin edilmişdir.

R.Məmmədov 10 ildən artıq bu NQÇİ-nə başçılıq etmiş, həmişə də onun rəhbərliyilə "Siyəzənneft" NQÇİ-si qabaqcıl idarələr sırasında olmuşdur. Təkcə doğma kollektiv deyil, bütün rayon əhalisi ona səriştəli mütəxəssis, işgüzar mühəndis və qayğıkeş rəhbər kimi səmimi hörmət göstərmişdir. R. Məmmədov respublika Qaz İdarəsində çalışdığı müddətdə Azərbaycanın bütün rayonlarının qazla təmin olunmasına çalışmış, nəhəng qaz təsərrüfatı sisteminin daim dəqiq və səmərəli işləməsinə nail olmuşdur.



1995-ci ildən ömrünün son günlərinədək R.Məmmədov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İstehsalat şöbəsində çalışmışdır. Şöbənin rəis müavini, daha sonra rəisi vəzifələrində çalışarkən respublikanın neftqazçıxarma sahəsində elmin və qabaqcıl təcrübənin nailiyyətlərinin geniş tətbiq olunmasına səy göstərmiş, neft və qaz yataqlarının işlənməsinə, yeni yataqların açılıb istismar olunmasına çalışmışdır. Rafiq Məmmədov gözəl mütəxəssis, zəngin nəzəri-praktiki bilikli mühəndis olması ilə yanaşı, çox həssas,hamının qeydinə qalan, xalq arasında deyildiyi kimi "ürəyi yuxa" bir insan idi. Rafiq müəllimin işıqlı siması onu tanıyan və sevənlərin xatirindən heç vaxt silinməyəcəkdir.



**Məmmədova**
**Humay Mahmud qızı**
**(1928- 2003)**

Azərbaycanın neft və neftayırma sənayesinə ağır itki üz vermişdir. Respublika əhəmiyyətli fərdi təqaüdçü Humay Mahmud qızı Məmmədova 2003-cü il noyabr ayının 28-də 75 yaşında vəfat etmişdir.

H.Məmmədova 1928-ci ildə Şəki şəhərində anadan olmuşdur. 1947-ci ildə orta məktəbi, 1952-ci ildə isə Azərbaycan Sənaye İnstitutunu (indiki Neft Akademiyasını) neftin və qazın texnologiyası ixtisası üzrə bitirmişdir.

H.Məmmədova əmək fəaliyyətinə 1952-ci ildə Yeni Bakı Neftayırma Zavodunda (indiki "Azərneftyanacaq" Neft emalı zavodu) başlamışdır. İlk gündən özünü bacarıqlı mühəndis və işinə məsuliyyətlə yanaşan mütəxəssis kimi göstərmiş, tezliklə sex rəisnin müavini vəzifəsinə təyin edilmişdir. Sonralar Humay xanım qurğu rəisi və əmtəə parkı rəisi vəzifələrinədək yüksəlmişdir. 1978-ci ildə onun adı rəhbərliyin və Həmkarlar təşkilatının birgə qərarı ilə "Zavodun Şərəf kitabı"na daxil edilmişdir.

1994-cü ildə fərdi təqaüdə çıxan Humay xanım qayğıkeş, zəhmətsevər və xeyirxah bir insan idi. Səmərəli əməyi ilə özünü fəal və təşəbbüskar bir insan kimi sevdirən, tabeliyində olan işçilərə qarşı xoş münasibətilə seçilən, ən çətin anlarda hər kəsə kömək əli uzadan bu təvazökar qadın çalışdığı bütün sahələrdə özünə dərin hörmət və rəğbət qazana bilmişdir. Ona verilən ömür payını şərəflə yaşayan Humay xanım həm də iki



övlad anası, bir nəslin ağbirçəyi idi.

Humay xanımın fədakar əməyi dövlət tərəfindən qiymətləndirilmiş, o, "Lenin" ordeni, "Əmək veteranı" medalı ilə təltif edilmişdir. H. Məmmədova Respublikanın əməkdar mühəndisi idi.

Humay Məmmədova öz şərəfli həyatı ilə işlədiyi kollektivin üzvlərinin, əzizlərinin, qohumlarının, onu tanıyanların hamısının ürəyində silinməz izlər qoymuşdur



**Mehdiyev Şadət Həmid oğlu**
**(1935 - 1988)**

Mehdiyev Şadət Həmid oğlu 1935-ci il aprel ayının 20-də Lənkəran rayonunun Türkəkəran kəndində kolxozçu ailəsində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) neft-mədən fakültəsinə daxil olmuş, həmin təhsil ocağını 1957-ci ildə neft və qaz quyularının qazılması ixtisası üzrə bitirmişdir. İnstitutu bitirdikdən sonra "Artyomneft" Neft Mədən İdarəsinə təyinatı ilə işə göndərilmişdir.

Ş.Mehdiyev əvvəlcə, qazmaçı köməkçisi, sonra da dəniz qazma kontorunda qazma ustası kimi fəaliyyət göstərmişdir.1964-cü ilin aprel ayında "Artyomneft" Neft Mədən İdarəsinə dəniz qazma işləri üzrə texniki istehsal şöbəsində böyük mühəndis vəzifəsinə təyin olunmuşdur. 1966-cı ildə texniki-istehsalat şöbəsinin rəisi vəzifəsinə irəli çəkilmişdir.

Ş.Mehdiyev 1967-ci ilin mart ayında Kubaya xarici ezamiyyətə göndərilmiş, orada qazma işləri üzrə iki il baş texnoloq vəzifəsində çalışmışdır. Xarici ezamiyyətdən qayıtdıqdan sonra "Xəzərdənizneft" İdarə Birliyinin Sanqaçal Qazma İşləri İdarəsində texniki istehsalat şöbəsinin rəisi vəzifəsinə təyin edilmişdir. Sonralar Ş.Mehdiyev idarələrin ləğvi və yenidən təşkili ilə əlaqədar iş yerlərini dəyişmiş, məsul vəzifələrdə çalışmışdır.

Ş.Mehdiyev partiya, sovet və komsomol tədbirlərində fəal iştirak etmiş, ictimai işlərdə fərqlənmişdir. O, dəfələrlə rayon və şəhər Sovetlərinin deputatı, Azərbaycan KP-nın 26-cı qurultayının nümayəndəsi olmuş, müxtəlif mükafatlarla təltif edilmişdir. Amansız ölüm onu çox erkən - 53 yaşında haqlamışdır.

Gözəl insan Şadət Mehdiyevin əzəz xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.



**Rəhimova**
**Elmira Məmməd qızı**
**(1933 - 2003)**

Rəhimova Elmira Məmməd qızı 1933-cü il mayın 13-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, 1951-ci ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) energetika fakültəsinə daxil olmuş və 1956-cı ildə institutu bitirmiş, elektrik mexaniki ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə 1956-cı ildən Sumqayıt Boru Prokatı zavodunda prokat sexinin rəisi vəzifəsindən başlayan Elmira Rəhimova müxtəlif idarə və təşkilatlarda bacarıqla çalışmışdır.

O, 1957-1961-ci illərdə "Neftkimyaavtomat" ETLİ-də, 1961-1966-cı illərdə keçmiş Azərbaycan SSR Nazirlər Sovetinin Elmi-Tədqiqat İşlərinin Koordinasiyası üzrə Dövlət Komitəsində və 1967-ci ildən 1993-cü ilə qədər AMEA-nın elmi-tədqiqat institutlarında fəaliyyət göstərmişdir.

E.Rəhimova 1993-cü ildən ARDNŞ-in aparatında, sonra isə Xarici Sərmayələr İdarəsində işləmişdir.

Səmimi insan, mehriban ana və sevimli nənə olan Elmira xanım Rəhimovanın xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.



**Sarıyev Sədaqət Qara oğlu**
**(1947 - 2003)**



Sarıyev Sədaqət Qara oğlu 1947-ci il sentyabr ayının 13-də Gədəbəy rayonunun Əmiraslanlı kəndində müəllim ailəsində anadan olmuşdur

1963-cü ildə orta məktəbi bitirərək 1964-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) "Neft-qazmədən" fakültəsinə daxil olmuşdur. 1969-cu ildə ali məktəbi bitirdikdən sonra təyinatla N. Nərimanov adına NQÇİ-nin 1 saylı Neft və Qazçıxarma Sexində operator, sonra ETİŞ-də mühəndis və böyük mühəndis vəzifələrində çalışmışdır.

O, 1979-cu ildə akademik A.X. Mirzəcanzadənin təklifilə AzNKİ-nun NQYİİ-rı kafedrasında böyük mühəndis vəzifəsinə keçirilməklə bərabər, aspiranturanın əyani şöbəsinə qəbul olunmuşdur.1985-ci ildə elmi işini müvəffəqiyyətlə müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi aldıqdan sonra S. Sarıyev NBA və quyuların əsaslı təmiri idarəsində "Quyuların çətin şəraitdə işlənməsi" laboratoriyasının müdiri vəzifəsinə təyin edilmişdir.

1986-cı ildə AzNKİ-nun "Dəniz neft yataqlarının işlənməsi" laboratoriyasına müdir və elmi işlər üzrə dosent vəzifəsinə keçirilmişdir. 1988-ci ildən isə həmin fakültədə pedaqoji fəaliyyətə başlamışdır.

Özünə qarşı yüksək tələbkarlıq hissi olan S. Sarıyev çox keçmir ki, ona olan etibarı doğruldur və tədqiq olunan elmi mə-

sələlərin nəzəri həllinin nəticələri çox tezliklə mədən təcrübəsində öz əksini tapır.

Onun aldığı nəticələr xarici ölkə mütəxəssislərinin maraq dairəsində olmuşdur. Bu nəticələrin ABŞ neft-qaz yataqlarında tətbiqinə rəhbərlik məqsədilə Sədaqət Sarıyev 1990-1995-ci illər ərzində ABŞ-a dəvət alaraq orada çalışır.

1996-cı ildən "Dənizneftqazlayihə" DETLİ-də "Neft və qazçıxarmanın intensivləşdirilməsi" laboratoriyasında böyük elmi işçi vəzifəsində işləmişdir.

S.Sarıyev 1997-ci ildən Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin Texniki-istehsalat şöbəsinə rəis müavini vəzifəsinə irəli çəkilmişdir. Burada işlədiyi müddətdə o, yeni texnikanın və texnologiyanın yaradılması və tətbiqi istiqamətində səmərəli fəaliyyət göstərmişdir.

Sədaqət Sarıyev 2003-cü ilin aprel ayından isə "Azneft" İB-nin Texniki-istehsalat şöbəsində fəaliyyətini davam etdirmişdir.

Sədaqət müəllim çalışdığı bütün dövrlərdə respublikamızı istər onun hüdüdları daxilində və istərsə də hüdudlarından kənarda layiqincə təmsil etmişdir. Dəfələrlə Respublika, Ümumittifaq və Beynəlxalq konfransların fəal iştirakçısı olmuşdur. O, respublikamızda və xaricdə çap olunmuş 30-dan artıq elmi əsərin, 2 monoqrafiyanın, 3 ixtiranın və bir neçə səmərələşdirici təkliflərin müəllifidir.

S.Sarıyev işlədiyi bütün sahələrdə öz əməksevərliyi, səmimiliyi və yüksək intizamı ilə seçilirdi. Amansız ölüm Sədaqət müəllimi ömrünün məhsuldar bir dövründə aramızdan apardı. Onun əziz xatirəsi onu tanıyanların qəlbində yaşayacaqdır.



## Səfərov Çingiz Yusif oğlu
## (1945 - 2004)



Səfərov Çingiz Yusif oğlu 1945-ci il iyul ayının 27-də Bakı şəhərində görkəmli neftçi-mühəndis, Neft Daşlarının ilk kəşfiyyatçılarından biri, iki dəfə Stalin mükafatı laureatı Yusif Səfərovun ailəsində doğulmuşdur.

Çingiz Səfərov 1967-ci ildə M.Əzizbəyov adına Neft və Kimya İnstitutunun (indiki Neft Akademiyası) neft-mədən fakültəsini bitirmişdir.

1984-cü ildə Ç.Səfərov bir mütəxəssis kimi "Çıraq" (1984), "Azəri" (1987), "Kəpəz" (1988) yataqlarının kəşf edilməsində fəal iştirak etmişdir. Bu yataqların kəşfiyyatında "Şelf-1", "Şelf-2", "Şelf-3" yarımdalma üzən qazma qurğularından istifadə edilmişdir.

Təcrübəli neftçi xarici ölkələrdə - 1972-1974-cü illərdə Əlcəzairdə qazma rəisi, 1995-1999-cu illərdə isə ARDNŞ-in İranda nümayəndəsi kimi fəaliyyət göstərmişdir. 1997-1999-cu illərdə o, qazma üzrə ARDNŞ-in baş mütəxəssisi vəzifəsində çalışmışdır. Çingiz Səfərov vəfatına qədər Dənizdə Neft və Qazçıxarma İdarə Birliyində qazma şöbəsinin mütəxəssisi işləmişdir.

Çingiz öz atası, görkəmli neftçi Yusif Səfərovdan dərs almış, neft-qaz sənayesinin istehsal sirlərinə bələd olmuşdur. O, qazandığı təcrübəni istehsalata bacarıqla tətbiq edirdi.

Amansız ölüm onu tez yaxaladı. Çinigz Səfərovun əziz xatirəsi əzizlərinin, onu tanıyanların qəlbində daim yaşayacaqdır.



## Vəliyev Müslüm Məmməd oğlu (1926 - 2003)

"Azneft" İB-nin Axtarış, Kəşfiyyat və Geofizika İşləri üzrə Geoloji Şöbənin rəis müavini işləmiş Vəliyev Müslüm Məmməd oğlu 2003-cü il sentyabr ayının 9-da vəfat etmişdir.

M. Vəliyev 1925-ci il dekabrın 7-də Ordubad şəhərində anadan olmuşdur. Əmək fəaliyyətinə 1952-ci ildə Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsini bitirdikdən sonra Dənizdə Kəşfiyyat Qazması Trestinin Gürgən Qazma İdarəsində geoloq vəzifəsi ilə başlamışdır. Sonralar həmin trestdə sahə geoloqu, Baş geoloqun müavini, Baş geoloq vəzifələrində, "Azərneftkəşfiyyat" trestinin 4 saylı qazma idarəsində Baş geoloq, "Abşeronqazmaneft" trestinin geoloji şöbəsinin rəisi, "Xəzərdənizneft" Birliyinin neft və qaz kəşfiyyatı şöbəsinin rəisi vəzifələrində çalışmışdır.

1963-1981-ci illərdə M.Vəliyev yüksək səviyyəli mütəxəssis kimi Kuba Respublikasına və Vyetnam Respublikasına xidməti ezamiyyətə göndərilmiş və orada müvəffəqiyyətlə rəhbər vəzifələrdə çalışmışdır.

1985-ci ildən 2003-cü ilin aprel ayınadək M.Vəliyev "Xəzərdənizneft" Birliyində, sonralar Dənizdə NQÇİB-də, "Azərneft" baş idarəsində böyük geoloq, geoloji şöbənin rəisi vəzifələrində işləmişdir.



Xəzər dənizinin Azərbaycan sektorunda Cənub, Çilov, Bahar, Bulla-dəniz, Günəşli, Çıraq, Azəri və Kəpəz yataqlarının, həmçinin Türkmənistan, Qazaxıstan və Dağıstan sektorlarında yataqların açılmasında iştirak etmişdir.

M.Vəliyev Böyük Vətən müharibəsi iştirakçısı olmuşdur, alman faşistlərinə qarşı döyüşlər zamanı 4 dəfə yaralanmışdır.

M.Vəliyev xalq qarşısında və neft sənayesində böyük xidmətlərinə görə 2-ci dərəcəli Vətən müharibəsi ordeni ilə təltif olunmuşdur, Azərbaycan Respublikasının "Əməkdar mühəndisi" fəxri adına layiq görülmüşdür. O, "Neft sənayesinin əlaçısı", Əmək veteranı idi.

Böyük neftçi-mütəxəssis və gözəl insan, səmimi dost, mehriban ailə başçısı Müslüm Vəliyevin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

## OXUCULARIMIZA

**"Qara qızıl" ağ səadət rəngində"** eyni adlı birinci, ikinci, üçüncü, dördüncü və beşinci kitablarda Azərbaycan Respublikasının neft strategiyası barədə danışılır.

Bu kitablarda neft və qaz sərvətinin xalqımızın xoşbəxtliyinə xidmət etməsi, "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac boru kəməri barədə sazişlərin imzalanması məsələlərindən söhbət gedir, Azərbaycan Dövlət Neft Şirkətinin fəaliyyəti açıqlanır. Azərbaycan Neft strategiyasının, "Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsi, əfsanəvi "Neft daşları"nda əldə edilən nailiyyətlər, emal müəssisələrinin işi, neft-qaz sənayesinin tarixi inkişaf mərhələləri ön plana çəkilir.

Kitablarda qəhrəman neftçilərin, alimlərin, geoloqların, qazmaçıların, inşaatçıların, energetiklərin, donanma işçilərinin, nəqliyyatçıların, yardımçı və xidmət təşkilatları işçilərinin fədakar əməyindən danışılır, texniki-təchizat məsələləri işıqlandırılır. Xalqımızın səadəti uğrunda yorulmaz fəaliyyət göstərən, mənalı həyatlarını neft sənayesinin inkişafına həsr etmiş, həyatda izi qalan mərhum neftçilərin həyatından bəhs olunur.

Kitablarda Azərbaycan neft sənayesinin inkişaf tarixinə dair qısa məlumatlar, Bakıda keçirilən "Xəzər, neft, qaz, neftayırma və neft kimyası" sərgisi və konfransı haqqında geniş informasiya verilir, neft-qaz hasilatının artırılması sahəsində gərgin əməklə çalışan neftçilərin həyat və fəaliyyətlərindən söhbət açılır, dünyalarını dəyişmiş fədakar neftçilər xatırlanır, onlar haqqında qısa bioqrafik məlumatlar verilir.

Kitablarda Azərbaycanın yeni neft strategiyasının yeni neft erası - "Əsrin müqaviləsi"nin həyata keçirilməsi ilə əlaqədar materiallara geniş yer ayrılmış, ilk dəfə "Neftçilər günü" bayramı



münasibətilə keçirilən mərasimdə Azərbaycan Respublikasının mərhum Prezidenti Heydər Əliyevin nitqi verilmişdir.

Rusiya ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin inkişaf etməsində xüsusi rol oynayan "LUKoyl" Şirkətinin yubiley tədbirlərindən, neft strategiyasının uğurla həyata keçirilməsində gərgin zəhmətlə çalışan neftçilərin iş fəaliyyətindən söhbət açılır.

Kitablarda Azərbaycanın "qara qızıl"ının xalqımızın səadətinə, xoşbəxtliyinə, onların firavan həyat sürmələrinə xidmət etməsi barədə jurnalistikanın müxtəlif janrlarında ətraflı söhbət gedir.

Əlbəttə, yetmiş minlik neftçilər ordusunun bütün layiqli övladlarını bu beş kitabda əhatə etmək mümkün deyildir. Elə fədakar, qəhrəman, şöhrətli neftçilərimiz vardır ki, informasiya toplayarkən qarşıya çıxan bir sıra çətinliklər üzündən onlar barədə bu kitablarda hələlik məlumat verilməmişdir. Buna görə də oxucularımızdan, neftçilərimizdən, neftçi ailələrindən üzr istəyir, vəfat etmiş neftçilərimizin ruhları qarşısında baş əyirik.

Hörmətli oxucularımıza onu da bildiririk ki, biz - müəlliflər layiqli neftçilərimizin həyat və fəaliyyətləri barəsində ayrı-ayrılıqda və toplu halında yeni kitabların nəşr edilməsi üçün yaradıcılıq axtarışlarını davam etdirir, bu mövzuda yeni kitablar üzərində işləyirik.

Əziz oxucularımızdan bir daha xahiş edirik ki, müəlliflərlə əlaqə yaratsınlar, öz arzu, təklif və mülahizələrini bizimlə bölüşdürsünlər.

**Ünvanlarımız və telefonlarımız:**

**Məmməd Mirzəyev** - Azərbaycan Respublikası Dövlət Neft Şirkəti.

97-53-47, 320-02-21.

**Canalı Mirzəliyev** - "Yaddaş" qəzetinin redaksiyası

32-90-09; 311-53-72.

## MÜNDƏRİCAT

### BİRİNCİ BÖLMƏ

"LİDER" YARIMDALMA ÜZƏN QAZMA QURĞUSUNUN İSTİSMARA BURAXILMASI MƏRASİMİNİN İŞTİRAKÇILARINA .....5
"LİDER" YARIMDALMA ÜZƏN QAZMA QURĞUSU İSTİFADƏYƏ VERİLMİŞDİR .....7
PROFESSOR ƏZİZ ƏLİYEV" TANKERİNİN İSTİSMARA VERİLMƏSİ VƏ YAXT-KLUBUN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ .....10
BAKI-TBİLİSİ-CEYHAN ƏMBK-nin TƏMƏLİNİN QOYULMASININ BİR İLİ TAMAM OLMUŞDUR .....16
VƏTƏNƏ, XALQA VƏ DÖVLƏTƏ SƏDAQƏT ANDI. AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM HEYDƏR OĞLU ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİ .....18
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM HEYDƏR OĞLU ƏLİYEVİN ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQİ .....23
"ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN XATİRƏSİ ƏBƏDİLƏŞDİRİLİR" .....29
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN HEYDƏR ƏLİYEV ADINA BAKI NEFT EMALI ZAVODUNDA ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQİ .....30
"XƏZƏR NEFT, QAZ, NEFTAYIRMA VƏ NEFT KİMYASI - 2004" XI BEYNƏLXALQ SƏRGİ VƏ KONFRANSININ AÇILIŞINDA AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ .....35

### İKİNCİ BÖLMƏ

NEFT SƏNAYESİNİN İNKİŞAFINDA GƏRGİN ƏMƏK SƏRF EDƏNLƏR .....41



NEFT ELMİNİN GÖRKƏMLİ TƏDQİQATÇISI VƏ TƏŞKİLATÇISI .....43
AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİNİN "AZƏRNEFTYANACAQ" NEFT EMALI ZAVODUNUN KOLLEKTİVİNƏ .....48
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azərneftyanacaq" neft emalı zavodunun işçmlərinin təltif edilməsi haqqında
AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI .....49
HEYDƏR ƏLİYEV ADINA BAKI NEFT EMALI ZAVODU DÜNYAYA İNTEQRASİYA YOLUNDA .....50
АКТИВНОЕ УЧАСТИЕ В ПОДГОТОВКЕ КАДРОВ .....57
QAZ SƏNAYESİNİN İNKİŞAFINDA ELMİN ROLU .....59
NEFT AKADEMİYASI ONUN TALEYİDİR .....68
APARICI MÜHƏNDİS .....72
DÜŞÜNƏN, AXTARAN İNSAN .....74
MEHRİBAN AİLƏ BAŞÇISI, APARICI GEOLOQ .....76
КАЗАХСТАН СТАЛ ЕГО ВТОРОЙ РОДИНОЙ .....78
ƏLAÇI NEFTÇİ .....81
ELMİ ŞURANIN ÜZVÜ .....83
LAYİHƏ SƏNƏDLƏRİNİN TƏRTİBİ .....85
HƏM DƏ ELMİ RƏHBƏR .....86
İSTEHSALIN TEXNOLOGİYASI .....88
С ЧЕСТЬЮ ПО ЖИЗНИ .....90
TƏDQİQAT MƏRKƏZİNDƏ .....93
BENTONİT TƏZAHÜRLƏRİ AŞKAR OLUNMUŞDUR .....95
ELMİ MƏQALƏLƏRDƏ ƏKS ETDİRMİŞDİR .....96
İSTEHSALAT TƏCRÜBƏSİ MƏKTƏBİ KEÇMİŞDİR .....97
HASİLATIN ARTIRILMASI ÜÇÜN .....98
ŞÖBƏ RƏİSİ .....100
SINAQLARDAN KEÇMİŞ HƏYAT YOLU .....101
BÖYÜK ƏMƏK SƏRF ETMİŞDİR .....103
SOSİAL XİDMƏT .....105
QAYĞILI NEFTÇİ .....107

ATALARIN GETDİYİ YOLDUR - GETDİYİMİZ YOL ..... 109
HƏMİŞƏ QABAQCILLAR SIRASINDA ..... 111
TƏCRÜBƏLİ MÜTƏXƏSSİS ..... 114
GƏNCLƏRİN HAMİ TƏRBİYƏÇİSİ ..... 115
ÇƏTİN HƏYAT YOLU ..... 116
UĞURLU YOLDA İRƏLİLƏYİRLƏR ..... 118
BACARIQLI İQTİSADÇI ..... 120
O, HƏM DƏ FƏAL İCTİMAİYYƏTÇİDİR ..... 122
KADR SİYASƏTİ ..... 123
ƏMƏK VETERANI, QAYĞIKEŞ AİLƏ BAŞÇISI ..... 127
SEX RƏİSİ ..... 129
TACA LAYİQ GÖVHƏR ..... 131
DƏRİN NEFT KƏŞFİYYATI QUYULARININ USTASI ..... 133
СЧАСТЛИВАЯ СУДЬБА ЗАБАТ ..... 135
BACARIQLI MEXANİK ..... 137
MƏSULİYYƏT HİSSİ ..... 138
QABAQCIL TƏCRÜBƏNİN TƏTBİQİ ..... 140
MÜRƏKKƏB İŞLƏR ÜZRƏ MÜHƏNDİS ..... 141
DƏRİN KƏŞFİYYAT QUYULARI ..... 142
FƏALLIQ GÖSTƏRİR ..... 143
GƏRGİN ƏMƏK SƏRF ETMİŞDİR ..... 144
ELEKTRİK SEXİNİN RƏİSİ ..... 145
HƏM DƏNİZDƏ, HƏM QURUDA ..... 146
PROFİLAKTİK DƏSTƏNİN KOMANDİRİ ..... 147
RAYON MÜHƏNDİSİ ..... 149
TÜMEN - MURADXANLI ..... 150
DƏRİN FİKİRLİ GEOLOQ ..... 151
SƏY GÖSTƏRİR ..... 153
QUYULARIN OPTİMAL REJİMİ ..... 155
ƏLAÇI NEFTÇİ GEOLOQ - ANA ..... 157
GEOLOJİ FONDA TƏHVİL VERİLMİŞDİR ..... 159
QAZÇIXARMA SEXİNİN RƏİSİ ..... 161
İCTİMAİYYƏTÇİ QADIN ..... 162



TƏCRÜBƏLİ OPERATOR ..... 163
GEOLOJİ İŞLƏR QAYDASINDADIR ..... 164
O, İŞİNƏ MƏSULİYYƏTLƏ YANAŞIR ..... 165
FƏNN KOMİSSİYASININ SƏDRİ ..... 166
FONTANA QARŞI MÜBARİZƏDƏ ..... 167
50 İL NEFT SƏNAYESİ SİSTEMİNDƏ ..... 169

**ÜÇÜNCÜ BÖLMƏ**

HƏYATDA İZİ QALANLAR.
ONLAR XALQIMIZIN SƏADƏTİ UĞRUNDA FƏDAKARLIQ GÖSTƏRMİŞLƏR ..... 171
Adıgözəlov Nəsirəddin Seyfəddin oğlu ..... 173
Bağırov Akif Əliağa oğlu ..... 174
Qəfərov Fikrət Əli oğlu ..... 175
Əliyev İsmayıl Mehdi oğlu ..... 176
Əmirov Hüseynağa Bəbiş oğlu ..... 178
Əsədov Nadir Babaxan oğlu ..... 179
Əsgərov Əzizulla Məşədi Əsgər oğlu ..... 180
Hacıyev Fərman Mustafa oğlu ..... 181
Hüseynov Əli Nəzir oğlu ..... 183
Məmmədov Akif Məti oğlu ..... 185
Məmmədov Əlaşrəf Veysəl oğlu ..... 186
Məmmədov Əflatun Kamal oğlu ..... 188
Məmmədov Rafiq Həsən oğlu ..... 190
Məmmədova Humay Mahmud qızı ..... 192
Mehdiyev Şadət Həmid oğlu ..... 194
Rəhimova Elmira Məmməd qızı ..... 196
Sarıyev Sədaqət Qara oğlu ..... 197
Səfərov Çingiz Yusif oğlu ..... 199
Vəliyev Müslüm Məmməd oğlu ..... 200
OXUCULARIMIZA ..... 202

MƏMMƏD MİRZƏYEV, CANALI MİRZƏLİYEV

# "QARA QIZIL"AĞ SƏADƏT RƏNGİNDƏ

BEŞİNCİ KİTAB

(2004-cü il)

| | |
|---|---|
| Naşir: | Rafiq Xan-Sayadoğlu |
| Kompüter tərtibçisi: | İradə Əhmədova |
| Operatorlar: | Rita Müslümova |
| | Rəna Abbasova |
| Texniki redaktor: | Namiq Osmanov |
| Bədii redaktor: | Həsrət Təmoyev |

Yığılmağa verilmişdir: 19.05.2004
Çapa imzalanmışdır: 07.07.2004
Formatı: 60x90 1/16; şərti ç.v. 13
ofset kağızı; sifariş 78; tiraj 500
"MBM" MMC mətbəəsində
çap olunmuşdur